**Günün sözü**

**Prezident İlham Əliyev:**

**Düşünürəm ki, razılığa gəlmək üçün ən yaxşı yol Azərbaycanla Ermənistan arasında, heç bir vasitəçi, köməkçi və ya pozucu olmadan birbaşa danışıqlardır.**

## Ağdam ölkənin dördüncü böyük şəhəri olacaq




Səhifə ⇨ 10

Səhifə ⇨ 14




## Türkiyənin tərəqqisi Türk dünyasının tarixi uğurudur


# Xalq qəzeti

Xalqın qəzeti!

№ 91 (30207) 4 may 2023-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

veb-sayt: www.xalqqazeti.az


## Avrasiyanın gələcəyinə Azərbaycandan baxış

### Prezident İlham Əliyev Şuşada "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda beynəlxalq konfransda iştirak edib




**Mayın 3-də ADA Universitetinin təşkilatçılığı ilə Şuşada ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda dördüncü beynəlxalq konfrans keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev konfransda iştirak edib.

Konfransı açan Azərbaycan Prezidenti **İlham Əliyev dedi:**

– Sabahınız xeyir. Əziz qonaqlar, Qarabağa xoş gəlmisiniz, Şuşaya xoş gəlmisiniz. Sizi burada görməyə çox şadam. Əvvəla müstəqil Azərbaycanın qurucusu Heydər Əliyevin xatirəsinə həsr olunmuş bu konfransı təşkil etdiyi üçün mən ADA Universitetinə təşəkkürümü bildirmək istəyirəm. Məni bu konfransa dəvət etdilər və mən burada – Qarabağda görüşməyə qərar verdim.

**(ardı 2-ci səhifədə)**

## Polşa Respublikasının Prezidenti Zati-aliləri cənab Andjey Dudaya

**Hörmətli cənab Prezident,**

Ölkənizin milli bayramı – Konstitusiya Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Polşa arasındakı dostluq və əməkdaşlıq əlaqələri zəngin ənənələrə malikdir. Bu ənənələri özündə bariz şəkildə əks etdirən dövlətlərarası münasibətlərimizin hazırkı inkişaf səviyyəsi, siyasi, iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlığımız məmnunluq doğurur.

İnanıram ki, birgə səylərimizlə Azərbaycan-Polşa əlaqələrinin möhkəmlənməsinə, həm ikitərəfli, həm də çoxtərəfli əsasda, xüsusilə də Avropa İttifaqı çərçivəsində qarşılıqlı səmərəli əməkdaşlığımızın daha da genişlənməsinə nail olacağıq.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Polşa xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

Hörmətlə,

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 1 may 2023-cü il**

## Böyük maraqların sülhlə toqquşduğu tarixi an



Səhifə ⇨ 9

## Türk dövlətləri arasında sadələşdirilmiş gömrük dəhlizi gerçəkləşir



Səhifə ⇨ 11

Səhifə ⇨ 11



## Bakı limanı beynəlxalq yollar qovşağında

## Ukrayna Prezidenti Finlandiyaya səfər edib



Səhifə ⇨ 14

# Ermənistan sərhəd təxribatlarından əl çəkməlidir

Səhifə ⇨ 10

Səhifə ⇨ 9



## Gözlənilən bir qərara hayların küyü

## 3 May Türkçülük Günü – qardaşlıq bayramı

Səhifə ⇨ 13




## Bizim qızımız – Fulya

Səhifə ⇨ 14

## Fransız Polineziyası müstəqilliyə qovuşmaq niyyətindədir

Səhifə ⇨ 14

## Qərb, Rusiya və ABŞ vasitəçiliyinə baxış

Səhifə ⇨ 12

# Prezident İlham Əliyev Şuşada “Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə” mövzusunda beynəlxalq konfransda iştirak edib





**(əvvəli 4-cü səhifədə)**

Zati-aliləri, Azərbaycanın Zəngəzur dəhlizi məsələsinin həllində Çinin diplomatik yardımına ehtiyacı varmı? Çünki bu dəhlizlərin bir çoxu “Bir kəmər, bir yol” layihəsinin tərkib hissəsidir. Bununla yanaşı, Çin Səudiyyə Ərəbistanı və İran arasında anlaşmanın əldə edilməsində vasitəçi oldu və bu hadisə regionun iqtisadiyyatına və geosiyasətinə təsir göstərəcək. Siz bu baxımdan böyük Avrasiya məkanında Azərbaycanın rolunu necə görürsünüz? Bununla yanaşı, dollardan istifadənin azaldılması meyillərinə, Şanxay Əməkdaşlıq Təşkilatının genişlənməsinə və BRICS-in getdikcə artan dinamikasına münasibətinizi bilmək istərdim. Təşəkkürlər.

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm. Əvvəlcə bildirmək istərdim ki, Azərbaycan və Pakistan əsl dost və qardaş ölkələrdir. Biz Pakistan xalqına, indiki və keçmiş hökumətlərinə Azərbaycanın ərazi bütövlüyü və suverenliyi ilə bağlı hər zaman göstərilən dəstəyə görə minnətdarıq. İstər işğal dövründə, istərsə də müharibə zamanı və ondan sonrakı dövrdə Pakistanın Prezidenti, Baş naziri və digər yüksəkrütbəli məmurları Azərbaycanı dəstəkləmişlər. Sizdən xahiş edirəm ki, bütün qardaşlarımıza bizim təşəkkürümüzü bildirəsiniz. Pakistan, Türkiyə və Səudiyyə Ərəbistanı işğal səbəbindən Ermənistanla diplomatik münasibətlər qurmayan dünyanın üç ölkəsidir. Biz bunu çox yüksək qiymətləndiririk.

Zəngəzur dəhlizi və Çinin vasitəçiliyi sualınıza gəldikdə, hesab edirəm ki, bu dəhlizin böyük potensialı var və mən artıq bu haqda danışdım. Çin, Qırğızıstan və Özbəkistan arasında dəmir yolu əlaqəsi yaradılır və Zəngəzur dəhlizi həmin marşrutun davamı, “Bir kəmər, bir yol” layihəsinin və ya Şimal-Cənub dəhlizinin tərkib hissəsi ola bilər. Çünki Naxçıvan ərazisindən İranın dəmir yolu ilə bağlantısı var və bu marşrutla Fars körfəzi istiqamətində yüklər daşına bilər. Zəngəzur dəhlizi, sadəcə, Azərbaycan və Ermənistan üçün deyil, hesab edirəm ki, bu layihənin qlobal səviyyədə əhəmiyyəti var. Çünki biz daha böyük həcmdə yüklərin olmasını gözləyirik və marşrutlar nə qədər çox olsa, bir o qədər yaxşıdır. Bizə gəldikdə, biz işğal dövründə ermənilər tərəfindən sökülüb daha sonra satılan, Füzulidən Zəngilana və demək olar ki, Ermənistanla sərhədə qədər uzanan dəmir yolunun inşasını gələn il bitirəcəyik. Ermənistan ərazisindən keçən 40 kilometrdən bir az artıq olan dəmir yolu xətti inşa edilsə, bu, beynəlxalq layihə olacaq. Ermənistan bu layihə qarşısında süni maneələr yaradacaqsa, onlar bundan yalnız uduzacaqlar. Çünki bu gün bizim Gürcüstan, Türkiyə və Rusiya vasitəsilə Qara dəniz limanlarına çıxışımız var, digər tərəfdən İran ərazisindən də istifadə edilir. Ermənistanın isə belə fiziki bağlantıları yoxdur.

Səudiyyə Ərəbistanı və İran arasında münasibətlərin normallaşdırılması məsələsində Çinin rolu ilə əlaqədar sualınıza gəldikdə deyə bilərəm ki, biz Çinin rolunu çox yüksək qiymətləndiririk. Yeri gəlmişkən, Azərbaycan və Çin arasında əla münasibətlər var. Mən Çinin Prezidenti Si Cinpinlə dəfələrlə görüşmüşəm və görüşlərin birində o, məni Çinin yaxşı dostu adlandırıb. Bunun özü bizim əməkdaşlığımızın səviyyəsini nümayiş etdirməyə kifayətdir. Əlbəttə, biz Səudiyyə Ərəbistanı və İran arasında münasibətlərin normallaşdırılmasını dəstəkləyirik. Bu razılaşmanın mahiyyəti bizə məlum deyil. İstənilən halda bu, yaxşı hadisədir. Səudiyyə Ərəbistanı bizim üçün qardaş ölkədir və bu ölkə ilə gözəl münasibətlərimiz var. Biz onlara yalnız tərəqqi, sabitlik və inkişaf arzu edirik. Dediyim kimi, onlar bizə görə Ermənistanla diplomatik münasibətlər qurmayıb və bunun böyük əhəmiyyəti var. İran isə bizim qonşumuzdur və biz orada sabitlik və proqnozlaşdırıla bilinən vəziyyətin olmasını istəyirik. Bu baxımdan Çinin rolu yalnız yüksək qiymətləndirilməlidir.

Şanxay Əməkdaşlıq Təşkilatına gəldikdə, mən təşkilatın Özbəkistanda baş tutmuş Zirvə toplantısında iştirak etmişəm. İlk dəfə idi ki, mən təşkilatın toplantısına dəvət edilmişdim. Bildiyiniz kimi, Azərbaycan təşkilatın üzvü deyil, heç müşahidəçi belə deyil. Azərbaycanın statusu dialoq üzrə tərəfdaşdır. Buna baxmayaraq, Azərbaycan dəvət edilmişdi və hesab edirəm ki, bu, bizim üçün olduqca vacib idi. Çünki Şanxay Əməkdaşlıq Təşkilatının bir çox üzvü ilə bizim çox yaxşı münasibətlərimiz var. Təşəkkür edirəm.

**Hafiz Paşayev:** Cənab Prezident, toplantımız artıq iki saatdır ki, davam edir.

**Prezident İlham Əliyev:** Sizin siyahınız var? Mən onu görməmişəm. Hər şey əlinizdədir.

**Hafiz Paşayev:** Siyahı böyükdür və bəzi yeni sual vermək istəyənlər də var.

**Prezident İlham Əliyev:** Yorulmamısınızsa, zənnimcə, davam edə bilərik.

**Hafiz Paşayev:** İlayda Nichar, Böyük Britaniyanın Xarici İnkişaf İnstitutu.

Böyük Britaniyanın Xarici İnkişaf İnstitutunun (ODI) qlobal risk üzrə eksperti İlayda Nichar: Cənab Prezident, bizə vaxt ayırdığınıza görə təşəkkür edirəm və burada olmağımdan məmnunam. Biz bir çox məsələlərə toxunduq və Orta Dəhlizi müzakirə etdik. Dünən rəqəmsal inkişaf və nəqliyyat naziri çıxışında Orta Dəhlizin yalnız problemlər yarananda istifadə edilməsi ideyasının yanlış olduğunu bildirdi. Sizin fikrinizcə, Orta Dəhlizin xarici tərəfdaşlar tərəfindən istifadəsi və inkişafı baxımından nələr edilə bilər? İcazənizlə, daha bir qısa sualım var. Türk Dövlətləri Təşkilatı ilə bağlı sual verildi, ancaq mən yenə soruşmaq istəyirəm. Müşahidəçi ölkələri və Şimali Kipri nəzərə alaraq, TDT-nin inkişafında Azərbaycan hansı rolu oynaya bilər?

**Prezident İlham Əliyev:** Orta Dəhliz layihəsi tərəfimizdən tam dəstəklənir və onun nəhəng potensialı var. Burada anlamaq lazımdır ki, biz yalnız yük daşımaları üçün tranzit marşrutu olmamalıyıq. Biz bu imkandan istifadə edərək, marşrutboyu biznes fəaliyyətini stimullaşdırmalıyıq. Orta Dəhlizin tərkib hissəsi olan ölkələr yalnız tranzitdən gəlirin əldə olunması ilə kifayətlənməməlidirlər. Bu fürsətdən yerli istehsalın stimullaşdırılmasında istifadə edilməlidir. Bizim Ələt Azad Ticarət Zonasının gələcək fəaliyyəti ilə bağlı böyük gözləntilərimiz var. Zonanın güclü qanunvericilik bazası var, qaydalar, fikrimcə, investorlar üçün cəlbedicidir. İlkin infrastruktur hazırda yaradılır. Biz bundan istifadə edərək, yeni istehsal sahələri və yeni biznes imkanları yaratmaq istəyirik.

Azərbaycanda yaxşılaşan biznes mühitinin olması, vergi və gömrük sahələrində böyük islahatların aparılması və ümumilikdə, bizim bütün maliyyə sistemimizin şəffaflığı istiqamətində həyata keçirilən islahatlar hesab edirəm ki, böyük potensial yaradır. Bundan əlavə, coğrafi yerləşməmiz. Dediyim kimi, Azərbaycan təkcə Şərq-Qərb deyil, Şimal-Cənub dəhlizlərinin kəsişməsində yerləşir. Bütün nəqliyyat imkanlarımız var, infrastruktur tam müasirləşdirilib. Yəni, potensial böyükdür. Yenə də deyirəm, bu imkanlara daha geniş baxılmalıdır. Sadəcə, tranzit ölkəsi olmaq kifayət deyil.

Türk Dövlətləri Təşkilatına gəldikdə, Azərbaycan təşkilatın bütün fəaliyyəti dövründə fəal olub. Vaxtilə onun adı fərqli olsa da, biz çox fəal olmuşuq. Bəzi vaxtlarda müəyyən ölkələrin fəallığı dəyişib, bəziləri daha fəal, digərləri də fəal olub. Elə dövr olub ki, Zirvə toplantıları müntəzəm keçirilməyib. Lakin Azərbaycan hər zaman mühüm ölkə olaraq qalıb. Təsadüfi deyil ki, təşkilatın yaradılması haqqında bəyannamə 10 ildən artıq bundan əvvəl Naxçıvanda qəbul edilib. Təşkilatın adının dəyişdirilməsi onun, sadəcə, necə adlandırılması məsələsi deyil. Burada mahiyyətdən söhbət gedir və biz görürük ki, təşkilata üzv olan ölkələr səylərini səfərbər etməlidir.

Biz təşkilatı daha vacib beynəlxalq oyunçuya çevirə bilsək hər kəs bundan faydalanar. Bizim geniş coğrafiyamız, bəzi ölkələrdə böyük təbii sərvətlər, o cümlədən, enerji ehtiyatları, bəzi ölkələrin güclü hərbi imkanları var. Beləliklə, biz bütün bu səyləri birləşdirsək, əlbəttə ki, qlobal səviyyədə ciddi oyunçu görə bilərik.

Hesab edirəm ki, təşkilat qlobal güc mərkəzlərindən biri ola bilər və olmalıdır. Bir daha deyirəm, əhali, coğrafiya, nəqliyyat marşrutları, Avrasiya komponenti, enerji ehtiyatları var. Türkiyə NATO-nun ikinci böyük ordusuna malikdir. Azərbaycan öz hərbi imkanlarının olduqca yüksək olduğunu nümayiş etdirib. Bütün bu imkanları birləşdirsək, hər kəs bundan yalnız faydalana bilər. Hesab edirəm ki, nə qədər toplaşsaq, ünsiyyətdə olsaq, ölkələrimizdə daha yaxşı anlayış olacaq ki, bu, məhz belə olmalıdır. Bundan əlavə, mənim yanaşmam belədir ki, hər kəs öz ailəsində, öz ölkəsində yaşamalıdır. Düzdür, bu gün qlobal dünyada yaşayırıq və insanlar fərqli ölkələrdə yaşaya bilər. Bu, normaldır. Ancaq mənim şəxsi fikrimdir ki, insan vətənində, ailəsində yaşasa, daha yaxşı olar. Yəni, bu təşkilat da bizim ailəmizdir. Bu, hamımızın təbii məkanıdır. Şimali Kipr Türk Respublikasına gəldikdə, bilirsiniz ki, onlar müşahidəçi oldular. Biz bunu əvvəldən sona qədər dəstəkləyirdik və qardaşlarımızı təbrik edirik.

Yeri gəlmişkən, bizə müəyyən yerlərdən, yəqin özünüz bilirsiniz haradan, bununla bağlı mesajlar gəldi. Bizim cavabımız isə o oldu ki, birincisi, onlar bizim qardaşlarımızdır, ikincisi isə onlar artıq İslam Əməkdaşlıq Təşkilatında müşahidə statusundadırlar ki, o təşkilatın daha çox üzvü var. Beləliklə, hesab edirəm ki, potensial var və mən beynəlxalq arenada gələcək əlaqələndirilmiş fəaliyyətlə bağlı daha çox anlaşmanın şahidiyəm.

**Hafiz Paşayev:** Söz Maykl Ritçiyə verilir.

**Böyük Britaniyanın “Energy Intelligence” nəşrinin redaktoru Maykl Ritçi:** Təşəkkür edirəm, cənab Prezident. Siz Cənub Qaz Dəhlizi ilə bağlı məni maraqlandıran bəzi məsələlər haqqında artıq danışdınız. Mənim fəaliyyət sahəm enerjidir. Siz ehtiyatlar və kommersiya faydası haqqında danışdınız. Mən icazənizlə, daha konkret olmaq istəyirəm. Avropa İttifaqının Prezidenti Ursula Fon der Lyayen ilə imzaladığınız Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumundan irəli gələrək, 2027-ci il üçün Azərbaycan Avropa İttifaqını nə qədər qazla təmin edə bilər? Bu, olduqca sıx zaman kəsiyidir, burada hər hansı bir dəyişiklik ola bilərmi? Nəzərə alsaq ki, Avropa İttifaqı tədricən ənənəvi yanacaq növlərindən istifadənin azaldılmasını hədəfləyir. Bu baxımdan Avropa İttifaqı qarşınızda hansı əlavə uzunmüddətli öhdəlik götürməlidir?

**Prezident İlham Əliyev:** Siz uzunmüddətli öhdəlik kimi çox vacib məsələyə toxundunuz. Rusiya–Ukrayna müharibəsi başlayandan biz bir çox ölkələrdən, 10-dan artıq dövlətdən müraciət almışıq. Müraciətlər təchizatın həcminin artırılması və ya təchizata başlamaq imkanları axtarılmasından ibarətdir. Əlbəttə, bunun üçün əlavə sərmayə lazımdır və bir sıra texniki məsələlər öz həllini tapmalıdır. Əlbəttə, biz həmin qaz qıtlığının hansı həcmdə olacağını və gələcəkdə təbii yanacaq növlərinə münasibətin necə olacağını bilməliyik. Bildiyiniz kimi, Avropa İnvestisiya Bankı artıq təbii yanacaqla bağlı layihələri maliyyələşdirmir. Bunu şərh etmək istəmirəm. Ancaq biz bunu nəzərə almalıyıq. Biz elə bir vəziyyətə düşmək istəmirik ki, planlaşdırmadığımız halda milyardlarla dollar sərmayə yatıraq və sonra bizə desinlər, bizim artıq hidrogenimiz var, təşəkkür və əlvida.

Bu səbəbdən, Avropa Komissiyası ilə enerji dialoqumuzun elementlərindən biri də məhz sizin çox doğru olaraq qeyd etdiyiniz məsələ ilə bağlıdır. Bizim proqnozlaşdırılmaya ehtiyacımız var. Biz yardım etməyə hazırıq, artıq bunu edirik və əlavə sərmayə yatırırıq. Biz Avropa ölkələrinə mümkün qədər çox qaz nəql etmək üçün bir sıra digər diplomatik addımlar atırıq. Əlbəttə, biz istəyirik Avropa Komissiyası bizim mövqeyimizi anlasın ki, gələcək fəaliyyətimizi planlaşdıra bilək. Ümumilikdə, bizim Avropa Komissiyası ilə bir çox sahələri əhatə edən enerji dialoqumuz var – təkcə qaz deyil, buraya bərpaolunan enerji və yaşıl hidrogen daxildir. Yəni, portfel olduqca genişdir. Konkret rəqəmlərə gəldikdə, Anlaşma Memorandumuna əsasən, biz 2027-ci il üçün qaz təchizatımızı iki dəfə artıracağıq. Bu, təqribən 20 milyard kubmetrdir. Hesab edirəm ki, bu, tamamilə realdır. Bu, real olmasa idi, biz onu imzalamazdıq. Hər hansı bir forsmajor baş verməsə, bu, tamamilə realdır. 2021-ci ildə bizim Avropa bazarına təchizatımız təqribən 8 milyard kubmetr idi. Bu il isə bu rəqəm 12 milyard kubmetr olacaq. Yəni, iki ildə 8-dən 12-yə qalxıb və belə iri addımlarla irəliləsək, 2027-ci ildə 20 milyarda çata bilərik.

Mənbə barəsində sual verə bilərsiniz. Sizə deyim ki, birincisi biz “Şahdəniz” yatağından əlavə qaz gözləyirik. Təqribən dörd ildən sonra, bəlkə də daha tez, biz “Şahdəniz” yatağının yeni fazasından əlavə qaz hasil edəcəyik. “Abşeron” yatağından bir neçə ildir ki, qaz gözləyirik və ümid edirəm ki, bu il buna nail olacağıq. İlk mərhələdə “Abşeron”dan 1,5 milyard kubmetr əldə edəcəyik, daha sonra isə ikinci mərhələnin nədən ibarət olacağına qərar verəcəyik - hansı bazara nəql edəcəyik, yerli, yoxsa xarici? Sizi çox detallarla yormaq istəmirəm. Əlbəttə, “Azəri–Çıraq–Günəşli” yatağının böyük potensialı var və BP və SOCAR artıq o layihədə fəal çalışır.

Bu, nəhəng qaz-kondensat yatağıdır və onun minimum ehtiyatı 300 milyard kubmetrdir. Əlbəttə, “Ümid” və” Babək” yataqlarının böyük potensialı var. Orada SOCAR özü fəaliyyət göstərir, ancaq biz xarici tərəfdaşlarla işləməyə hazırıq. “Qarabağ” neft yatağımız var və orada da potensial var. Beləliklə, qazın mənbəyi bunlardır. Digər tərəfdən, əlavə həcm üçün idarəçiliyin səmərəliliyi, itkilərin azaldılması və qazpaylayıcı şəbəkəmizin müasirləşdirilməsi həyata keçirilir və əlbəttə ki, bərpaolunan enerji. Bu gün biz ən azı 5 milyard kubmetri enerji istehsalında istifadə edirik. Yəni, kifayət qədər bərpaolunan enerjimiz olsa, bu 5 milyard bazara çıxarıla bilər.

Lakin yenə də qayıdırıq bir məsələyə. Qazın nəqli üçün imkanlar olmalıdır. TAP genişləndirilməlidir. Onun səhmlərinin 20 faizi Azərbaycana məxsusdur, bir şirkətdən başqa digərlərinin də payı 20 faizdir. Burada TAP-ın genişləndirilməsinə dair birgə qərar verilməlidir. TAP genişləndirilməsə, qaz olmayacaq. Bu gün TAP maksimum həddə çalışır. TANAP-ı genişləndirmək daha asandır, çünki o layihədə Azərbaycan, Türkiyə və BP var. TAP-da isə daha çətindir. Trans-Balkan boru kəmərinə çıxışımız olmalıdır ki, bizim qazı gözləyən ölkələri təchiz edə bilək. Avropada interkonnektorlar vaxtında tikilsə, biz bu ilin sonunda Macarıstanı və Serbiyanı qazla təmin edə bilərik.

Bu il artıq Rumıniyaya qazın nəqli başlayıb. Yunanıstan, İtaliya və Bolqarıstana qaz nəql edilir, Albaniyada qazpaylayıcı şəbəkənin yaradılması layihəsinə sərmayə qoyuluşuna dair danışıqlar aparılır. Çünki Albaniya tranzit ölkəsi olmasına baxmayaraq, qazpaylayıcı şəbəkəyə malik deyil. Biz həmin şəbəkənin yaradılmasına böyük sərmayə yatırmağı planlaşdırırıq. Mən bir neçə gün əvvəl Sofiyada idim və “Həmrəylik Halqası” layihəsinin başlanılması tədbirində iştirak etdim. Artıq Slovakiya da bu prosesə qoşulur. Hazırda biz 6 ölkəyə qaz ixrac ediriksə, işlər qrafik üzrə getsə və fors-major halları olmasa, ölkələrin sayı bir ilə 10 ola bilər. Məhz bu səbəbdən komissar Simson deyir ki, Azərbaycan pan-Avropa təchizatçısı olacaq. Bu, hələ yekun deyil. Bazar olarsa və interkonnektorlar tikilərsə, bizə hələ də müraciət edən ölkələr var. Balkanlarda və Avropanın digər regionlarından adını çəkmədiyim ölkələr var ki, onlar da Azərbaycan qazını ala bilərlər. Beləliklə, geniş mənzərə aydındır, lakin bütün bu layihələr üçün əlaqələndirmə lazımdır. Biz vaxtında yaşıl enerji layihəsini icra etməsək, bu, digər layihələrin gecikməsinə səbəb olacaq.

**ABŞ-ın “ALG Transportation” şirkətinin rəhbəri Fərhad Azima:** Təşəkkür edirəm, cənab Prezident. Burada olmağın mənim üçün xüsusi əhəmiyyəti var. Bu məkanla bağlı mərhum Prezidentin arzusu Sizin tərəfinizdən reallaşdırıldı. Burada olmaq mənim üçün şərəfdir. Özbəkistan, Türkmənistan və Qazaxıstan qazının asanlıqla Xəzər dənizinin dibi ilə boru kəməri vasitəsilə Bakıya, oradan isə Avropaya nəqli üçün bütün imkanlar. Bu layihənin qarşısında duran maneələr hansılardır?

**Prezident İlham Əliyev:** Bunu demək çətindir, çünki adətən qaz infrastrukturunun inşası layihələrinin təşəbbüskarı və onları maliyyələşdirənlər həmin enerji resurslarının sahibi olan ölkələrdir. Nümunə olaraq bizi göstərmək olar. Biz resursların sahibiyik, biz Cənub Qaz Dəhlizi layihəsinin təşəbbüskarı olmuşuq və onu tərəfdaşlarımızla birgə inşa etmişik və bu işdə beynəlxalq maliyyə qurumları bizə kömək ediblər. Bu, Bakıdan İtaliyaya qədər uzanan 3500 kilometrlik boru kəməridir və onun bir hissəsi dənizin dibi ilə keçir. Bu, milyardlarla dollarlıq mühüm sərmayədir və biz hələ mənfəət əldə etməmişik. Yəni, bu, uzunmüddətli sərmayədir və bu, strateji qərar idi. Bu olmasa idi, indi haqqında danışdıqlarımızın heç biri mümkün olmazdı. Yeri gəlmişkən, tarixi yaddaş üçün qeyd edim ki, Azərbaycan Cənub Qaz Dəhlizinin təşəbbüskarı olub. Buna qədər müxtəlif layihələrlə bağlı fərqli mülahizələr və müzakirələr olub. Mən şəxsən NABUCCO ilə bağlı 10-a yaxın beynəlxalq tədbir və konfransda iştirak etmişəm. Bəlkə bu da 907-ci düzəliş kimi hamının yadından çıxıb. Bu layihə baş tutmadı. Niyə? Çünki sual verilirdi ki, bunu kim maliyyələşdirəcək. Bu sual yaranan kimi hamı geri çəkilirdi. Beləliklə, biz Cənub Qaz Dəhlizinin təşəbbüskarı olduq, onu vaxtında inşa etdik və indi də onun bəhrəsini görürük.

Mərkəzi Asiya qazına gəldikdə, bu qərar təbii ehtiyatların sahibləri tərəfindən verilməlidir. Sahiblər haraya, hansı istiqamətdə ixrac etmək istəyirlər – Şərq, yaxud Qərb. Onlar Qərb və ya hər iki istiqaməti seçəcəklərsə, Azərbaycan olaraq biz buna vasitəçi olmaq üçün əlimizdən gələni edəcəyik. Biz texniki yardım göstərə bilərik. Xəzər dənizində yalnız bizdə olan boru inşa edən barjlarımızı təklif edə bilərik. Biz Səngəçal terminalına və boru kəmərləri sistemimizə çıxış təmin edə bilərik. Lakin bu qərar onlar tərəfindən verilməlidir və belə bir qərar olarsa, layihə ilə bağlı maliyyə paketi də onlar tərəfindən təşkil edilməlidir. Yəni, konsorsium yaradılmalı, korporativ sərmayə, kreditlər kimlər tərəfindən veriləcək – bütün bunlar layihənin mühüm parçasıdır. Yəni, bu, bir növ tətikdir və o sıxılmasa iş getməyəcək.

Deyək ki, bütün sadaladıqlarım həll edildi və qaz Azərbaycanın sahillərinə çatdırıldı. Sonra o necə ixrac olunacaq, həcmlər nə qədər olacaq, sahiblər və istehlakçılar arasında kommersiya şərtləri nədən ibarət olacaq? Biz, sadəcə, tranzit ölkəsi ola bilərik və biz, əlbəttə ki, olduqca ədalətli tranzit ölkəsi olacağıq. Yeri gəlmişkən, neft və qaz satışından əldə etdiyimiz gəlirin fonunda tranzitdə əldə edə biləcəyimiz vəsait o qədər də böyük deyil.

**(ardı 6-cı səhifədə)**

# Prezident İlham Əliyev Şuşada “Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə” mövzusunda beynəlxalq konfransda iştirak edib

**(əvvəli 5-ci səhifədə)**



Yəni, bunun mühüm iqtisadi əhəmiyyəti yoxdur. Bu, sadəcə, enerji təhlükəsizliyinə töhfədir, Şərq və Qərbdə olan dostlarımız üçün vasitəçi olmaqdır. Bir sözlə, biz bu layihənin təşəbbüskarı və onu maliyyələşdirən ola bilmərik. Beləliklə, bu layihənin nədən baş tutmaması sualı mənə deyil. Bəlkə sizin qonşunuz cavab verə bilər.

**Özbəkistan Ali Məclisinin Senatı sədrinin birinci müavini, Dünya İqtisadiyyatı və Diplomatiya Universitetinin rektoru Sodiq Şafoyev:** Möhtərəm cənab Prezident, Türk dünyasının mədəniyyət paytaxtı seçilən Şuşada Sizə minnətdarlığımı özbək dilində bildirmək istəyirəm. Biz bu gün böyük ilham aldıq. Dünən məndən soruşulanda ki, Sizə sual verəcəyəmmi, dedim mən dinləyəcəyəm. Mən bu toplantıya görə Sizə böyük təşəkkürümü bildirirəm. Biz Sizin baxışınızı, ilhamlandırmağınızı və dərin təhlilinizi yüksək qiymətləndiririk. Əminəm ki, hər birimiz üçün Sizin qiymətləndirməniz, proqnozlarınız və təhlilinizi dinləmək olduqca maarifləndirici oldu. İki gün öncə Daşkənddə bizim üçün də dahi dövlət xadimi olan Heydər Əliyevin yüzillik yubileyinə həsr edilmiş konfrans keçirdik.

Şadam ki, referendumu müşahidə etmək üçün ölkəmizdə səfərdə olan Azərbaycanın Milli Məclisinin nümayəndə heyəti də həmin tədbirdə iştirak etdi. Mayın 10-na qədər Özbəkistanda Heydər Əliyevin irsinə həsr edilmiş silsilə tədbirlərin başlanğıcı olan bu konfransımızdan hasil olan əsas qənaətimiz ondan ibarət oldu ki, o, böyük nüfuza və zəngin təcrübəyə malik insan olub. O, bu gün hamımıza lazım olana – liderliyə sahib olub. Bu gün burada – Şuşada onun arzularının gerçəkləşdirildiyini görürük. Biz onun irsini gözəl və möhtəşəm Bakıda, Azərbaycanın qüdrətli Ordusunun gücündə və ruhunda, Şuşanın dirçəlməsində görürük. Bizə bunu görmək üçün fürsət yaratdığınıza görə təşəkkür edirəm. Heydər Əliyevin böyük mirası əbədi olsun, onun ideyaları Azərbaycana yeni-yeni zəfərlər gətirsin. Sizə bir daha minnətdarlığımı bildirirəm, cənab Prezident.

**Prezident İlham Əliyev:** Yəqin başa düşdünüz ki, bizim tərcüməçiyə ehtiyacımız yoxdur. Bizim dillərimiz və xalqlarımız o qədər yaxındır ki, biz bir-birimizi təkcə anlamır, həm də bir-birimizin nəbzini hiss edirik. Sözlərinizə görə çox təşəkkür edirəm. Bütün Özbəkistandakı qardaşlarımıza Heydər Əliyevin xatirəsinə ehtirama görə minnətdarıq. Mənim Daşkəndə rəsmi səfərim zamanı qardaşım Prezident Mirziyoyev ilə birgə biz Heydər Əliyevin onun adını daşıyan parkda ucaldılmış abidəsinin açılışını etdik. Bu, bizim dostluğumuzun və qardaşlığımızın bayramı idi. Biz buna görə minnətdarıq.

Bu fürsətdən istifadə edərək, Özbəkistan xalqını mühüm siyasi hadisə olan uğurlu referendumla bağlı təbrik etmək istəyirəm ki, bunun nəticəsində siyasi sistemin daha da inkişafı, iqtisadi və sosial tərəqqi üçün imkanlar yaranacaq. Bilirsiniz ki, mən və Prezident Mirziyoyev yaxın dostuq və nazirlərə demişik ki, biz təlimatlarımızın icrasına şəxsən nəzarət edəcəyik və bu, artıq baş verir. Vaxtınızı çox almaq istəmirəm, ancaq əməkdaşlığımızın mahiyyəti və ruhu unikaldır. Təqribən eyni dildə danışan və eyni dəyərləri paylaşan iki qardaş xalq arasında bu, məhz belə də olmalıdır. Təşəkkür edirəm və Qarabağa xoş gəlmisiniz deyirəm.

**Hafiz Paşayev:** Cənab Prezident, Siz vaxtınız baxımından çox səxavətlisiniz. Mən sualları bitirərək burada iştirak edən bir nəfəri qeyd etmək istəyirəm. Dünən o, özünün baxışı, Qarabağa dair hissləri və Heydər Əliyevlə görüşlərinə həsr olunmuş qısa film təqdim etdi. Həmin şəxs Tomas Qoltsdur və o bizimlədir. Səhhəti ilə bağlı bizim konfransa daha böyük töhfə verə bilməsə də, onun etdiyi çox dəyərli idi və biz ona Şuşaya, Qarabağa səfərə gəldiyinə görə təşəkkür edirik. Çünki mən xatırlamıram ki, hər hansı bir jurnalist və ümumiyyətlə amerikalı Qarabağı Amerika ictimaiyyətinə bu dərəcədə düzgün tanıtsın və reallığı çatdırsın. Biz çox minnətdarıq. Dediyim kimi, dünən filmin təqdimatı oldu. Bildiyiniz kimi, Heydər Əliyevin Naxçıvanda yaşadığı vaxtda Tomas oraya ilk səfər edənlərdən olub. Həmin filmdə arxa planda onun özü də var idi. Beləliklə, Tomas, bir daha sağ olun və məmnuniyyətlə sizinlə şəkil çəkdirərdik.

**Prezident İlham Əliyev:** Bəli, böyük məmnuniyyətlə. Mən cənab Qoltsu tanıyıram, biz bir neçə dəfə tədbirlərdə görüşmüşük. Mən onun ədalətin bərpa olması məsələsinə nə qədər sadiq olduğunu bilirəm və ədalətin bərpasının bir elementi də onun Şuşada olmasıdır. Bu, ədalətin təntənəsidir. Sizə bütün gördüyünüz işlərə görə və bu gün bizimlə olduğunuza görə çox təşəkkür edirəm.

Hər kəsə təşəkkür edirəm. Şəklə gəldikdə isə biz bir ailə fotosu və fərdi fotolar çəkdirə bilərik. Gəlin, bunu açıq havada edək və yaxşı yer seçək.

***

Sonda xatirə şəkli çəkdirildi.

***

Avrasiyanın üzləşdiyi risk və təhdidlər, yeni çağırışlarla bağlı beyin mərkəzlərinin iştirakı ilə ölkəmizdə müzakirələrin aparılması artıq ənənə halı alıb. Budəfəki konfransın Şuşada keçirilməsi isə erməni vandalizminin izlərinin və Azərbaycanın işğaldan azad olunmuş ərazilərdə həyata keçirdiyi bərpa və yenidənqurma işlərinin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması baxımından əhəmiyyətli idi. Bu konfrans, eyni zamanda, postmünaqişə dövründə Cənubi Qafqaz ölkələri arasında əlaqələrin inkişafı, kommunikasiyaların açılması imkanları ilə bağlı müzakirələrin aparılması, bölgənin tərəqqisinin, təhlükəsizliyinin və rifahının təməli kimi Azərbaycanın Ermənistanla münasibətlərin normallaşdırılması üçün formalaşdırdığı sülh gündəliyinin nəzərdən keçirilməsi baxımından əhəmiyyətli platforma olaraq qiymətləndirilə bilər.

**AZƏRTAC**

## Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 9 dekabr tarixli 226 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında dövlət əmlakının Registri haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 9 dekabr tarixli 226 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 12, maddə 706; 2001, № 10, maddə 640; 2006, № 5, maddə 409, № 7, maddə 590; 2010, № 7, maddə 610; 2020, № 12 (I kitab), maddə 1477; 2023, № 1, maddə 69) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında dövlət əmlakının Registri haqqında Əsasnamə”yə aşağıdakı məzmunda 24-1-ci bənd əlavə edilsin:

“24-1. Daşınmaz dövlət əmlakı barədə məlumat almaq üçün tələb olunan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət qurumundan əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar müraciət edəndən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi müraciət edənin razılığı ilə sorğu əsasında müvafiq dövlət qurumundan tələb olunur və ya müraciət edən tərəfindən təmin edilir.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 28 aprel 2023-cü il**

## Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 oktyabr tarixli 972 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət və bələdiyyə mülkiyyətində olan torpaqların mülkiyyətə və ya icarəyə verilməsi ilə bağlı torpaq müsabiqələrinin və hərraclarının keçirilməsi Qaydaları”nda dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 oktyabr tarixli 972 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 577; 2008, № 12, maddə 1063; 2014, № 11, maddə 1421; 2016, № 2 (II kitab), maddə 241; 2023, № 1, maddə 69) ilə təsdiq edilmiş “Dövlət və bələdiyyə mülkiyyətində olan torpaqların mülkiyyətə və ya icarəyə verilməsi ilə bağlı torpaq müsabiqələrinin və hərraclarının keçirilməsi Qaydaları”na aşağıdakı məzmunda 9-1-ci bənd əlavə edilsin:

“9-1. Bu Qaydaların 9-cu bəndində göstərilən sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət qurumundan əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar ərizəçidən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət qurumundan tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 aprel 2023-cü il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 140** **Bakı şəhəri, 2 may 2023-cü il**

***“Məhkəmə Ekspertlərinin Reyestrinin aparılması qaydaları”nın təsdiq edilməsi haqqında***

“Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 29 noyabr tarixli 1709-VQD nömrəli Qanununun tətbiqi və “Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 yanvar tarixli 252 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 18 dekabr tarixli 883 nömrəli Fərmanının 1.1.4-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Məhkəmə Ekspertlərinin Reyestrinin aparılması qaydaları” təsdiq edilsin (əlavə olunur).

**2.** Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə”nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

**Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 141** **Bakı şəhəri, 2 may 2023-cü il**

***“Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisində müvəqqəti olma müddətinin uzadılması, müvəqqəti və ya daimi yaşamaq üçün icazənin, o cümlədən iş icazəsinin verilməsi (və ya müddətinin uzadılması) üçün ərizə-anket nümunələrinin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 7 fevral tarixli 40 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 681-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 7 fevral tarixli 40 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 2, maddə 195; 2015, № 10, maddə 1222; 2016, № 8, maddə 1451; 2018, № 4, maddə 822; 2019, № 12, maddə 2093; 2020, № 8, maddə 1125; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 18 aprel tarixli 119 nömrəli Qərarı) ilə təsdiq edilmiş 4 nömrəli əlavə - “Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə iş icazəsinin verilməsi (müddətin uzadılması) üçün ərizə-anket”in 3-1-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

<table>
<tr><td rowspan="3">3-1.Hazırkı müraciətinizə baxılması üçün seçdiyiniz müddət (müraciətin nəticəsinin vaxtında əldə olunmaması seçilmiş müddətə görə ödənilməsi nəzərdə tutulan dövlət rüsumunun məbləğinə təsir göstərmir)<br>(Period selected for consideration of your current application (failure to obtain the outcome of the application in time does not affect the amount of the state fee to be paid for the selected period)</td><td>10 (on) iş günü (10 (ten) working days)<br>□</td><td>15 (on beş) iş günü (15 (fifteen) working days)<br>□</td><td>20 (iyirmi) iş günü (20 (twenty) working days)<br>□</td></tr>
<tr><td colspan="3">Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə iş icazəsinin verilməsinə və müddətinin uzadılmasına münasibətdə 2023-cü il yanvarın 1-dən 5 (beş) il müddətinə<br><br>(With respect to issuance and extension of work permit for foreigners and stateless persons to carry out paid labor activity in the liberated territories of the Republic of Azerbaijan during a 5 (five)-year period starting from January 1, 2023)</td></tr>
<tr><td>5 (beş) iş günü (5 (five) working days)<br>□□</td><td>10 (on) iş günü (10 (ten) working days)<br>□□□□</td><td>15 (on beş) iş günü (15 (fifteen) working days)<br>□□□□□</td></tr>
</table>

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## David Merkel: Avrasiyanın gələcək geosiyasətindən danışmaq üçün ən gözəl məkan Azərbaycandır

**Avrasiyanın gələcək geosiyasətindən danışmaq üçün ən gözəl məkan məhz Azərbaycandır.**

Bunu AZƏRTAC-a açıqlamasında ABŞ Dövlət Departamentinin Avropa və Avrasiya məsələləri üzrə katibinin köməkçisinin keçmiş müavini David Merkel deyib.

O qeyd edib ki, Azərbaycanın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinin qeyd olunması üçün yer baxımından da Şuşa şəhəri ən gözəl məkandır. “Dərin strateji baxışa malik iki Prezidentinizin olması azərbaycanlıları çox şanslı edir. Hər iki Prezident bu gün Azərbaycanın firavan və təhlükəsiz olmasına imkan yaradıb. Şuşanın işğaldan azad edilməsindən sonra biz indi daha geniş regional imkanlardan, Avrasiyanı bir araya gətirmək üçün Azərbaycanın tranzit imkanlarından danışırıq”, – deyə o əlavə edib.



# O, bir məktəb idi...

BİRİNCİ ESSE

## “Dünya axirət əkini...”

## (Heydər Əliyev haqqında söz)

**Elçin, Xalq yazıçısı**

**Yaxşı xatirimdədir ki, mən bu yazını indi çox uzaqlarda qalmış o iyul gecəsi birnəfəsə yazdım və burada açıq-aşkar hiss olunan pərişanlıq ab-havası da, əslində, o zaman Azərbaycan rəhbərliyinin, dönük insanların, ovcuna alıb qaldırdığı vəzifə sahiblərinin, bir sözlə, nankorların, cahillərin və tərbiyəsizlərin Heydər Əliyevə qarşı etibarsızlığı, hörmətsizliyi, kəmfürsətliyi nəticəsində daxilimdə yaranmış pərişanlığın ifadəsi idi.**

**O zaman xalqın çağırışı və təkidi ilə Heydər Əliyevin yenidən hakimiyyətə gəlişi hələ irəlidə idi və mən bu yazını o vaxtkı əsas qəzetlərdə heç cür çap etdirə bilmədim, sonralar ona yaltaqlanan bir sıra mətbuat “rəhbərləri” və qeyri-“rəhbərləri” qələmə aldıqlarımı yaxına buraxmırdı (vəfat etdikləri üçün onların adlarını çəkmirəm, hələ sağları da mənim üçün elə vəfat etmişlər kimidir).**

**Nəhayət, bu yazı “Aydınlıq” qəzetində dərc olundu və 31 ildən (!) sonra Heydər Əliyevin 100 illiyi münasibətilə bir sözünə də toxunmadan onu “Xalq qəzeti”nin oxucularına təqdim edirəm.**

1987-ci ildə Heydər Əliyev xəstələndi, Mixail Qorbaçovun ətrafında get-gedə tamam dekorasiyaya çevrilən rəhbərliyin arasında görünmədi və Bakıda “obıvatel” şayiələrindən tutmuş səriştəli və səriştəsiz siyasi proqnozlaracan cürbəcür fikirlər, gümanlar, yozmalar tüğyan eləməyə başladı.

Həmin ilin payızında Moskvada növbəti Beynəlxalq Kitab Yarmarkasının işində iştirak edirdim və Heydər Əliyev xəstəlikdən sonra ilk dəfə o yarmarkanın açılışına gəldi. Azərbaycan pavilyonunda başqa iştirakçılarla bərabər, onunla görüşdük. Arıqlamışdı, aşkar hiss olunurdu ki, ağır xəstəlikdən qalxıb və mən ona baxa-baxa 70-ci illəri, 80-ci illərin əvvəllərini yadıma salırdım. Bakıda, rayonlardakı cürbəcür aktivlərdə, görüşlərdə, iclaslarda saatlarla sinədəftər və ehtirasla danışıqları gözümün qabağından keçirdi, Şuşada Vaqifin məqbərəsinin ziyarəti zamanı qarın-çovğunun içində başıaçıq, iri və möhkəm addımlarla getməyini xatırlayırdım (elə bil ki, Leonid Brejnevin dediyi və indi hamının lağa qoyduğu “Şiroko şaqayet Azerbaydjan!” sözləri məcazi yox, fiziki mənada elə bu adamın özü haqqında deyilmişdi) və fikirləşdim ki, elə bil, qorxunc sistem bu dəfə təbiətlə də əlbir olub və qopardığını ondan qoparıb...

Yarmarkadan sonra mən Almaniya Demokratik Respublikası Yazıçılar İttifaqının dəvətilə “Drujba narodov” jurnalının baş redaktoru, ədəbiyyatımızın o zamankı İttifaq səviyyəsində tanınmasında müəyyən xidmətləri olan Sergey Baruzdinlə birlikdə Şərqi Berlinə getdim və orada eşitdim ki, Heydər Əliyev Siyasi Büro üzvlüyündən və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən azad olunub.

Təkcə elə S.Baruzdinin simasında “sovet cəmiyyəti” deyilən o ictimai əxlaq pozğunluğunun bu hadisəyə necə münasibət bəsləyəcəyi mənim üçün tamam aydın idi: bütün səfər boyu yeri düşdü-düşmədi mənə və mən iştirak edən məclislərdə başqalarına Heydər Əliyevi şit-şit tərifləyən yazıq Sergey Alekseyeviç birdən-birə 180 dərəcə dəyişdi, onu tənqid etməyə, haqqında şovinist bir istehza ilə danışmağa başladı. Təbii ki, cavabını verirdim və Baruzdin də artıq dünyasını dəyişdiyi üçün, bu barədə təfərrüata varmaq istəmirəm, amma məsələ burasındadır ki, onun o gözlənilməz dəyişikliyi küləyin səmt göstəricisi idi.

Berlindən qayıdanda gecə Moskvada “Moskva” mehmanxanasına ayaq basarkən, ilk gördüyüm dost adam Elmlər Akademiyamızın prezidenti Eldar Salayev oldu və salamsız-kəlamsız ona dediyim sözlər indiyə kimi mənim də yadımdadı, Eldar Salayevin də. Dedim: “– Görəcəksən, birinci ermənilər başlayacaq!..”

Təəssüf ki, belə də oldu.

Heydər Əliyev nüfuz sahibi idi və o nüfuz, hətta erməni daşnak irqçiliyinin belə, qarşısında bir səddə çevrilmişdi.

Bu yaxınlardakı müsahibələrdən birində mənə belə bir sual verdilər ki, 70-ci illərdə, 80-ci illərin əvvəllərində Azərbaycanda “dalğalanan” Qırmızı Bayraqlar haqqında nə deyə bilərsiniz? Belə cavab verdim ki, o Qırmızı Bayraqlar tarixin faktıdır, onları danmaq olmaz və lazım da deyil. Doğrudan da, belədir. Bu günün nəzərləri ilə yaxın (eyni zamanda çox uzaq!) keçmişimizə nəzər salanda, o “təntənəli” iclasları xatırlayanda, indi onlar adama fatmosqraik, əcaib, hətta sürrealist təsir bağışlayır. Ancaq bu, məsələnin bir tərəfidir: görünən və yekdilliklə pislənən, tənə gətirən tərəfi. İkinci tərəf isə görünmür, dərindədir və mürəkkəbdir. O da bundan ibarətdir ki, həmin “təntənə”lərin arxasında konsperativ şəkildə, xəlvətcə, bəlkə də təhtəlşüur, sövq-təbii olaraq xalqın nüfuzunun artması, uzun illərin sarsıntısından sonra akvarellə nəzərə çarpacaq milliyyətçi dirçəliş prosesi başlamışdı. Yüksək bürokratiya xalqın lideri ilə necə hesablaşırdısa, yavaş-yavaş onlarda xalqın özünə də münasibətdə, bəlkə də, daxilən istənilməyən, arzu olunmayan bir ehtiram yaranırdı.

Bu sətirləri yazıram, xəyal isə məni bu dəfə 1985-ci ilə aparır: onda da Moskvada Beynəlxalq Kitab Yarmarkası idi (iki ildən bir keçirilirdi) və “təntənəli” açılış mərasimini keçirmək üçün yüksək rəhbərlik, görkəmli ictimai xadimlər, yazıçılar yarmarka pavilyonunun qarşısına toplaşmışdılar.

Mən o zaman da yarmarkada Azərbaycan nümayəndəliyinin üzvü idim. Yavaş-yayaş yağış yağırdı, mərasim isə başlamırdı. Məlum oldu ki, hamı, o cümlədən, Sov.İKP MK-nın yüksək vəzifəli çinovnikləri, nazirlər Heydər Əliyevin gəlişini gözləyir, o isə gəlib çıxmır. Yağış get-gedə bərkiməyə başladı. Nazirlər, MK-nın şöbə müdirləri xaricdən gəlmiş qonaqların istehzalı nəzərləri altında başlarının üstünə qəzet tutub eləcə yağışın altında dayanmışdılar və mərasimi başlamağa cürət etmirdilər. Nəhayət, Heydər Əliyevin maşını gəldi və indiki kimi mənim gözlərimin qabağındadır ki, Aleksandr Nikolayeviç Yakovlev – gələcək Siyasi Büro üzvü və bu gün köhnə üsul-idarəni ifşa eləyən adam, o zaman isə Sov. İKP MK-nın yeni təyin olunmuş şöbə müdiri o yağışın altında axsaya-axsaya necə maşının qabağına yüyürdü, Heydər Əliyevi necə yaltaqcasına qarşıladı...

Sistemin bir xüsusiyyi var idi: qorxanda yaltaqlanırdı və sənə yaltaqlanırdısa, mənsub olduğun xalqa da ehtiyatlı yanaşmaq məcburiyyəti qarşısında qalırdı. Stalin zamanı gürcülərə münasibəti xatırlayaq və bu cür misalları çox gətirmək olar.

O Qırmızı Bayraqlarla bərabər, xüsusən 80-ci illərin əvvəllərində Azərbaycanda milli təfəkkürün, özünəqayıdışın ayrı-ayrı fərdlər arasında yox, bir küll halında oyanma dövrü idi. Yalnız elə Hüseyn Cavidin cənazəsinin Sibirdən gətirilib, doğma yurdda torpağa tapşırılması faktını xatırlayaq. Yaxud 1981-ci ildə Azərbaycan yazıçılarının VII qurultayındakı sözün yaxşı, sağlam mənasında millətçilik əhvali-ruhiyyəsi, “İran Azərbaycanı” ifadəsinin “Cənubi Azərbaycan” ifadəsi ilə əvəz olunmasının rəsmiləşdirilməsi...

Əlbəttə, bütün dövrlərdə olduğu kimi, o dövrdə də haqlı işdən çıxarılanlarla bərabər, haqsız işdən çıxarılanlar da olub, haqsız incidilənlər də olub, amma onilliklər boyu insani hisslərə yad olan ictimai əxlaqı (daha doğrusu, əxlaqsızlığı!) zorla həyata tətbiq edən, insanı mənən əzən və lazım gəldikdə cismən də məhv edən sistemi də yəqin ki, yaddan çıxarmaq olmaz və mənim dediyim odur ki, həmin Sistem daxilində şəxsiyyətə və onun fəaliyyətinə hərtərəfli, obyektiv, düşünə-düşünə qiymət verməyə, fikir söyləməyə çalışmaq lazımdır. Başa düşürəm ki, bəzən bu – çətin olur, şəxsi inciklikləri, şəxsi narazılığı boğmaq bir o qədər də asan deyil, ancaq mənim təsəvvürümə görə həqiqi yol budur. Onsuz da, dünyanın hər üzünü görmüş qoca tarix belə də edəcək.

Yadıma gəlir, Heydər Əliyevin həyat yoldaşı vəfat edəndə bu gün onun üzünə duranlar, kölgəsini qılınclayanlar, həm də yalnız nomenklatura yox, bəzi ziyalılar, ictimai xadimlər necə bir ciddi-cəhdlə, canfəşanlıq göstərə-göstərə Moskvaya getməyə, kişiyə şəxsən başsağlığı verməyə çalışırdılar. Bunlar hamısı mənim (və yəqin ki, yalnız mənim yox!) gözlərimin qabağındadır... O zaman mən də Heydər Əliyevə başsağlığı məktubu yazdım. O məktubdakı sözlər, təbii ki, indi olduğu kimi yadımda deyil, amma fikirlər, əhvali-ruhiyyə yaxşı yadımdadır. Əlbəttə, o şəxsi məktubdakıları təkrar etmək düzgün olmaz, yalnız onu deyə bilərəm ki, mən yenə də həmin fikirdəyəm və məni tanıyanlar yaxşı bilirlər ki, heç bir konyukturada da bunu gizlətməmişəm.

Artıq çox uzaqlarda qalmış aspirantlıq illərində haradasa oxumuşdum ki (deyəsən, akademik Tarlenin fikridir), sarsıdıcı inqilablardan, yakobinçilikdən və cəmiyyətin lümpenləşməsindən sonra XVIII əsrin sonlarında, XIX əsrin əvvəllərində Fransada Napoleon hadisəsi zərurət idi, amma bu adamın məhz Korsikalı Bonapart olması təsadüfdür.

Bu fikri şəxsiyyətlərin müqayisəsi üçün yox, iqtibas etmək üçün xatırladıram. Fikirləşirəm ki, görünür, Azərbaycanda da 28 apreldən, “bəysizləşdirmə”dən, kollektivləşdirmədən, 37-dən sonra, o dövr üçün Əliyev hadisəsi zərurətin ifadəsi idi. Bəlkə də fatalizmə qapılıram, amma dediyim odur ki, Azərbaycanın öz tam müstəqilliyi uğrundakı mübarizəsindən əvvəl imkan daxilində özünütanıtma və özünütəsdiq mənasında, yəqin ki, “Əliyev dövrü”ndə bir zərurət var idi.

Bu yaxınlarda hardasa belə bir məlumata rast gəldim ki, Todor Jivkov on cildlərlə “Seçilmiş əsərləri”nə toplanmış məqalələrini nəinki özü yazmayıb, ümumiyyətlə, heç onları oxumurdu da! “Sosializm komediyası, farsı” üçün bundan gözəl bir illüstrasiya tapmaq, güman ki, çətindir... Leonid Brejnevi yaxından tanıyanların dediyinə və yazdığına görə, bu rəhbər də öz adına çap olunan, nəşr edilən yazıları oxumurdu.

Və həmin kontekstdə Heydər Əliyev şəxsiyyətinin “inkişaf etmiş sosializm” çərçivələrinə sığışmayan bir cəhəti də mənim üçün əlamətdardır: mətbuatı şəxsən izləmək. Onun çıxışlarında, söhbətlərində (mən həmin çıxışların sıravi dinləyicilərindən, o söhbətlərin təsadüfdən-təsadüfə sıravi iştirakçılarından biri kimi fikir yürüdürəm) dərhal hiss olunurdu ki, qələm əhlindən kimin kim olduğunu, hansı məzhəbə qulluq elədiyini yaxşı bilir və bu, köməkçilərin hazırladığı (eləcə də xeyirxahların, daha artıq dərəcədə isə bədxahların verdiyi) məlumatların nəticəsi deyil, öz müşahidəsi, öz biliyidir.

Səksəninci illərin lap əvvəllərində mənim “Literaturnaya qazeta”da bir məqaləm çap olunmuşdu. O vaxt “Litqazeta” bir ədəbi problem, yaxud əsər haqqında müxtəlif fikirlər verirdi. Mənim məqaləm də Yuri Boldırevin məqaləsi ilə yanaşı verilmişdi və onunla kəskin ədəbi mübahisə edirdim. Onda Həsən Həsənov Mərkəzi Komitənin ideoloji katibi işləyirdi və birdən-birə gecə mənə evə zəng elədi. Məlum oldu ki, Heydər Əliyev Soçidə (əgər səhv etmirəmsə) istirahət edir, məqaləni oxuyub və zəng eləyib bu barədə Həsən Həsənova ətraflı fikrini bildirib. Burada yəqin ki, fəxr eləməli bir şey yoxdur, amma o var ki, cavan bir yazıçının, özü də sırf ədəbiyyat problemlərinə həsr olunmuş yazısı da diqqətdən (və maraqdan!) kənarda qalmırdı və bu diqqət “rəhbər diqqəti” yox, oxucu diqqəti idi. Məsələnin maraqlı bir cəhəti də o idi ki, ətrafımdakıların xeyli qismi mətbuatla, ümumiyyətlə, mədəniyyətlə maraqlanan adamlar olmasa da, rəhbərdən çəkindikləri üçün, özləri də mətbuatı izləmək, ədəbi ictimaiyyətin problemlərinə məhdud qabiliyyətləri daxilində diqqətlə yanaşmaq məcburiyyətində qalırdı.

Dəfələrlə bunun şahidi olmuşam ki, Heydər Əliyev teatr tamaşalarına baxıb və qurtardıqdan sonra, səhnə arxasında yaradıcı kollektivlə görüş keçirib və heç bir mübaliğəyə yol vermədən deyim ki, yüksək səviyyəli professional sənətşünas kimi tamaşanın təhlilini verib. Orasının da şahidiyəm ki, həmin görüşlərdən sonra yaradıcı kollektivin həvəsi birə-on artırdı. Əsl sənət adamına, sənət kollektivinə nə lazımdır? İlk növbədə, xalqın onun sənətinə qiymət verməsi, onu başa düşməsi. Xalqa rəhbərlik edən adam da qiymət verməyi bacarırsa, bu – əlbəttə, çox təqdir ediləsi cəhətdir.

Bu cür görüşlər Moskvada da keçirilirdi: görkəmli arxitektorlarla, yazıçılarla, teatr kollektivləri ilə və deməliyəm ki, onların əks-sədası Azərbaycan mədəniyyətinin inkişafı üçün münbit şərait yaranması baxımından çox xeyirli olurdu.

Həmişə öz-özümə fikirləşəndə, təəccüb, bəzən, hətta heyrət etmişəm ki, Heydər Əliyev kimi, ucqar bir yerdə boya-başa çatıb təhsil alasan, uzun illər boyu DTK kimi sənətdən, yaradıcılıq mühitindən uzaq bir yerdə işləyəsən və bu dərəcədə də ədəbi-estetik təfəkkür tərzinə malik olasan. Yadıma gəlir, 1976-cı il idi, onda lap cavan bir yazıçı idim və Yazıçılar İttifaqına yenicə katib seçilmişdim. Moskvada Səməd Vurğunun anadan olmasının 70 illiyini keçirdik və sonra Daimi Nümayəndəliyimizdə Yubiley iştirakçıları üçün kiçik bir qəbul düzəltdik. Adamların sayı az idi – 30-35 nəfər, amma kimlər idi: Leonid Leonov kimi “canlı klassik”dən tutmuş o zamanın böyük “ədəbiyyat generalları” – Georgiy Markov, Aleksandr Çaykovski, Nikolay Qribaçovacan rus ədəbi ictimaiyyətinin “rəsmi” və qeyri-rəsmi ən irəlidə gedənləri. Heydər Əliyev də orada idi və söhbətləri, çıxışları ilə masa arxasında əyləşənlərin, xüsusən də, “ədəbiyyat generalları”nın çoxundakı “böyük qardaş” təkəbbürünü, sözün əsl mənasında, məhv etdi və o, danışdıqca həmin “ədəbi generallar” göz-görəti kiçilirdi...

Bu – şəxsiyyətin miqyasıdır.

O məclisdə yalançı məlumatfuruşluqla, əvvəlcədən hazırlaşma ilə, gözə lap ustalıqla da olsa kül üfürməklə, hətta Siyasi Büro üzvlüyünə namizədliyin hipnozu ilə iştirakçıları ovsunlamaq mümkün deyildi, çünki onların özləri sovet “hakimiyyət mətbəxi”nin aparıcı fiqurları, funksionerləri idilər. Yalnız şəxsiyyətin təbii özünüifadəsi, fitri qabiliyyət onları o cürə göz-görəti kiçildə və hərəni öz yerində oturda bilərdi.

Bir vacib məsələni qeyd eləmək istəyirəm: şəxsiyyəti, əlbəttə, cəmiyyət yetişdirir və bu mənada, Heydər Əliyev də sovet cəmiyyətinin yetişdirməsi idi və özünün də son çıxışlarından birində dediyi kimi, həmin cəmiyyətə xidmət etmişdi, bunun məsuliyyətini də dərk edir. Lakin şəxsiyyətin miqyası cəmiyyətin ideoloji-inzibati sərhədləri, çərçivələri ilə məhdudlaşdırıla bilməz. Bu baxımdan, mən Heydər Əliyevin son dövr fəaliyyətindəki (və ümumiyyətlə, həyatındakı!) ideoloji dəyişikliyi təbii hesab edirəm.

Ales Adamoviç yazır ki, “sosializmdən pis yalnız onun xarabalıqları ola bilər.” Burada yəqin ki, “sovet sosializmi” demək daha dəqiq olar. Xalqımızın “sovet sosilizmi”nin həmin real xarabalıq təhlükəsi ilə üzbəüz durduğu vaxtlarda Heydər Əliyevin bir az qəmli-kədərli, olsun ki, bir az da “heyhat...” əhvali-ruhiyyəli, amma təhlükəsiz, acılı-şirinli xatirələrlə dolu, rahat öz-özünə dərdləşmək üçün vaxt verən, heç kimdə və heç nədə işi olmayan (onda onunla da heç kimin, xüsusən, Kreml mafiyasının işi olmayacaqdı!) “fərdi təqaüdçü” həyatından imtina edib yenidən mürəkkəbliyin, çətinliklərin, xislət naqisliklərinin, min bir xarici və daxili fitnə-fəsadın içinə daxil olmasına, öz xalqının arasına qayıtmasına da mən məhz şəxsiyyətin Əvvəldən Axıra, Başlanğıcdan Sona gedən yoldakı təbii addımları, təbii yolçuluğu kimi baxıram.

Mən Heydər Əliyevi idealizə etmək fikrində deyiləm və heç bu mümkün də deyil, heç olmasa, ona görə ki, ideal xisləti təbiət yox, romantik ədəbiyyat yaradır. Heydər Əliyev bir rəhbər kimi onu (əslində isə bizim hamımızı!) yetişdirən cəmiyyətin bir hissəsiydisə, deməli, cəmiyyətin səhvləri, eyni zamanda onun da səhvləri idi. Yetmişinci illər, səksəninci illərin əvvəlləri artıq tarixin səhifələrinə çevrildiyi bir vaxtda, o dövrə nəzər saldıqda bir rəhbər kimi onun özündən asılı olan səhvləri də indi gün işığı kimi aydın görmək mümkündür. Misal üçün, ətrafına yığışmış və özü Moskvaya getdikdən sonra, respublikada qalan “kiçik rəhbərlər” kolleksiyası...

Mən fikirləşirəm ki, yəni Heydər Əliyev kimi iti zehnə, fəhmə malik bir adam ətrafındakıların bir çoxunun miskinliyini, riyakarlığını, konfromistliyini görmürdü? Ola bilməzdi ki, görməsin...

Bu yerdə biz, görünür, cəmiyyətin şəxsiyyəti üstələməsi hadisəsi ilə qarşılaşırıq. Və görünür, bu da bir Allah işidir ki, bunun ən böyük acısını Heydər Əliyev özü daddı. Əlindən tutub, çörək verdiyi və rəyasət heyətlərində barmağının kiçicik bir işarəsi ilə minlərlə, hətta milyonlarla adamın gözü qabağında (televiziyanın sayəsində) top kimi yerindən atılıb onun qabağına yüyürən (və bununla özlərini xoşbəxt hiss edən, qürurlanan!) adamların, o, iqtidardan düşdükdən sonra, necə bəd üz göstərmələri hamıdan əvvəl Heydər Əliyevin özünə təsir etməli idi və emosional adam olduğu üçün, yəqin ki də, etdi.

Bu barədə çox danışmağa, xırdalamağa, elə bilirəm ki, ehtiyac yoxdur. Yunus İmrənin dediyi kimi, “Dünya axirət əkini, əkib götürən bilər”, amma etiraf etmək istəyirəm (ümumiyyətlə, mənim bu ekspromt yazım, bir növ, etirafnamədir) ki, o zamanlar – Heydər Əliyevin Bakıya qayıdışı və ona qarşı hücumlar vaxtı beynimdə bir obraz məni xeyli müddət rahat buraxmadı: Kral Lir. Şekspir ona görə əlçatmaz bədii-fəlsəfi zirvədir ki, öz yaradıcılığında insan xisləti kimi dəhşətli bir labirintin bələdçisi olub. Bu xislət nələrə qadirdir! Həmin vaxtlar mənim aləmimdə Heydər Əliyev o cürə xislət dəyişmələri ilə üz-üzə gələrkən, hərgah belə demək mümkünsə, Kral Lir dərəcəli bir pərişanlıq içində idi. Bəlkə də bu fikir, bu bənzətmə fantaziyamın nəticəsidir? Bilmirəm... Amma mən belə hiss edirdim, belə görürdüm.

İndi, gecə saat üçün sakit qaranlığında bu sətirləri yazarkən orasını da fikirləşirəm ki, Kral Lir dərəcəli bir pərişanlığı yaşayan şəxsiyyəti heç vaxt kin-küdurət, intiqam ehtirası ələ ala bilməz, əksinə, kiçikliyi, miskinliyi gördüyü üçün o, bağışlamağı üstün tutar.

Əlbəttə, vaxt gələcək, bizim bu günlərimiz (çətin, özünü axtarışlarla dolu, ziddiyyətli, qanlı-qadalı, amma şübhəsiz ki, tarixi günlərimiz!) də Azərbaycan yazıçılarının, şairlərinin, dramaturqlarının qələminin zəngin, Şekspir ehtirasları ilə dolu materialına çevriləcək, əsərlər yaranacaq, o əsərlərin real tarixi qəhrəmanları olacaq, ancaq o həqiqəti ki, Heydər Əliyev özü yaza bilər, onu heç kim yazmayacaq. Bilmirəm, Heydər Əliyev gündəlik tutub, bilavasitə iştirakçısı olduğu epoxal əhəmiyyətli hadisələrlə bağlı, heç olmasa, qeydlər aparıb, yoxsa yox?

Mən çox istərdim ki, gələcək nəsillər o gündəlikləri, qeydləri, fikirləri oxumaq imkanına malik olsunlar. Və eyni zamanda, o yazılar da tamam obyektiv yazılsın, yaxşıya yaxşı, pisə pis deyilsin. O yazılar yazılarkən daxili “qlavlit” – şəxsi təəssübkeşlik bir tərəfə atılsın və “cəmi məxluqatın əşrəfi” olan insan müəllifin simasında o tarixi sənəddə bütün vüsəti ilə təsvir olunsun – yaxşısı da pisi ilə bərabər, müdrikliyi və pərişanlığı, Xeyir ilə Şər arasındakı ədəbi mübarizədə qadirliyi və səhvləri, aldanışları ilə birlikdə.

Bu yaxınlarda yaxın adamlarla xudmani bir söhbət zamanı dostlardan biri məndən soruşdu: “Heydər Əliyevi bir sözlə necə səciyyələndirərdin?” Özüm üçün də gözlənilməz bir cavab verdim: “Tənha adam.” Bilmirəm nə üçün belə dedim? Nəyə görə? Hansı əsasla? Bəlkə, ona görə ki, istedadlı şəxsiyyət həmişə tənha olur? Bilmirəm... Amma belə dedim və indi də belə düşünürəm.

**28 iyul 1992.**



# Azərbaycanda məhkəmə-hüquq sisteminin humanistləşdirilməsində ulu öndərin xidmətləri

**Müstəqil Azərbaycan dövlətinin qurucusu, dahi siyasətçi və qüdrətli dövlət xadimi Heydər Əliyevin 100 illik yubileyi ölkəmizdə və onun hüdudlarından kənarda geniş silsilə tədbirlərlə qeyd olunur. 1993-cü ilin iyununda kifayət qədər mürəkkəb siyasi şəraitdə xalqın təkidli çağırışına biganə qalmayaraq, Naxçıvandan Bakıya dönən, vəziyyəti sabitləşdirərək ölkəyə rəhbərlik missiyasını inamla həyata keçirməyə başlayan ulu öndər qısa müddətdə ictimai-siyasi sabitliyin, qanunçuluğun, hüquq qaydalarının möhkəmləndirilməsinə nail olmuş, sistemli şəkildə hüquqi dövlət quruculuğu və vətəndaş cəmiyyəti istiqamətində mühüm addımlar atmışdır.**

1993-cü ilin 15 iyununda Heydər Əliyevin əvvəlcə Azərbaycan Ali Sovetinin Sədri seçilməsi qanunverici orqanın cəmiyyətdəki nüfuzunu qaldırmış, onun fəaliyyətinin təkmilləşməsinə, ölkənin ictimai-siyasi həyatının sabitləşməsinə, habelə milli parlamentarizm ənənələrinin inkişafına böyük zəmin yaratmışdır. Ali Sovetin 15 iyun 1993-cü il tarixli iclasındakı çıxışında ulu öndər ona göstərilən etimadı doğrultmağa çalışacağını vurğulamışdır: “Sizi əmin edirəm ki, bütün imkanlardan istifadə edib bu böyük vəzifəni, ağır bir yükü aparmağa çalışacağam və bu vəzifənin ləyaqətlə yerinə yetirilməsinə səy edəcəyəm. Bildirmək istəyirəm ki, Azərbaycan Respublikasının bugünkü ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyətlə dərk edirəm. Bu vəzifəni üzərimə götürərək öz məsuliyyətimi anlayıram və bunların hamısını vəhdət tutaraq əlimdən gələni edəcəyəm".

Ulu öndər ilk gündən milli qanunvericiliyin yeni dövrün tələblərinə uyğunlaşdırılması, cəmiyyət həyatı üçün faydalı olan bir sıra yeni qanunların qəbulu prosesini də diqqət mərkəzində saxlamışdır. Təsadüfi deyildir ki, Heydər Əliyevin 1993-cü il iyunun 15-dən oktyabrın 3-dək Azərbaycan Respublikası Ali Sovetinə rəhbərlik etdiyi dövr Azərbaycan parlamentarizmi tarixində keyfiyyətcə yeni mərhələnin başlanğıcı kimi dəyərləndirilir. Ermənistanın Azərbaycana qarşı təcavüzünün genişləndiyi, hərbi əməliyyatların şiddətləndiyi bir zamanda Heydər Əliyev Milli Məclisdə, ilk növbədə, müdafiə sisteminin hüquqi bazasının təkmilləşdirilməsinə, nizami ordu quruculuğuna xidmət edən qanunların hazırlanmasını və qəbulunu vacib saymışdır. Cəmi 4 ay müddətində 120-yədək qanun və qərarın qəbulu ulu öndərin parlamentin spikeri kimi səmərəli fəaliyyətini bir daha təsdiqləyir. 1993-cü ilin 10 oktyabrında xalqın böyük dəstəyini qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçilən ulu öndər Heydər Əliyev qanunvericilik təşəbbüsü hüququndan yararlanmaqla, bu istiqamətdə əlavə tədbirlərin həyata keçirilməsini də təmin etmişdir.

Ümummilli liderin ölkədə hüquq qaydalarının möhkəmləndirilməsi istiqamətində atdığı ilk addımlardan biri məhz 9 avqust 1994-cü il tarixli "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi haqqında" Fərmanı olmuşdur. Həmin fərmanla cinayətkarlığa qarşı mübarizə tədbirləri daha da gücləndirilmiş, hüquq-mühafizə orqanlarının bu istiqamətdə uzunmüddətli dövr üçün fəaliyyət proqramı müəyyənləşdirilmişdir. O dövr üçün səciyyəvi olan bir sıra neqativ hallar fərmanda geniş əksini tapmış, onların aradan qaldırılması üçün daxili işlər, milli təhlükəsizlik və prokurorluq orqanlarının qarşısına mühüm vəzifələr qoyulmuş, habelə cinayətkarlıqla mübarizənin təkmilləşdirilməsi məqsədilə yeni strukturların yaradılmasının vacibliyi önə çəkilmişdir. Azərbaycanda hüquqi dövlət və vətəndaş cəmiyyətinin formalaşmasına doğru uzanan mürəkkəb prosesin məhz 1995-ci il 12 noyabr tarixində ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Konstitusiyaya əsaslandığını xüsusi vurğulamağa ehtiyac yoxdur. SSRİ-nin süqutu ilə bağlı qlobal proseslərin tərkib hissəsi olaraq beynəlxalq hüququn müstəqil subyektinə çevrilən Azərbaycan Respublikasında demokratik cəmiyyətin atributu olan, vətəndaş cəmiyyətinin bərqərar edilməsini, xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət quruculuğunu, ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin edən yeni milli konstitusiyaya ehtiyac duyulurdu.

1993-1994-cü illərdə ölkədə ictimai-siyasi vəziyyətin gərginləşməsi, bir sıra təxribatlar, dövlət çevrilişi cəhdləri konstitusiyanın qəbulu istiqamətində konkret addımlar atmağa imkan vermirdi. Dövlətçiliyə qarşı yönəlmiş qəsdlərin qarşısı alındıqdan sonra 1995-ci ilin iyul ayında Milli Məclisin iclasında ümummilli lider Heydər Əliyevin sədrliyi ilə Azərbaycan Respublikasının Konstitusiyasını hazırlayan dövlət komissiyası təşkil edilmişdir. Görkəmli alimlərin, hüquqşünasların, mütəxəssislərin və rəhbər işçilərin daxil edildiyi bu komissiya 1995-ci il iyul ayının 5-də ilk iclasını keçirmişdir. Komissiyanın iclasında geniş nitq söyləyən ümummilli lider Heydər Əliyev dəyərli tövsiyələrini, məsləhətlərini vermişdir: "Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir Konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasında demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən əsas qanun, tarixi sənəd olsun. Hakimiyyət bölgüsü – ali icra, qanunvericilik, məhkəmə hakimiyyəti – bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır" – deyən ulu öndər Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin ilk konstitusiyasının hazırlanmasında həm xalqımızın tarixi keçmişinin milli dəyərlərindən, həm də dünyanın demokratik dövlətlərinin təcrübəsindən istifadə edilməsini mühüm vəzifə kimi irəli sürmüşdür.

Ümummilli liderin rəhbərliyi altında hazırlanaraq 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirməklə yanaşı, insan hüquq və azadlıqlarının təminatını dövlətin ali məqsədi kimi ön plana çıxarmışdır. Konstitusiyanın 158 maddəsindən 48-nin, yəni təqribən, üçdəbirinin sırf insan hüquq və azadlıqları ilə bağlı olması ulu öndər Heydər Əliyevin demokratik dəyərlərə sadiqliyini bir daha təsdiqləyir. Azərbaycan Respublikasının ilk milli Konstitusiyasında BMT-nin 1948-ci il 10 dekabr tarixli Ümumdünya İnsan Hüquqları Bəyannaməsində və digər beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş insan hüquq və azadlıqları tam və əhatəli şəkildə təsbit olunmuşdur. Keçmiş sovet konstitusiyalarından fərqli olaraq, müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsini dövlətin ali məqsədi kimi bəyan etmişdir. Konstitusiya bu deklarativ norma ilə kifayətlənməyərək, başqa bir maddədə insan və vətəndaş hüquqlarını, azadlıqlarını gözləməyi və qorumağı qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının üzərinə vəzifə olaraq qoymuşdur.

Konstitusiyanın qəbulundan sonra ümummilli lider Heydər Əliyev hüquq-mühafizə orqanlarının fəaliyyətinin yeni dövrün tələblərinə uyğunlaşdırılması üçün bir sıra mükəmməl qanunvericilik aktlarının qəbulunu təmin etmişdir. Bu məqsədlə 21 fevral 1996-cı il tarixdə Hüquq islahat komissiyası yaradılmış, Avropa Şurasının tövsiyələri nəzərə alınmaqla hazırlanmış "Konstitusiya məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında", "Prokurorluq haqqında", "Polis haqqında", "Əməliyyat-axtarış tədbirləri haqqında", "Notariat haqqında" və s. qanunların qəbulu məhkəmə-hüquq islahatlarının məntiqi yekunu olmuşdur.

Ulu öndər Avropa Şurasına üzvlük naminə riskli və prinsipial addımlar atmaqdan belə çəkinməmişdir. Heydər Əliyevin 4 may 1995-ci il tarixli fərmanı ilə əfvetmə institutunun bərpası və Prezident yanında əfv komissiyasının yaradılması, 1995-ci ildən ölüm cəzası üzərində moratoriumun qoyulması, 1998-ci ilin 10 fevralında isə bu cəzanın tam ləğv edilməsi deyilənləri bir daha təsdiqləyir. Şəffaf və demokratik əsasda fəaliyyət göstərən komissiyada ictimaiyyətin müxtəlif təbəqələrinin təmsilçiliyinə lazımi şərait yaradılmış, əfv fərmanlarının imzalanması və məhkumların bağışlanması müsbət ənənəyə çevrilmişdir.

Ölüm hökmünün tətbiqi cinayət törətmiş məhkumun tərbiyə və islah olunaraq sağlam cəmiyyətə qovuşması baxımından yolverilməz sayılır. Bu gün əksər Avropa ölkələrində, o cümlədən ABŞ-ın ondan çox ştatında ölüm cəzası tətbiq edilmir. Azərbaycanda ölüm cəzası ləğv olunmazdan əvvəl cəmiyyətdə geniş ictimai müzakirəyə çıxarılmış, Avropa Şurası ilə geniş məsləhətləşmələr aparılmışdır. Ulu öndər 1998-ci il fevralın 3-də Milli Məclisə ölüm cəzasının ləğvi ilə bağlı müraciətində cinayət-hüquq siyasətini hərtərəfli təhlil etmişdir. O, ədalət, azadlıq, humanizm və insanpərvərlik kimi yüksək idealları rəhbər tutmaqla ölkədə ölüm cəzasının ləğv edilməsi qənaətinə gəldiyini bildirmiş və bu tarixi bəyanatın zəruriliyini əsaslandırmışdır. Gərgin müzakirələrdən sonra Milli Məclis ölüm cəzasının ləğvi ilə bağlı ölkə Prezidentinin təklifini dəstəkləmiş, 10 fevral 1998-ci ildə belə bir tarixi qərar qəbul etmişdir. 1995-2003-cü illərdə ümummilli lider Heydər Əliyev tərəfindən 32 əfv fərmanı imzalanmış, bu fərmanlar 3104 məhkuma şamil edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin qanunvericilik təşəbbüsü əsasında Milli Məclisdə 1996-2003-cü illərdə 8 amnistiya haqqında qanun qəbul olunmuş, 21325 məhkum azadlığa buraxılmış, bu amnistiya aktları 77 mindən artıq məhkuma şamil edilmişdir. Həyata keçirilən mütərəqqi məhkəmə-hüquq islahatlarının məntiqi nəticəsi olaraq Azərbaycan 2001-ci ilin yanvarında Avropa Şurasına tamhüquqlu üzv seçilmiş, təşkilat qarşısında götürdüyü bütün öhdəlikləri vaxtlı-vaxtında icra etmişdir. İmzalanmış çoxsaylı əfv fərmanları nəticəsində qondarma "siyasi məhbuslar" problemi qapanmış, insan hüquqlarının təminatına xidmət edən yeni qanunlar qəbul olunmuş, o cümlədən İctimai Televiziya fəaliyyətə başlamışdır.

28 dekabr 2001-ci il tarixdə "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Konstitusiya Qanununun qəbulu, 2002-ci ildə ombudsman institutunun fəaliyyətə başlaması üçün maddi-texniki bazanın təşkili insan və vətəndaş hüquqlarının təmini istiqamətində respublikada həyata keçirilən hüquqi islahatların məntiqi davamı olmuşdur. 2001-ci il dekabrın 25-də respublikamızın qanunverici orqanı olan Milli Məclis "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasını ratifikasiya etməklə demokratik ənənələrə, ədalətə, yurisdiksiya altında olan insanlar üçün əsas hüquq və əsas azadlıqların təminatına yüksək sadiqlik nümayiş etdirmişdir. 15 aprel 2002-ci il tarixdə ratifikasiya sənədi depozit edilmək üçün Avropa Şurasının Baş Katibinə təqdim olunmuş, bununla da, ölkə vətəndaşlarının Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət etmək imkanı reallaşmışdır.

2000-ci ildə dövlət orqanları sırasında ilk dəfə olaraq hakimlərin seçilməsi prosesində test üsulu ilə imtahan tətbiq edilmiş, müstəqil məhkəmə hakimiyyətinin yaradılması istiqamətində mühüm addımlar atılmış və yeni məhkəmə sistemi fəaliyyətə başlamışdır.

Görülmüş tədbirlər nəticəsində ədalət mühakiməsinin səmərəliliyinin artırılması, məhkəmə hakimiyyətinin müstəqilliyinə əlavə təminatların müəyyən olunmasını nəzərdə tutan yeni qanunvericilik layihələri hazırlanmış və Avropa Şurasında ekspertizadan keçirildikdən sonra qəbul olunmuşdur.

Yeni təsisat – məhkəmə hakimiyyətinin özünüidarə orqanı olan 15 nəfər üzvdən ibarət Məhkəmə-Hüquq Şurası formalaşdırılmış, onun tərkibi, əsasən, hakimlərdən (9 nəfər), eyni zamanda, Azərbaycan Prezidentinin, Milli Məclisin, prokurorluğun, Vəkillər Kollegiyasının nümayəndələrindən ibarət müəyyən olunmuşdur. Hakimlərin fəaliyyətinin qiymətləndirilməsi, iş yerinin dəyişdirilməsi, vəzifədə irəli çəkilməsi, intizam məsuliyyətinə cəlb edilməsi və onların fəaliyyəti ilə bağlı digər məsələlər bu orqanın müstəsna səlahiyyətinə aid edilmişdir.

Hazırda ulu öndərin yüksək ideallarına sadiqlik nümayiş etdirən Prezident İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli siyasətinin ali məqsədi ölkənin hər bir vətəndaşı üçün layiqli həyat tərzinin təmin olunmasıdır.

Cənab İlham Əliyevin hakimiyyətdə olduğu dövr ölkənin davamlı inkişafı, sürətlə müasirləşməsi, dünyada nüfuz və söz sahibinə çevrilməsi ilə səciyyələndirilir. Hazırda Azərbaycan dünya birliyinin bərabərhüquqlu üzvü olaraq dinamik inkişaf edir. Azərbaycanın bu cür tərəqqisi onu nəinki siyasi, həmçinin iqtisadi və mədəni cəhətdən həm regional, həm də qlobal mərkəzə çevirir.

Dövlət başçısının 2014-cü il 13 fevral tarixli sərəncamı "Elektron məhkəmə" informasiya sisteminin tətbiqinə geniş yol açmış, bu istiqamətdə ötən dövrdə xarici mütəxəssislərin iştirakı ilə xeyli işlər görülmüşdür. Hazırda sistem Naxçıvan Muxtar Respublikasını da əhatə etməklə ölkə məhkəmələrinin və icra qurumlarının əksəriyyətində tətbiq olunur.

Məhkəməyə müraciət etmək hüququnun yaranması anından məhkəmə qərarlarının icrasının tamamlanmasına qədər bütün prosesi əhatə edən elektron məhkəmənin tətbiqi ədalət mühakiməsinə ictimai etimadı artırmış, vətəndaşların, o cümlədən sahibkarlıq subyektlərinin məhkəmələrə elektron qaydada onlayn rejimdə daha asan və rahat müraciət etməsinə imkan vermiş, məhkəmə baxışını tezləşdirmiş, süründürməçilik hallarının qarşısını almışdır.

Son illərdə dövlətimizin başçısı tərəfindən məhkəmə-hüquq sisteminin təkmilləşdirilməsi və müasirləşdirilməsi istiqamətində aparılan islahatlar cəmiyyətin, eləcə də ictimai münasibətlərin inkişafında önəmli rol oynamışdır. Bunun nəticəsində məhkəmə sistemi beynəlxalq standartlara uyğun təkmilləşdirilmiş, məhkəmə hakimiyyətinin müstəqilliyi möhkəmləndirilmiş, bu sahədə fəaliyyəti tənzimləyən qanunvericilik bazası əsaslı şəkildə yenilənmiş, insanların məhkəmələrə müraciət etmək imkanları xeyli asanlaşmış, infrastruktur müasirləşmişdir. Həmçinin ölkəmizdə hakimliyə namizədlərin seçimi prosesi əsaslı şəkildə təkmilləşdirilmiş, hakimlərin ən qabaqcıl və şəffaf üsullarla seçim qaydası müəyyən edilmişdir.

Bütövlükdə, məhkəmə-hüquq sisteminin təkmilləşdirilməsindən bəhs edərkən Azərbaycan Prezidenti cənab İlham Əliyevin imzaladığı “Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında” 2019-cu il 3 aprel tarixli fərmanı xüsusilə vurğulamaq lazımdır. Bu mühüm sənəd məhkəmə sistemində növbəti islahatların aparılması və bu sahədə müasir texnologiyaların tətbiqinin vacibliyini bəyan etməklə yanaşı, məhkəmələr üçün ədalətlilik, qərəzsizlik, aşkarlıq, şəffaflıq kimi mühüm prinsiplərin hər zaman vacib və aktual olduğunu bir daha müəyyənləşdirmişdir. Eyni zamanda fərmanda məhkəmə icraatının səmərəliliyinin yüksəldilməsi, işlərə baxılmasının keyfiyyətinin artırılması, əhaliyə daha çevik, asan və alternativ xidmətlərin göstərilməsi qarşıya mühüm vəzifə kimi qoyulmuşdur.

Dövlət başçısının tapşırığı ilə son illər ərzində məhkəmə infrastrukturunun müasirləşdirilməsi istiqamətində də çox böyük işlər görülmüşdür. Məhkəmələrin yerləşdiyi binalarda əsaslı təmir və yenidənqurma işləri aparılmış, paytaxt və bölgələrdə yeni məhkəmə binaları və kompleksləri inşa edilmişdir.

Məhkəmələrdə “Elektron məhkəmə” informasiya sisteminin tətbiqi, o cümlədən məhkəmə prosesi zamanı audio-video yazılışların aparılması, bütün məhkəmə iclaslarının protokollaşdırılması, elektron sənəd dövriyyəsinin tam tətbiqi ilə bağlı bütün zəruri infrastruktur yaradılmışdır.

Möhtərəm Prezidentimiz İlham Əliyevin 13 noyabr 2012-ci il tarixdə Yasamal Rayon Məhkəməsinin yeni inzibati binasının açılışında iştirakı da rayon məhkəməsində müasir informasiya-kommunikasiya qurğularının tətbiqinə təkan vermişdir. Məhkəmə binasında beynəlxalq standartlara cavab verən yeni avadanlıqların quraşdırılması bugün də davam etdirilir.

Ulu öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ərəfəsində ölkəmizin davamlı tərəqqisinin təminatı üçün digər sahələrdə olduğu kimi, məhkəmə-hüquq sistemində də islahatların yüksək səviyyədə həyata keçirilməsi məqsədi ilə hər bir hakim üzərinə düşən məsuliyyəti dərindən dərk etməli, fəaliyyətində yalnız ədalət mühakiməsinin maraqlarını əsas götürməli və ədalət, qanunçuluq və qərəzsizlik prinsipinin tələblərinə dönmədən əməl etməlidir.

*İslam ƏLİYEV,*
*Bakı şəhəri, Yasamal Rayon Məhkəməsinin sədri*

# Yeni nəsillərə “Mən azərbaycanlıyam” örnəyi

**Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə ədəbi-musiqili tədbir keçirilib. “Mən azərbaycanlıyam” adlı tədbirdə Azərbaycan Konservatoriyası nəzdində Musiqi Kollecinin tələbələri və Bakı məktəbliləri iştirak edirdi.**





Muzeyin “Məktəblərlə və ictimaiyyətlə iş” şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Nəzmiyyə Yigitoğlu tədbiri giriş sözü ilə açaraq Heydər Əliyev fenomeni, ulu öndərin sarsılmaz mübarizəsi, genişmiqyaslı fəaliyyəti haqqında danışıb. O, qeyd edib ki, vaxtilə ümummilli liderə ünvanlanmış iyirmi bir sual və onlara verilmiş cavablar böyük ürək, dərin zəka və qətiyyətli addımları ilə tanınan Heydər Əliyevin mənəviyyat, zövq dünyasını üzə çıxaran səmimi bir dialoqdur.

Qeyd olunan fikirlərin təsdiqi kimi Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif anlarını əks etdirən videorolik nümayiş etdirildi.

Daha sonra söz məktəblilərə, gənc istedadlara verilib. Bakı şəhəri üzrə yeddi məktəb və Musiqi Kolleci tələbələrinin iştirak etdiyi ədəbi-musiqili tədbirdə C.Məmmədquluzadə, M.Ə.Sabir, H.Cavid, S.Vurğun, M.Şəhriyar, M.Dilbazi, L.Əliyeva, R.Hüseynov, R.Yusifoğlu və digər yazıçı-şairlərin yaradıcılığından nümunələr və musiqi ifaları səsləndi.

Sonda iştirakçılar tədbirin layihə rəhbəri, Muzeyin Həmkarlar Təşkilatının sədri Ceyran Qənbərli tərəfindən sertifikatlarla təltif olundular.

*Qabil YUSİFOĞLU,*
*“Xalq qəzeti”*

# Böyük maraqların sülhlə toqquşduğu tarixi an

**Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin müzəffər sərkərdəliyi ilə həllini tapmış, haqqında keçmiş zamanda danışdığımız Ermənistan–Azərbaycan münaqişəsinin həlli üçün vasitəçilik edən ABŞ, Rusiya və Fransa təmsilçiləri dəfələrlə bildiriblər ki, aralarında müxtəlif məsələlərlə bağlı fikir ayrılıqları olsa da, Qarabağ münaqişəsinin həllinə dair yanaşmaları üst-üstə düşür. Onların səsləndirdiyi bu fikrin alt qatında dayanan məna isə bundan ibarət idi ki, həmsədr ölkələr Qarabağ məsələsinin, yumşaq desək, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllində maraqlı deyillər. Təsadüfi deyil ki, 2009-cu ildə BMT Baş Assambleyasında Azərbaycanın ərazi bütövlüyü ilə bağlı səsvermədə Ermənistanla yanaşı, adları çəkilən üç ölkə də əleyhimizə səs vermişdi. Bu, çox mətləblərdən xəbər verirdi.**

Hər zaman sülhpərvər siyasət yürüdən Azərbaycanın 2020-ci ildə apardığı Vətən müharibəsi də vasitəçilik səylərinin iflasa uğramasının nəticəsi idi. Vasitəçiliyin işğal siyasətinin möhkəmlənmə vasitəsi olduğu üzə çıxdıqdan sonra rəsmi Bakı hərb variantını seçdi. Əlbəttə, bu seçim, eyni zamanda Ermənistanın hücumuna cavab idi. Azərbaycan müharibə nəticəsində təkcə əzəli-əbədi torpaqlarını düşmən tapdağından azad etmədi, həm də 30 ilə yaxın dəyişməyən status-kvonu dəyişdirdi, bölgədə tamamilə yeni reallıqlar yaratdı. Qarabağ ölkənin iqtisadi rayonlarından birinə çevrildi, onun adının əvvəlində işlədilən "dağlıq" sözü arxaikləşdi, Qarabağ ermənilərinin "status" istəyi ATƏT-in Minsk qrupu kimi tarixin arxivinə gömüldü. Bu gün ölkəmiz təkcə qalib deyil, həm də şərtləri diktə edən tərəfdir. Ancaq Bakının şərtləri də ədalətlidir, humanistdir və beynəlxalq hüquqa tam uyğundur. Ötən ilin martında Ermənistana təqdim edilmiş sülh müqaviləsi ilə bağlı 5 təklifə hətta, rəsmi İrəvanın da prinsipcə razılıq verməsi, onları qəbul etməsi də bunun göstəricisidir.



### Ekspert rəyi



**Aydın QULİYEV,
politoloq**

– Rusiya, Fransa və İranla müqayisə edəndə ABŞ-ın, həqiqətən də, Ermənistan–Azərbaycan münasibətlərinin normallaşmasında irəliləyişə nail olmaq və prosesləri yerindən tərpətmək niyyətində səmimi olduğu görünür. Ancaq burada müəyyən nüansları nəzərə almaq lazımdır. Çünki hazırda Ermənistan–Azərbaycan münasibətlərinin normallaşma prosesində ABŞ-ın, Fransanın və Rusiyanın, eləcə də İranın müəyyən mənada mövqeləri arasında ziddiyyət özünü aydın şəkildə göstərir. Xüsusilə, ABŞ və Rusiyanın bu məsələyə yanaşmasında geosiyasi rəqabət və bir-birini inkar etmək prinsipləri aşkar şəkildə ortadadır. Bu da razılaşmaların əldə olunmasına, yaxud əldə olunmuş razılaşmaların həyata keçirilməsi imkanlarına xeyli dərəcədə zərbə vurur. Rusiya danışıqlara özünün qısqanc münasibətini açıq şəkildə ortaya qoyub. Moskva ABŞ-ın normallaşma prosesinə təsirini diplomatik etika xatirinə dəstəkləsə də, 10 noyabr üçtərəfli Bəyanatından kənarda hər hansı normallaşma variantını qəbul etmədiyini də diqqətə çatdırır. Bu isə Ermənistan–Azərbaycan münasibətlərinin tam sürətlə irəliləməsi prosesinə maneçilik törədir. Ermənistanın özü də müstəqil dövlət olmadığı üçün prosesə müsbət mənada təsir göstərmək gücündə və imkanında deyil.

***

Müharibədən sonra Azərbaycan üçün məsələnin siyasi yolla tənzimlənməsi mərhələsi başlayıb. Bir neçə gündür ki, Arlinqtonda – Corc Şultz adına Xarici İşlər üzrə Milli Tədris Mərkəzində Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında ABŞ Dövlət katibi Antoni Blinkenin vasitəçiliyi ilə görüş keçirilir. Yeri gəlmişkən, qeyd etdiyimiz kimi, əvvəllər Qarabağ məsələsinin həllinə yanaşmada üç ölkənin maraqları üst-üstə düşürdü. Rusiya–Ukrayna müharibəsinin başlanmasından sonra Vaşinqton və Parisin Moskva ilə Minsk qrupu formatında da bir araya gəlməsi mümkünsüz oldu və MQ faktiki olaraq, dağıldı.

Vaşinqtonda görüş başlar-başlamaz bölgədə maraqlı olan aktorların sədası eşidilməyə, maraqların toqquşması görünməyə başlandı. İlk bəyanat Moskvadan gəldi. Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskovun "Ermənistan və Azərbaycan arasında vəziyyətin nizamlanmasına kömək etmək alqışlana bilər, ancaq Rusiya ilə birgə imzalanmış üçtərəfli sazişlər əsasında" fikri Cənubi Qafqazda sülhün əldə olunmasına heç də xoşməramlı münasibətdən xəbər vermir. Bundan öncə isə Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova Rusiyanın təşəbbüsü ilə əldə olunmuş razılaşmaları Qərbin qısqanclıqla qarşıladığını dəfələrlə bildirib. Qeyd etmək lazımdır ki, Rusiya da Bakı və İrəvanın üçüncü tərəflərin vasitəçiliyi ilə görüşlər keçirməsinə qısqanclıqla yanaşır. Ancaq Moskva regionda davamlı sülhün əldə edilməsində böyük potensialının olmasına baxmayaraq, təəssüf ki, bundan istifadə etməyib. Bu mövqe Ceyhun Bayramov, Sergey Lavrov və Ararat Mirzoyan arasında gözlənilən Moskva görüşünün baş tutmasını da sual altında qoyur.

***

Bölgədə maraqlı oyunçulardan biri də Fransadır. Parisin açıq ermənipərəst mövqeyi hər kəsə gün kimi aydın olduğundan, bu barədə əlavə nə isə deməyə ehtiyac duymuruq. Fransa Avropa İttifaqının Ermənistandakı mülki missiyası ilə prosesə müdaxilə etəməyə çalışır. Fransızlar bu missiyanın daha çox hərbiləşməsində maraqlıdırlar. Buna baxmayaraq, adıçəkilən ölkə ABŞ-la birgə kollektiv Qərbi təmsil etdiyindən, hələlik, Vaşinqton danışıqlarını səssiz izləməyə üstünlük verir.

Son vaxtlar Ermənistanla münasibətləri daha üst səviyyəyə qaldıran və Zəngəzur dəhlizinin açılmasına qarşı çıxan İran isə bu mövqedədir ki, problemləri bölgə dövlətləri özləri həll etməlidirlər. Tehran bununla bölgədən kənarda aparılan danışıqlara qarşı çıxdığını nümayiş etdirir.

Azərbaycanın ən yaxın strateji müttəfiqi olan Türkiyə proseslərin Bakının maraqları çərçivəsində inkişafında maraqlıdır. Vətən müharibəsindən sonra Türkiyə bölgəyə daha aktiv cəlb olunub, qardaş ölkənin hərbçiləri hazırda Rusiya–Türkiyə Birgə Monitorinq Mərkəzində fəaliyyət göstərməklə, Qarabağ torpağında – Ağdamdadırlar. 2021-ci ilin iyunun 15-də imzalanmış Şuşa Bəyannaməsi Azərbaycan–Türkiyə münasibətlərinin daha üstün səviyyəyə qalxmasına gətirib çıxarıb.

***

Beləliklə, qardaş Türkiyə istisna olmaqla, regional aktorların hamısının maraqlarının toqquşması müşahidə olunmaqdadır. Hazırda proseslərə daha çox diplomatik yanaşma sərgiləyən ABŞ-ın görüşdə real nəticə və konkret irəliləyişə nail olmaq səyləri açıq görünür. Vaşinqtonun dalana dirənmiş vəziyyəti aradan qaldırmaq niyyəti də diqqəti cəlb edir. Bəlkə də xarici aktorlar arasında ABŞ hazırda bu istiqamətdə daha səmimi və ardıcıl olmağa çalışan tərəfdir. Vaşinqtonda Ermənistanla Azərbaycan arasında sülhə doğru addım atılacağı təqdirdə, qüvvələr nisbətinin necə dəyişəcəyini isə qarşıdakı günlər göstərəcək.

*Səxavət HƏMİD,
"Xalq qəzeti"*

---

# Gözlənilən bir qərara hayların küyü

**Ermənistan və Azərbaycanın XİN başçılarının ABŞ-ın Arlinqton şəhərində davam edən sülh danışıqlarında hətta ilkin nəticələr məlum olmasa da, haylar artıq öz parlamentlərində qalmaqal yaratmağı bacarıblar...**

Haradan və hansı formada idarə olunduqları şübhə doğurmayan Ermənistanın daxilindəki müxalif daşnak-revanşist qüvvələr Vaşinqtonun, Moskvanın, eləcə də, rəsmi İrəvanın ünvanına elə bəyanatlar, ittihamlar səsləndirirlər ki, onlarda elementar məntiqi görmək və başa düşmək mümkün deyil. Hayların isterik çıxış və bəyanatlarından aydın olan yeganə şey budur ki, Ağ evin təşəbbüsü və dəstəyi ilə tərəflər arasında imzalanacaq sülh sazişi, yaxud, bu xarakterli hər hansı sənəd istənilən variantda "milli mənafeyə zidd", qəbuledilməz elan olunacaq.

## Vaxtsız "banlayanların" gizli məqsədi

Ermənistan Milli Assambleyasındakı müxalifət düşərgəsinə aid fraksiyaların üzvləri Paşinyanın indiki mərvə onların kənar kuratorları Ağ evin vasitəçiliyini uzaqdan qısqanclıqla seyr edir, danışıqların növbəti raundunun Moskvada keçiriləcəyi barədə xəbərləri tirajlayırlar. Amma indidən demək olar ki, Vaşinqtondakı dialoq səmərəli və sənədli sonluqla bitdiyi təqdirdə, Kremlin dəvəti ilə iki ölkənin nazirinin Rusiya səfəri qüvvədən düşə bilər. İrəvanda isə separatçılar Azərbaycanın şərti sərhəddə, Laçın yolunun başlanğıcında quraşdırdığı nəzarət-buraxılış məntəqəsində baş verənlər barədə rəvayətlər uydurmaqdadırlar. Belə rəvayətlərdən birində deyilir ki, öz avtomobilində Xankəndidən İrəvana qayıdan ermənininin sənədlərini yoxlayan Azərbaycan sərhədçisi Ermənistan vətəndaşı olduğuna görə hayın pasportuna möhür vurmayıb və ona belə deyib: "Sənə yaxşı yol. Get, amma bir də geri qayıtma!". Reallıqda baş verdiyi şübhə doğuran bu epizodu,




hələdə Bakı ilə "gizli sövdələşməyə" getdiyi, dövlətin maraqlarına xəyanət etdiyi, ümumiyyətlə, arxadan iş çevirdiyi, "Dağlıq Qarabağ" kimi "Artsax xalqının" təhlükəsizliyini danışıqların gündəliyindən çıxardığı barədə əməlli-başlı ajiotaj yaradıblar. Belə çıxır ki, sülh, barışıq Ermənistan üçün ən pis nəticədir və bu barədə sənədə imza atmaq vətənə xəyanətə bərabərdir. Bu siyasi demaqogiyanı cəmiyyətə üfürənlərin enerjini hansı mənbədən aldıqları məlumdur. Baş nazirin "siyasi meyitlər" adlandırdığı koçaryanlara, sarkisyanlara, badalyanlara və generallara bağlı qüvvələr doğrudanmı Arlinqton dialoqunun yekunu kimi qarşılıqlı razılaşmaya dair tərəflərin imzalayacağı sənədin realizəsinə mane olmaq gücünə malikdirlər?

**Bu suala beynəlxalq məsələlər üzrə ekspert Fərid Şəfiyev belə aydınlıq gətirdi:** "Sülh sazişinin üzərində gərgin iş gedir və onun imzalanacağına ümid böyükdür. ABŞ buna nail olmaq istəyir. Vaşinqtonun əsas məqsədi Rusiyanın bölgədəki təsirini azaltmaqdır. Eləcə də Azərbaycanın regionda güclü qüvvəyə, söz sahibinə çevrildiyini də yaxşı anlayır. Əlbəttə, möhkəm sülhün əldə olunması üçün tərəflər bir-birinin ərazi bütövlüyünü tanımalı, bu məsələ birmənalı şəkildə həllini tapmalıdır. Ermənistan daxilində sülh istəməyən, məsələni daha da uzatmaq niyyətində olan qüvvələr də var. Hazırda Vaşinqtonda ciddi iş gedir, amma belə düşünürəm ki, Türkiyədə prezident seçkilərindın əvvəl hər hansı sənəd imzalanmayacaq. Yəni, onlar dediyim seçkilərin nəticələrini gözləyəcəklər".



## Moskva görüşü sual altına düşə bilər

Tanınmış politoloqun şərhinə bircə onu əlavə etmək istərdik ki, münaqişənin həllində siyasi iradəsini ortaya qoyan ABŞ üçün onun beynəlxalq imici, markası çox önəmlidir. Bu mənada Ermənistan və Azərbaycan XİN başçılarının supergücün paytaxtından əliboş yola salınmayacaqlarını gözləmək olar.

İndi Ermənistan Milli Assambleyasında Qarabağ ermənisi eks-prezident Koçaryanın "Ermənistan" bloku az qala, "etnik təmizləmə" səviyyəsinə qaldıran müxalif düşərgəni Paşinyana qarşı "istefa" aksiyalarına başlayacağı da müzakirə mövzusudur.

## Fobiyalar onları uçuruma aparır

**Ermənistanın daxilində cərəyan edən hadisələr və bunun rəsmi İrəvan üçün ehtimal olunan fəsadları barədə danışan politoloq Fərhad Məmmədov Milli Assambleyadakı müxalifət fraksiyalarının Paşinyana qarşı tənqidlərinin əsasında ölkənin təhlükəsizliyi və Qarabağla bağlı məsələnin dayandığını önə çəkdi:** "Ermənistan iqtisadiyyatında pis-yaxşı müəyyən irəliləyiş müşahidə olunmaq-



dadır. Xarici siyasətdə də bir qədər irəliləyiş əldə edilib. Yəni, bu istiqamətlərdə səslənən tənqidlərin elə də kəsəri yoxdur. Əgər Paşinyan hökuməti dediyimiz iki məsələdə razılaşıb Azərbaycanla sülh müqaviləsini imzalayarsa, bu, o demək olacaq ki, ekslərin parlamentdəki müxalifəti siyasi səhnədən silinib atılıb. Azərbaycanofobiya, Türkiyəfobiya kimi zərərli tendensiyaların şişirdilməsi Ermənistan cəmiyyətində ciddi problemlərə gətirib çıxardı. Düzdür, Paşinyan iqtidarı mövcud fobiyalardan qurtulmaq istədiyini bəyan edir, amma bu yöndə əməli addımlar atmır. Əslində, həmin fobiyaları uyduran psevdomüxalifət kəsimi Ermənistan cəmiyyətində siyasi mövcudluğunun sona çatdığını yaxşı anlayır".

Arlinqton danışıqları başa çatmayıb, ortada konkret sənəd, yaxud onun layihəsi belə yoxdur, Hayastan cəmiyyəti isə daşnakların, kənardan idarə olunan ekslərin, ura-patriotların hay-küyü ilə nəfəs alır. Sanki çoxdan baş verməli olan hadisənin, qəbul ediləcək qərarın qarşısını almaqdan ötrü bütün güclərini toplayıb müqavimət göstərməyə hazırlaşırlar. Görünür, onlara bir daha sirkənin tündlüyü və hikkənin çoxluğunun fəsadları barədə məşhur zərbi-məsələmizi xatırlamağın yeridir...

*İmran BƏDİRXANLI,
"Xalq qəzeti"*

---

# Oğrunun doğru qiyafəsinə bürünmək cəhdi

**Laçın–Xankəndi yolunun girişində Azərbaycan tərəfinin sərhəd-buraxılış məntəqəsi yaratması və bununla da öz ərazisinə faktiki nəzarəti təmin etməsi Ermənistandakı separatçı qüvvələrin ciddi narahatlığına səbəb olub. Fəaliyyət azadlıqlarına son qoyulan separatçılar mövcud situasiyanı öz xeyirlərinə dəyişmək, bölgədə anarxiya və xaosa nail olmaq üçün Azərbaycan əleyhinə aksiyaya start veriblər. Belə ki, Ermənistanın "Artsaxda etnik təmizləməyə yox!" hərəkatının üzvləri Laçın–Xankəndi yolunun digər tərəfində çadırlar qurmağa başlayıblar. Məşhur təxribatçı Ruben Vardaryana yaxınlığı ilə diqqət çəkən hərəkat üzvləri "ümumermənі həmrəyliyi"ni sərgiləmək və bu yolla Qarabağdakı ermənilərə "kömək etmək" niyyətlərini bildiriblər. Hərəkat üzvləri qeyd ediblər ki, ətraf ərazilərdəki bütün ermənilər onların aksiyasına dəstək verməli, Laçın-Xankəndi yolunda ermənilərin nəzarətsizliyi bərpa edilməlidir.**

## "Yol azadlığı", yoxsa "terror azadlığı"?

"Artsaxda etnik təmizləməyə yox" hərəkatının üzvləri öz aksiyalarını "yol azadlığı" və çarəsiz ermənilərə yardım adı ilə pərdələməyə çalışsa da, əslində, bu aksiyanın sırf təxribatçılıq məqsədi ilə reallaşdığı birmənalıdır. Birincisi ona görə ki, Azərbaycan tərəfi yolu heç vaxt heç bir dinc ermənінin üzünə bağlamayıb. Əksinə, Azərbaycan tərəfi yolun girişində sərbəst-buraxılış məntəqəsi yaratmaqla ermənilərin ərazidən daha rahat və təhlükəsiz istifadəsini təmin edib. Sözügedən məsələ ilə bağlı media və sosial şəbəkələrdə yayılan görüntülər də bunu təsdiqləyir. Deməli, ortada gediş-gəlişlə bağlı heç bir problem yoxdur və bundan öncə də olmayıb. Sadəcə, Azərbaycan tərəfinin sərhəd nəzarət-buraxılış məntəqəsi yaratması erməniləri separatizm və terror azadlığından məhrum edib. Bugünə qədər bu yoldan mina, müxtəlif silah-sursat və digər qanunsuz yüklərin sərbəst daşınmasını həyata keçirən separatçılar – indi əvvəlki imkandan məhrum olublar. Bu isə onların terror fəaliyyətinə mənfi təsir göstərməkdə, təxribatçılıq planlarının reallaşmasını əngələməkdədir. Bu səbəbdən də erməni separatçıları Laçın–Xankəndi yolunun ermənilərin üzünə bağlanması ilə bağlı yalanlar tirajlamaqla öz aksiyalarına ədalət qiyafəsi geyindirməyə çalışırlar. Halbuki, Laçın–Xankəndi yolunun girişinə yaxın ərazilərdə çadırlar quraşdırmaqla erməni toplumu adından süni etiraz görüntüsü yaratmağa çalışan separatçılar yol deyil, terror azadlığı tələb edirlər. Azərbaycanın buna yol verməyəcəyi isə şəksizdir.

## Sərhəd nəzarət-buraxılış məntəqəsi və separatçılar

Azərbaycanın Laçın–Xankəndi yolunun girişində sərhəd məntəqəsi yaratmasına etiraz edən erməni aksiyaçılar bildiriblər ki, məqsədləri Azərbaycanın qurduğu bu məntəqənin ləğvinə nail olmaqdır. Hərəkat üzvləri öz məqsədlərinə çatana qədər aksiyalarını davam etdirəcəklərini vurğulayıblar.

Erməni separatçılarının bu açıqlaması Azərbaycanın Laçın–Xankəndi yolunun girişində yaratdığı sərhəd nəzarət-buraxılış məntəqəsinin separatizmə qarşı mübarizədə həqiqətən də mühüm rol oynadığını göstərir.

Məlumat üçün qeyd edək ki, bu, ermənilərin Laçın–Xankəndi yolu ətrafında təşkil etdikləri ilk aksiya deyil. Belə ki, cari ilin yanvar ayında Ermənistanın "Milli Gündəm" partiyasının üzvü Ayk Paytyanın liderliyi ilə bir qrup erməni Laçın–Xankəndi yolunun yaxınlığında çadırlar qurmuş, azərbaycanlı ekofəalların aksiyasına etirazlarını bildirmişdirlər. Həmin vaxt Laçın–Xankəndi yolu ilə bağlı açıqlama verən Art Partyan çıxışları sırasında əsl məqsədlərini ifşa edən fikirlər səsləndirmişdir. O bildirmişdir ki, aksiyada məqsəd "ümumermənі oyanışı"na nail olmaq, buna start verməkdir.

Bugünlərdə Laçın–Xankəndi yolunun ətrafında çadırlar quran "Artsaxda etnik təmizləməyə yox" hərəkatının üzvləri də eynən Art Partyan kimi Azərbaycana qarşı absurd tələblər səsləndirməkdədirlər. Nə qədər qəribə olsa da, Azərbaycandan öz ərazilərinə nəzarət etməməyi tələb edən aksiyaçılar tarixi torpaqlarımıza qarşı iddialarını gizlətmir, Qarabağı ermənilər üçün "həyat mənbəyi" adlandırırlar.

Hələ də xam xəyallarla yaşayan separatçılar unudurlar ki, "Qarabağ Azərbaycandır!" və ordumuz bu qələbəni 44 günlük Vətən müharibəsindəki parlaq Zəfəri ilə qazanıb. Azərbaycanın isə təxribatlara qarşı hər zaman yalnız bir cavabı var: "Dəmir yumruq".

*Seymur ƏLİYEV*

# Baş prokuror Türkiyədə




**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstəriş və tövsiyələrinə uyğun olaraq Azərbaycan Respublikasının prokurorluq orqanları xarici ölkələrin prokurorluq orqanları və nüfuzlu beynəlxalq təşkilatlar, o cümlədən, dünya prokurorlarının ilk və yeganə qlobal təşkilatı olan və 170-dən çox dövlətin üzvü olduğu Beynəlxalq Prokurorlar Assosiasiyası (BPA) ilə səmərəli qarşılıqlı əməkdaşlığını davam etdirir.**

Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Beynəlxalq Prokurorlar Assosiasiyasının 1-ci Pan-Avropa Regional konfransında iştirak etmək məqsədilə İstanbul şəhərinə işgüzar səfərə gedib.

Ümumilikdə, 32 dövlətin baş prokurorunun və nüfuzlu beynəlxalq təşkilatların rəhbərlərinin iştirak etdiyi konfransı açıq elan edən Türkiyə Ali Məhkəməsinin Baş prokuroru Bekir Şahin qonaqları salamlayaraq, konfransın işinə uğurlar arzu edib.

Bekir Şahin Assosiasiyanın 1-ci Pan-Avropa Konfransına hazırlıq çərçivəsində Azərbaycanın Baş Prokurorluğu tərəfindən göstərilən dəstəyə görə təşəkkürünü bildirib.

Azərbaycanın Baş prokuroru, Assosiasiyanın vitse-prezidenti Kamran Əliyev tədbir iştirakçılarını salamlayaraq, Azərbaycan–Türkiyə əlaqələrinin etibarlı strateji əməkdaşlıq səviyyəsinə qalxmaqla dostluq və qardaşlıq prinsiplərinə əsaslandığını xüsusi vurğulayıb. Həmçinin ənənəvi olaraq Azərbaycan Baş Prokurorluğu ilə Beynəlxalq Prokurorlar Assosiasiyası arasında əməkdaşlığın uğurla davam etdirilməsini qeyd edən Baş prokuror, tədbirin dünya prokurorlarının peşəkar əlaqələrinin inkişaf etməsinə və cinayətkarlığın müasir təzahürləri ilə mübarizədə beynəlxalq təcrübənin formalaşmasına xidmət etdiyini bildirib.

Konfransın "Rəqəmsallaşma dövründə iqtisadi cinayətlərlə mübarizə" mövzusuna həsr edilmiş plenar sessiyasına sədrlik edən Kamran Əliyev çıxışında tədbirin keçirilməsinin müasir dövrün tələbləri baxımından zəruriliyini qeyd edib.

**Qəzənfər QASIMOV,**
**"Xalq qəzeti"**

# Ermənistan sərhəd təxribatlarından əl çəkməlidir

**Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov Amerika Birləşmiş Ştatlarına işgüzar səfəri çərçivəsində ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Ceyk Sallivan ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat Xidmətin İdarəsindən redaksiyamıza bildiriblər ki, əsas müzakirələrin Azərbaycanla Ermənistan arasında normallaşma prosesinə həsr olunduğu görüşdə Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan da iştirak edib.

Görüş zamanı nazir Ceyhun Bayramov Azərbaycanın Ermənistanla sülh prosesinin əsas elementlərinin təşəbbüskarı kimi bölgədə sülh və sabitliyin bərqərar edilməsində maraqlı olduğunu, sülh sazişinin razılaşdırılmasının və imzalanmasının əhəmiyyətini vurğulayıb. Ermənistanın Azərbaycanın ərazi bütövlüyünə qarşı addımlarından əl çəkməsinin vacib olduğu qeyd edilib. Bununla yanaşı, Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin reinteqrasiyasının ölkənin daxili məsələsi olduğunu, bu istiqamətdə səylərə Ermənistan tərəfinin müdaxiləsinin qəbuledilməz olduğunu diqqətə çatdırıb.

Nazir, eyni zamanda, Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə, habelə Ermənistan tərəfindən qəbul edilmiş öhdəliklərə zidd olaraq erməni silahlı qüvvələrin hələ də tam olaraq Azərbaycan ərazisindən çıxarılmamasının ciddi təhdid mənbəyi olduğunu vurğulayıb.



Milli təhlükəsizlik müşaviri Ceyk Sallivan bölgədə sülh və sabitliyin təmin olunmasında, sülh sazişi üzrə danışıqların uğurla nəticələnməsində ABŞ tərəfinin maraqlı olduğunu bildirib.

# Ağdam ölkənin dördüncü böyük şəhəri olacaq

## *"Ruhlar şəhəri" bu gün azadlığın və quruculuğun xoşbəxtliyini yaşayır*

**Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsindəki tarixi qələbədən dərhal sonra Ermənistan tərəfindən tamamilə dağıdılan, xarabalığa çevrilən ərazilərimiz minalardan və partlamamış hərbi sursatlardan təmizlənərək, həmin sahələrdə bərpa və yenidənqurma işlərinə başlandı. Vandallığa məruz qalan kənd və şəhərlərin yerində "ağıllı kənd"lərin təməli qoyuldu, genişmiqyaslı infrastruktur layihələrinin icrası diqqət mərkəzində saxlanıldı.**




Dövlət Statistika Komitəsinin məlumatına əsasən, təkcə 2022-ci il ərzində Qarabağ iqtisadi rayonunda tikinti sektoruna 1 milyard 821,6 milyon manat investisiya yönəldilib. Bu göstəricinin həcmi 2021-ci illə müqayisədə 38,4 faiz və ya 505,7 milyon manat çox olub.

Qeyd edək ki, ötən il adıçəkilən iqtisadi rayonda tikinti sektoruna yönəldilən investisiya nəticəsində 29 min 807 kvadratmetr sahədə inşaat işləri aparılıb. Həmçinin həmin dövrdə tikinti sektoru üzrə Şuşa şəhərinə 671,4 milyon manat, Füzuli rayonuna 542,7 milyon manat, Ağdam rayonuna 323,6 milyon manat, Xocavənd rayonuna 169,3 milyon manat, Tərtər rayonuna 51,3 milyon manat, Xocalı rayonuna isə 147,8 min manat vəsait yönəldilib.

Artıq görülən işlərin ilkin nəticəsi olaraq Zəngilan rayonunun Ağalı kəndinin sakinlərinin doğma yurdlarına qayıdışı reallaşıb. Nazirlər Kabineti tərəfindən 2022-ci ildə "İşğaldan azad edilmiş ərazilərin ümumi planı" təsdiq edilib, Zəngilan, Kəlbəcər, Qubadlı şəhərlərində İşğal və Zəfər muzeyləri kompleksinin təməlqoyma mərasimləri keçirilib. Bundan başqa görülən işlər nəticəsində Şuşa və Laçın şəhərlərindən, Laçın rayonunun Zabux və Sus kəndlərindən, Tərtər rayonunun Talış kəndindən erməni işğalı nəticəsində didərgin düşən 1400-dən çox ailənin bu il doğma yurdlarına qayıtması üçün şərait yaradılıb.

Xatırladaq ki, 2022-ci il noyabrın 16-da təsdiqlənən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" 2026-cı ilə kimi görüləcək tədbirləri əhatə edir. Bu çərçivədə Ağdam, Füzuli, Şuşa, Xocavənd, Zəngilan, Kəlbəcər, Laçın, Qubadlı, Cəbrayıl, Tərtər və Xocalı rayonlarında müvafiq infrastruktur qurulur. Füzuli və Zəngilan beynəlxalq hava limanlarının istifadəyə verilməsi bunun bariz ifadəsidir. Avtomobil və dəmir yolu infrastrukturunun qurulması, Zəngəzur dəhlizinin yaradılması istiqamətində də ciddi iş aparılır.

Yeri gəlmişkən, Horadiz–Ağbənd dəmir yolunun, Horadiz–Cəbrayıl–Zəngilan–Ağbənd avtomobil yolunun tikintisi üzrə indiyədək böyük həcmdə işlər görülüb. Azad olunmuş torpaqlarda 11 su elektrik stansiyası inşa edilib. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının vahid enerji şəbəkəsinə qoşulması təmin olunub. Bu işlərin nəticəsində 2026-cı ilə kimi 34 min 500 ailənin doğma yurduna köçürülməsi nəzərdə tutulub.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın mayın 2-də Ağdama səfər etmələri də bu baxımdan xüsusi əhəmiyyəti ilə diqqət çəkir. Xatırladaq ki, şəhərdə İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksinin, Muğam Mərkəzinin, 2-ci və 3-cü yaşayış məhəllələrinin təməlqoyma mərasimlərinin keçirilməsi də bir daha göstərdi ki, işğaldan azad olunan ərazilərdə artıq böyük dirçəliş dövrü yaşanır.

Qeyd edək ki, dövlətimizin başçısının çıxışlarının birində vurğuladığı kimi, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bərpa prosesi plan üzrə gedir: "Bu, bizim üçün əsas prioritetdir və mənim bölgələrə səfərlərimin əksəriyyəti məhz o bölgələrə olan səfərlərdir. Halbuki, mən ölkəmizin digər yerlərinə də müntəzəm olaraq gedirəm. Qarabağ və Şərqi Zəngəzurda görülmüş işlər bir daha onu göstərir ki, biz–bu torpaqların sahibləri öz doğma dədə-baba torpaqlarımıza qayıtmışıq. Otuz il ərzində Ermənistan bu torpaqları viran qoyub, daş-daş üstə qoymayıb, talançılıq və soyğunçuluqla məşğul olub, barbarlıqla məşğul olub. Biz bu torpaqların sahibləri isə gəlmişik qurmaq üçün, yaratmaq üçün. Ona görə müharibə başa çatan kimi dərhal artıq işə start verilmişdir...".

Prezident İlham Əliyev həmin çıxışında artıq iki yaşayış məntəqəsində–Ağalı və Talış kəndlərində məskunlaşmanın uğurla həyata keçirildiyini qeyd edir. Məhz bu yaşayış sahələrinin timsalında bütövlükdə gələcək Qarabağ və Şərqi Zəngəzurun siması aydın nəzərə çarpır. Hazırda infrastruktur layihələrinin icrası sürətlə gerçəkləşdirilir.

Bu ilin 3 ayında əldə olunan nailiyyətlər büdcəyə əlavələr etməyə imkan verir. Büdcəyə əlavələr ən azı 3 milyard manat səviyyəsində olacağı gözlənilir. Bunun əsas hissəsinin isə Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulmasında istifadə ediləcəyi planlaşdırılır.

Burada onu da vurğulayaq ki, Qarabağ və Şərqi Zəngəzurun bərpasında iştirak edən iş adamlarının fəaliyyətlərinin səmərəliliyi məqsədilə onlar üçün hər cür şərait yaradılıb. Belə ki, dövlətimizin başçısı tərəfindən işğaldan azad edilmiş ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara kommunal xidmətlərdən istifadəyə görə maliyyə yardımı göstərilməsi haqqında fərman imzalanıb. Fərmana əsasən, düşməndən təmizlənən yaşayış sahələrində istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara 2023-cü il yanvarın 1-dən 10 il müddətində hər ay istehlak olunan kommunal xidmətlərin (elektrik enerjisi, təbii qaz, su təchizatı və tullantı sularının axıdılması xidməti) tariflərinə uyğun olaraq ödədikləri vəsaitin 20 faizi qədər dövlət büdcəsinin vəsaiti hesabına maliyyə yardımının verilməsi qərara alınıb.

Beləliklə, Azərbaycan erməni faşizminin işğalı altındakı torpaqlarını azad etməklə tarixi inkişafının irimiqyaslı bərpa-quruculuq layihələri ilə səciyyələnən, dayanıqlı sülhə, tərəqqiyə əsaslanan və bir çox ölkələr üçün nümunə olan yeni mərhələsinə qədəm qoyub. Respublikamız qısa müddət ərzində bu mərhələdə Vətən müharibəsindən ötən müddət ərzində düşməndən təmizlənən ərazilərin minalardan və partlamamış hərbi sursatdan təmizlənməsi, müasir yaşayış, istehsal və xidmət infrastrukturunun qurulması, iqtisadi fəaliyyətin, o cümlədən nəqliyyat-kommunikasiya xətlərinin bərpası, xüsusilə Zəngəzur dəhlizinin açılması istiqamətində mühüm layihələr gerçəkləşdirib.

Həyata keçirilən məqsədyönlü və genişmiqyaslı tədbirlər Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə dirçəlməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və davamlı iqtisadi fəallığının təmin olunmasına xidmət edir, habelə həmin ərazilərin yüksək inkişaf etmiş regiona çevrilməsi üçün sağlam bünövrə yaradır.

**V.BAYRAMOV, "Xalq qəzeti"**



# Azərbaycanda 3 May Ümumdünya Mətbuat Azadlığı Günü qeyd edildi

## *Mətbuat Şurası və MEDİA birgə konfrans keçirdi, tədbir iştirakçıları bəyanat yaydılar*

**Dünən Mətbuat Şurasının və Medianın İnkişafı Agentliyinin birgə təşəbbüsü ilə "Azərbaycanda media azadlığı: plüralizm prinsipləri və vətəndaş cəmiyyəti quruculuğuna dəstək" mövzusunda konfrans keçirilib. Toplantı 3 May Ümumdünya Mətbuat Azadlığı Gününə həsr edilib. "Xalq qəzeti"nə bu barədə məlumat Mətbuat Şurasından daxil olub.**




Tədbirdə əvvəlcə ulu öndər Heydər Əliyevin, şəhid jurnalistlərin və torpaqlarımızın azadlığı uğrunda canını fəda etmiş övladlarımızın xatirəsi bir dəqiqəlik sükutla anılıb.

MŞ sədri Rəşad Məcid çıxışında toplantı iştirakçılarına 3 May Ümumdünya Mətbuat Azadlığı Günü münasibətilə təbrikini çatdıraraq bu tarixin yaranmasından söz açıb. O bildirib ki, 1993-cü ildə BMT-nin Baş Məclisi YUNESKO-nun təklifini nəzərə alaraq, may ayının 3-nü "Ümumdünya Mətbuat Azadlığı günü" elan etdi.

MŞ sədri ulu öndər Heydər Əliyevin müstəqil Azərbaycanda mətbuat azadlığının təmin edilməsi sahəsində gördüyü işlərdən söz açıb, onun iradəsi nəticəsində senzuranın rəsmən aradan qaldırılmasını önəmli cəhət kimi vurğulayıb. Ulu öndərin media qanunvericiliyinin təkmilləşdirilməsinə və zənginləşdirilməsinə yönələn, mətbuat işçilərinə diqqət və qayğını nəzərdə tutan tədbirlərini sadalayan R.Məcid bildirib ki, Heydər Əliyev medianın özünütənzimləmə strukturunun olmasına ciddi önəm verirdi: "Təsadüfi deyil ki, Mətbuat Şurasının təsis edildiyi Azərbaycan jurnalistlərinin 2003-cü il martın 15-də keçirilmiş birinci qurultayına təbrik məktubu da ünvanlamış, qurultayın işinə uğurlar arzulamışdı. Ulu öndər Heydər Əliyev mətbuata dəstəyinə görə "Jurnalistlərin dostu" adını qazanmışdı".

R.Məcid bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyev ulu öndərin media siyasətinə sadiqliyini nümayiş etdirməkdədir. Buna görə üç dəfə "Jurnalistlərin dostu" mükafatına layiq görülüb: "Media təmsilçilərimiz bu fikrə gələrkən, dövlətimizin başçısının ölkədə bütün sahələrdə olduğu kimi, media sahəsində də apardığı geniş miqyaslı islahatları nəzərə alıblar. İsahatlar bu gün də davam edir. Məlum olduğu kimi, ötən il "Media haqqında" Qanun qəbul edildi. Medianın İnkişafı Agentliyi sənədin icrası istiqamətində mühüm addımlar atmaqdadır. Bu addımlar, həm media fəaliyyəti ilə bağlı qanunvericilik bazasının təkmilləşdirilməsini, həm də mövcud sahədə nizam-intizam mühitinin formalaşdırılmasını rəhbər tutmaqdadır".

R.Məcid yaşadığımız dövrdə informasiyanın cəmiyyətin mütəhərrikliyini təmin edən alət olmaqla yanaşı, eyni zamanda, onun təhlükəsizliyinə, ayrı-ayrı fərdlərin yaşam tərzinə təsir göstərən mühüm amil olduğunu diqqətə çatdırıb: "Biz jurnalistlər çalışmalıyıq ki, ölkəmizdə söz və ifadə azadlığı ilə bağlı mövcud əlverişli mühit xalqımızın, dövlətimizin inkişafı naminə ayrı-ayrı məqamların nəzərə alınmasını şərtləndirsin. Söz azadlığından sui-istifadə meylləri aradan qalxsın. Hesab edirəm ki, mənfi halların aradan qalxması sözün çəkisini daha da artıracaq və onunla daha çox hesablaşanlar olacaqdır. Nəzərə alaq ki, bu hesablaşma, eyni zamanda, demokratik, hüquqi dövlət, vətəndaş cəmiyyəti quruculuğunun dərinləşməsi baxımından müstəsna əhəmiyyət daşıyan faktordur".

Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov çıxışında bildirib ki, ulu öndər Heydər Əliyevin müəllifi olduğu Konstitusiyada söz, fikir və məlumat azadlığına dair konkret müddəalar öz əksini tapıb. Ə.İsmayılov bu müddəaların ölkəmizdə media sahəsində həyata keçirilən tədbirlərin çıxış nöqtəsi olduğunu vurğulayıb. Ötən il Milli Mətbuat Günündə Şuşada keçirilmiş Beynəlxalq Media Forumunda Prezident İlham Əliyevin Azərbaycan jurnalistlərinə müraciətində qlobal informasiya məkanında ölkəmizin yüksək beynəlxalq nüfuzuna xələl gətirmək, daxili həyatına təsir göstərmək cəhdlərini doğuran səbəblərin və çıxış yolları barədə tövsiyələrin əksini tapdığını diqqətə çatdıran icraçı direktor vurğulayıb ki, Azərbaycan müstəqil siyasət yürüdən, müasir, güclü, dövlətə çevrildiyi üçün müxtəlif səviyyələrdə dezinformasiya savaşının hədəfindədir: "Çıxış yolu isə Azərbaycan mediasının güclü olmasında, ölkəmiz haqqında həqiqətlərin dünyaya çatdırılmasında, milli maraqlarımızın müdafiəsində sayıqlığımızı və fəallığımızı artırmaqdır".

Ə.İsmayılov qeyd edib ki, rəhbərlik etdiyi qurum media sahəsində institusional quruculuq işlərinin davam etdirilməsi məqsədilə yaradılıb. "Mediaya yanaşmada dövlətin siyasi xəttinin fəlsəfəsi "Media haqqında" Qanunun ruhunda əks olunub. Belə ki, Qanunun "Media azadlığı" adlı 5-ci maddəsinə əsasən Azərbaycan Respublikasında media azaddır. Media sahəsində dövlət senzurası, habelə, bu məqsədlə dövlət orqanlarının (qurumlarının) və ya vəzifələrin yaradılması və maliyyələşdirilməsi qadağandır. Media sahəsində fəaliyyət azadlığı hər kəsin qanuni yolla informasiya axtarmaq, əldə etmək, hazırlamaq, ötürmək, istehsal etmək və yaymaq hüququna dövlət tərəfindən təminat verilməsinə əsaslanır", – deyə o, fikrinə aydınlıq gətirib.

**(ardı 12-ci səhifədə)**

# Türk dövlətləri arasında sadələşdirilmiş gömrük dəhlizi gerçəkləşir




**Türk dünyasının bir parçası olan Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı parlaq qələbə, ərazi bütövlüyünün təmin edilməsi ölkəmizin beynəlxalq aləmə inteqrasiyasını, xüsusən də türk dövlətləri ilə əməkdaşlıq əlaqələrini xeyli sürətləndirib. Bu baxımdan Türk Dövlətləri Təşkilatına daxil olan ölkələr arasında əməkdaşlıq əlaqələrinin genişləndirilməsi məqsədilə yaradılan mükəmməl hüquqi baza müstəsna rol oynayır.**

Xatırladaq ki, Türk Dövlətləri Təşkilatının ötən il noyabrın 11-də Səmərqənd şəhərində keçirilmiş IX Zirvə Görüşünün yekunlarına dair imzalanmış Səmərqənd Bəyannaməsində dövlət və hökumət başçıları Azərbaycanın münaqişədən sonrakı bərpa, yenidənqurma və reinteqrasiya səylərinə töhfə verməyə hazır olduqlarını bir daha təsdiqləmişdilər. Eyni zamanda türk ölkələrinin dövlət və hökumət başçıları Avropa ilə Asiya arasında daha yaxşı nəqliyyat bağlantılarının genişləndirilməsi və nəqliyyat əlaqələrinin şaxələndirilməsinə töhfə verən bir sıra nəqliyyat infrastrukturunun yaradılması üçün üzv dövlətlərin səylərini dəstəklədiklərini bəyan etmişdilər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2023-cü il 2 may tarixli fərmanı ilə "Türk Dövlətləri Təşkilatının hökumətləri arasında sadələşdirilmiş gömrük dəhlizinin yaradılması haqqında" Sazişi təsdiq edib. Xatırladaq ki, 2022-ci il noyabrın 11-də Özbəkistanın Səmərqənd şəhərində imzalanmış saziş Türk Dövlətləri Təşkilatına daxil olan ölkələrin ərazisində sadələşdirilmiş gömrük dəhlizinin yaradılmasını nəzərdə tutur. Saziş tərəflər arasında daşınan mallar barədə əvvəlcədən məlumat mübadiləsinin aparılması, onların gömrük prosedurlarını mümkün qədər asanlaşdırmaq məqsədi daşıyan, könüllülük əsasında və bütün nəqliyyat növlərində istifadə edilə bilən elektron sistemin yaradılması ilə bağlı məsələləri özündə ehtiva edir. Sazişə əsasən, tərəflərin gömrük orqanlarının razılığı əsasında altı ay icra olunacaq pilot layihə ilə dəhlizin praktiki reallaşdırılması təmin ediləcək. Bu dəhliz türk dövlətləri arasında sadələşdirilmiş gömrük dəhlizi yüklərin sürətli daşınmasına imkan verəcək.

Ekspertlər sazişin reallaşdırılmasını türk dövlətləri arasında iqtisadi əlaqələrin sürətli inkişafına və ticarət dövriyyəsində kəskin artıma səbəb olacağını bildirirlər. Təkcə onu qeyd etmək kifayətdir ki, yaxın illərdə Azərbaycanın türk dövlətləri ilə ticarət dövriyyəsinin 15 milyard dollara çatdırılması nəzərdə tutulur. 2022-ci ildə isə Azərbaycanla türk dövlətləri arasında ticarət dövriyyəsi əvvəlki illə müqayisədə xeyli artaraq 5 milyard 23 milyon dollardan 7 milyard 170 milyon dollara çatıb. Bütövlükdə isə, ötən il bütün türk dövlətləri ilə ticarət dövriyyəmizdə artım qeydə alınıb. Müqayisə üçün qeyd edək ki, 2021-ci ildə Azərbaycanla qardaş Türkiyə arasında ticarət dövriyyəsi 4 milyard 661 milyon dollar təşkil etdiyi halda, ötən il bu rəqəm 5 milyard 842 milyon dollaradək yüksəlib. Heç şübhəsiz, son illər ölkəmizin türk dövlətləri ilə apardığı ticarət əlaqələrində ən yüksək artım Türkmənistanla Qazaxıstanın payına düşür. Belə ki, ötən il Türkmənistanla ticarət dövriyyəmiz əvvəlki ilə nisbətən 5,1 dəfə artaraq 105 milyon 23 min dollardan 535 milyon 397 min dollara çatıb. 2022-ci ildə Qazaxıstanla 598 milyon 486 min dollarlıq ticarət əməliyyatları aparılıb ki, bu da əvvəlki ilə nisbətən 4,4 dəfə çoxdur. Bundan əlavə, ötən il Azərbaycan Özbəkistanla 183 milyon 307 min dollar, Qırğızıstanla isə 10 milyon 809 min dollarlıq ticarət əməliyyatları aparıb ki, bu da əvvəlki ilə nisbətən müvafiq olaraq 64 faiz və 17 faiz çoxdur.

Avropa ilə Asiya arasında ən təhlükəsiz və qısa yol hesab olunan Orta Dəhliz kimi tanınan Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu boyunca vahid tarif və gömrük sisteminin yaradılması isə yaxın illərdə türk dövlətləri arasında iqtisadi əlaqələrin, xüsusən də ticarət dövriyyəsinin bir qədər də artmasına səbəb olacaq.

***Mirbağır YAQUBZADƏ, "Xalq qəzeti"***

### *Ekspert rəyi*



**Təbriz YADİGAROV,**
**ETN İqtisadiyyat İnstitutunun aparıcı elmi işçisi, dosent**

Azərbaycanın Şərq–Qərb və Şimal–Cənub marşrutları nəqliyyat qovşağına çevrilməsi yüklərin dünyanın bir başından digərinə iki dəfə az vaxt ərzində nəql edilməsinə geniş şərait yaradır. Çindən Avropaya türkdilli ölkələrin ərazilərindən keçən yeni transkontinental dəhlizlərin yaradılması Türk Dövlətləri Təşkilatına üzv ölkələrin bu potensialdan səmərəli istifadə etməsinə şərait yaradır. "Türk Dövlətləri Təşkilatının hökumətləri arasında sadələşdirilmiş gömrük dəhlizinin yaradılması haqqında" Sazişin təsdiq edilməsi rəqəmsal iqtisadiyyat və Dördüncü Sənaye İnqilabı sahələrində Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə və Özbəkistan arasında əməkdaşlığın gücləndirilməsinə mühüm töhfədir.

Qeyd edək ki, beynəlxalq kombinə edilmiş yükdaşımalar multimodal daşımaların ayrıca növü kimi malların və məhsulların uzun məsafələrə çatdırılmasında cəlb olunacaq nəqliyyat vasitələrinin sayından asılı olmayaraq bütün daşıma üçün vahid tarif tətbiq edilməklə yanaşı, daşımada istifadə olunan nəqliyyat vasitələri üçün vahid sənəd (gömrük, sığorta, nəqliyyat və s.) tələb edir. Daşınma "qapıdan qapıya" sxeminə əsasən, yəni yükü göndərənin anbarından onu alanın anbarına qədər həyata keçirilir. Beynəlxalq kombinə edilmiş daşımalar yükün maksimum təhlükəsizliyini təmin etməyə, çatdırılma xərclərini minimuma endirməyə və onun vaxtını azaltmağa, logistika sxemini optimallaşdırmağa imkan verir.

2023-cü ilin ilk rübündə Azərbaycanın ümumi ticarət dövriyyəsi ötən ilin eyni dövrü ilə müqayisədə 7,9 faiz artaraq 11 milyard 771,2 milyon dollar olmuşdur ki, onun da 17,1 faizini və yaxud 2 milyard 13 milyon 640 min dollarını türkdilli ölkələrlə aparılan idxal və ixrac əməliyyatları təşkil etmişdir. 2022-ci ilin eyni dövrü ilə müqayisədə türkdilli dövlətlərlə ticarət dövriyyəsində 28,7 faiz artım qeydə alınmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Türk Dövlətləri Təşkilatının hökumətləri arasında sadələşdirilmiş gömrük dəhlizinin yaradılması, eləcə də beynəlxalq kombinə edilmiş yük daşımaları haqqında Sazişin təsdiq edilməsi "Türk Dünyasına Baxış-2040" sənədinin həyata keçirilməsi məqsədilə təsdiq edilmiş "Türk Dövlətləri Təşkilatının 2022–2026-cı illər üçün Strategiyası"nda nəzərdə tutulan bütün məsələlərin həllində mühüm rol oynayacaq, respublikamızın dünya ölkələri ilə assosiativ fəaliyyətinin genişləndirilməsini təmin edəcək.

**İtaliyanın və Aralıq dənizinin ən böyük limanlarından biri olan "Trieste" limanının baş direktoru Zeno D'Aqostino Bakı Beynəlxalq Dəniz Ticarət Limanına səfər zamanı hər iki liman arasında yeni əməkdaşlıq imkanları araşdırılıb.**

Bakı limanından aldığımız məlumata görə, Zeno D'Aqostino limanın əməliyyat qrupu ilə görüşüb, ərazinin əməliyyat imkanları ilə tanış olub. Görüşdə, eyni zamanda, Avropanı Asiya ilə birləşdirən strateji marşrut sayılan Orta Dəhliz vasitəsilə Bakı limanından keçməklə göndəriləcək yük həcminin artırılması məsələsi ətrafında geniş müzakirə aparılıb. Eyni zamanda, Bakı və "Trieste" limanları arasında beynəlxalq yükdaşımalarda əhəmiyyətli paya malik logistika şirkətləri tərəfindən qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsinin əsas məqsədlərdən biri olması da vurğulanıb.

# Bakı limanı beynəlxalq yollar qovşağında



Zeno D'Aqostino ilə söhbət zamanı Bakı limanının genişləndirilməsi strategiyasına da toxunulub. Xəzər dənizinin ən müasir limanlarından sayılan və Orta Dəhlizdə mühüm strateji paya sahib olan Bakı limanı bu dəhlizi gücləndirməyə və sürətləndirməyə kömək edə biləcək Avropa limanları ilə əməkdaşlıq etməklə öz fəaliyyətini genişləndirməyə çalışdığı bildirilib. Mərkəzi və Şərqi Avropaya giriş qapısı kimi strateji məkana sahiblik edən "Trieste" limanı illik 60 milyon tondan çox mal dövriyyəsi ilə İtaliya və Aralıq dənizinin ən böyük limanlarından biridir.

Bakı limanının məlumatında daha sonra deyilir ki, İtaliya ilə potensial tərəfdaşlıq hər iki limanın mövqelərini gücləndirə, iqtisadiyyat və logistika sahəsində Azərbaycanla yanaşı, region ölkələrinə də fayda gətirə bilər.

Qeyd edək ki, Bakı limanı hazırda böyük yük axınlarına və Çin–Avropa arasında daşımalara hazırlaşır. Buna görə də təzliklə adıçəkilən infrastrukturda tikinti layihələrinin ikinci fazasının həyata keçirilməsi nəzərdə tutulur.

Bu mərhələdə limanın konteyner aşırma gücü 400 min TEU artırılaraq 500 min TEU-ya çatdırılacaq. Bundan əlavə, burada digər yük terminalları da qurulacaq. Ümumiyyətlə, infrastrukturda reallaşdırılacaq layihələr nəticəsində onun ümumi yükaşırma gücü, təxminən, 25 milyon ton təşkil edəcək. Limanın konteyner aşırma qabiliyyətinin artırılması isə Orta Dəhlizə daha çox yüklərin cəlb edilməsinə imkan verəcək.

Tikintiyə başlamaq üçün hazırda texniki-iqtisadi əsaslandırma işləri görülür və bu tədbirlərin cari ilin ikinci rübündə başa çatacağı gözlənilir. Qarşıdakı 10 ildə Orta Dəhliz Şərqlə Qərbi birləşdirən əsas dəhlizə çevrilə bilər. Bu müddətdə adıçəkilən infrastrukturun tam dayanıqlı "yaşıl dəhliz" kimi fəaliyyət göstərəcəyi də gözlənilir.

Texniki-iqtisadi əsaslandırma hazırlanandan sonra tikinti dizaynı və texniki tərəfləri müəyyənləşdirən baş planın, həmçinin mühəndislik əməliyyatlarının tərtibi həyata keçiriləcək. Daha sonra isə master-plana uyğun inşaat müddəti açıqlanacaq.

Mütəxəssislərin təxmini hesablamalarına görə, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ikinci fazası çərçivəsində tikinti işləri təqribən 3 il çəkəcək.

Bakı limanının ərazisi daxil olmaqla ətraf sahələrdə azad iqtisadi zonanın yaradılması da nəzərdə tutulur ki, bu da mühüm nəqliyyat qovşağı kimi infrastrukturun daha geniş tranzit və daşıma imkanları ilə təmin edəcək. Məhz elə bu məqsədlə Prezident İlham Əliyev Ələt Azad İqtisadi Zonasının fəaliyyətinin, inkişafının və idarə edilməsinin hüquqi rejimini müəyyənləşdirən "Ələt Azad İqtisadi Zonası haqqında" 18 may 2018-ci il tarixli Qanun imzalayıb.

Bakı limanının ətrafında Dubaydakına bənzər azad iqtisadi zona modelinin reallaşdırılması nəzərdə tutulur. Qanunun əsas məqsədi təsərrüfat subyektləri üçün maksimum əlverişli vergi, gömrük, lisenziyalaşdırma, viza rəsmiləşdirilməsi və s. rejimləri yaratmaqla Ələt Azad İqtisadi Zonasını xarici şirkətlər, investorlar üçün cəlbedici etməkdir.

Limanın fəaliyyətindən danışarkən bu infrastrukturun iqtisadi göstəricilərinə də diqqət yetirək. Nazirlər Kabinetinin Milli Məclisə hesabatında bildirilir ki, ötən il Azərbaycan ərazisindən keçən tranzit yükdaşımalar 75 faizdən çox artıb. Eyni zamanda respublikamız Orta Dəhlizin təşviqinə öz töhfəsini verib. Belə ki, tranzit silsiləsində olan qurumlarda infrastrukturun yaxşılaşdırılması və müvafiq ötürücülük qabiliyyətinin artırılması istiqamətində tədbirlər davam etdirilib. Bununla da hesabat dövründə Bakı Beynəlxalq Dəniz Ticarət Limanı ilə ümumi yükaşırmanın həcmi 15 faiz artaraq 6,4 milyon ton təşkil edib ki, onun da 89 faizi tranzit yüklərin payına düşüb.

Hesabat ilində limandan aşırılmış yüklərin 53 faizi Türkmənistan limanları hesabına olub və ümumi həcm 3 milyon 359 min tona çatıb. Qazaxıstan limanları ilə isə dövriyyə 2 milyon 382 min 956 ton olub, bu isə ümumi dövriyyənin 38 faizini təşkil edib. Digər limanlarla isə yük dövriyyəsi 571 min ton təşkil edib.

Şərq–Qərb və Şimal–Cənub beynəlxalq nəqliyyat qovşaqlarının kəsişməsində yerləşən, yüksək texniki imkanlara malik, əməliyyatlar sahəsində nümunəvi rəqəmsal və yaşıl həllər tətbiq olunduğu Bakı Limanının yükaşırma həcmi hər il artır.

***Vaqif BAYRAMOV, "Xalq qəzeti"***

# Dəmir yolu ilə daşımalar 17 faiz artıb

**Cari ilin birinci rübündə "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti tərəfindən yük və sərnişin daşınması artıb.**

Səhmdar Cəmiyyətindən aldığımız məlumata görə, yanvar-mart aylarında ölkənin polad magistralları ilə 4 milyon 457 min ton yük daşınıb. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 17 faiz çoxdur. Rüblük daşımaların 2 milyon 36 min tonu beynəlxalq, 1 milyon 651 min tonu tranzit, 771 min tonu isə daxili daşımaların payına düşüb. Hesabat dövründə beynəlxalq və tranzit daşımalarda artım baş versə də, daxili yüklərdə azalma qeydə alınıb.



Bu ilin ilk rübündə dəmir yolu ilə 1,51 milyon nəfər sərnişin daşınıb. Bu isə ötən ilin eyni dövrünə nisbətən 60 faiz çoxdur. Rüblük sərnişin daşımalarının 1,46 milyon nəfəri Bakı-Sumqayıt, 50 min nəfəri isə Bakı–Ağstafa və Bakı–Qəbələ qatarlarının payına düşüb. Bütövlükdə isə, hesabat dövründə Bakı–Ağstafa və Bakı–Qəbələ qatarları ilə sərnişin daşınması əvvəlki ilin analoji dövrü ilə müqayisədə müvafiq olaraq 55 faiz və 20 dəfə artıb.

***"Xalq qəzeti"***



# Bolqarıstan regional qaz habına çevrilir

**Bolqarıstanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Ruslan Stoyanov mediaya müsahibəsində Yunanıstan-Bolqarıstan interkonnektorunun (IGB) ölkəsinin müxtəlif mənbələrdən və marşrutlardan qazın paylanması üçün əsl regional haba çevrilməsinə imkan yaradacağını bildirib.**

Səfir xatırladıb ki, Yunanıstan–Bolqarıstan interkonnektorunun (IGB) 2022-ci il oktyabrın 1-də Sofiyada Azərbaycan Prezidenti İlham Əliyevin, həmçinin digər dövlət və hökumət başçılarının, habelə Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayenin iştirak etdiyi açılış mərasimi kəmərin kommersiya istismarının başlanğıcını qoyub.

"IGB qazın Yunanıstan ərazisi ilə Trans–Adriatik Boru Kəməri (TAP) vasitəsilə Bolqarıstana və qonşu ölkələrə nəqli üçün əsas marşrutdur. Bu, Cənub–Şərqi Avropa regionuna qaz tədarüklərinin diversifikasiyası üçün mühüm və ümumi maraq kəsb edən layihə olmaqla Mərkəzi və Şərqi Avropada enerji bağlantısı üzrə yüksək səviyyəli qrup çərçivəsində prioritet daşıyır.

Qeyd edək ki, Yunanıstan–Bolqarıstan interkonnektoru 1 oktyabr 2022-ci il tarixindən kommersiya tədarükünə başlayıb.

Bolqarıstana təbii qaz nəqlinin diversifikasiyalaşdırılması üçün ilk marşrut olan IGB tədarükün daha yüksək təhlükəsizliyinə və mənbələrin müxtəlifliyinə zəmanət verməklə təbii qaz bazarında rəqabəti şərtləndirir.

Azərbaycanla saziş üzrə layihənin əsasını 1 milyard kubmetr tədarük təşkil etdiyi halda, IGB digər yükgöndərənlər tərəfindən rezerv edilmiş uzunmüddətli imkanlara da malikdir. Bunların əksəriyyəti Bolqarıstan bazarı üçün tamamilə yenidir.

***"Xalq qəzeti"***

# TANAP-la Türkiyəyə 21 milyard kubmetrdən çox qaz nəql olunub

**"SOCAR Türkiye"nin baş direktoru Elçin İbadovun "Habertürk"ə bildirdiyinə görə, Trans–Anadolu qaz kəməri (TANAP) vasitəsilə Türkiyəyə 2018-ci il iyunun 30-dan 2023-cü il martın 31-dək 21 milyard kubmetrdən çox qaz nəql olunub.**




"TANAP layihəsinin icrası Avropaya və Türkiyəyə təbii qaz tədarükünün marşrutlarının diversifikasiyası, habelə qardaş ölkənin enerji dəhlizinə çevrilməsi üçün strateji addımlardan biridir",– E.İbadov deyib.

Qeyd edək ki, Azərbaycan Respublikası Energetika Nazirliyinin hesabatına əsasən, 2023-cü ilin yanvar–mart ayları ərzində Azərbaycan Avropaya (2,9 milyard kubmetr), Türkiyəyə (2,7 milyard kubmetr) və Gürcüstana (0,9 milyard kubmetr) təbii qaz ixrac edib.

Hesabat dövründə Trans–Anadolu qaz kəməri ilə Türkiyəyə 1,4 milyard kubmetr qaz ixrac olunub.

***"Xalq qəzeti"***

# Qərb, Rusiya və ABŞ vasitəçiliyinə baxış

## Vaşinqtonun şans fazasında Deyton təcrübəsi ...Tarix təkrarlanacaqmı?

**“Biz Ermənistanın konstruktivliyinə ümid edirik. Əgər onlar konstruktiv olmasalar, biz diplomatik tədbirlərdən başqa hər hansı bir digər tədbirlərə əl atmağı planlaşdırmırıq. Bu qədəri bizə bəsdir. Buna görə, sadəcə, sülh olmayacaq, kommunikasiyalar açılmayacaq. Onlar yenə də təcrid olunacaqlar və onlar bu yeni geosiyasi konfiqurasiyada özlərinə yer tapmalı olacaqlar”. Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev dünən ADA Universitetinin təşkilatçılığı ilə Şuşada keçirilmiş ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə” mövzusunda dördüncü beynəlxalq konfransdakı çıxışında səsləndirib. Nəzərə alaq ki, dövlətimizin başçısının bu bəyanatı Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Vaşinqton danışıqlarının getdiyi bir dövrə təsadüf edir.**

Deməli, ölkəmizin lideri İrəvana mesaj verir. Təbii, bu mesaj, eyni zamanda, görüşün təşkilatçısı olan ABŞ-a da ünvanlanıb. İndi Ağ ev, necə deyərlər, danışıqların aparıldığı məkanın qapısını, pəncərəsini bərk-bərk bağlamalıdır. Bağlamalıdır ki, Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan aradan çıxmasın.

Bəli, Azərbaycan və Ermənistan arasında normallaşma prosesi kifayət qədər gərgin mərhələyə qədəm qoyubdur, desək, yanılmarıq. Məlum olduğu kimi, haqqında söz açdığımız Vaşinqton prosesinin bir neçə gün, hətta, bir həftə davam edəcəyi bildirilir. Bu isə tərəflərin sülhə gələcəklərinə, yekun sülh müqaviləsinin tezliklə imzalanacağına böyük ümid yaradır. Hərçənd, hər şey gözlənildiyi kimi olmaya da bilər...

Əlbəttə, haqqında söz açdığımız gərginliyin iki qütbü var. Birincisi, Ermənistanın avantürizmi, onun vəziyyətlə barışmaq istəməməsi, 44 günlük müharibənin rüsvayçı nəticələrini minimallaşdırmaq istəyi, Qarabağ ambisiyaları və s. İkincisi, beynəlxalq dairələrin Cənubi Qafqaz siyasi akvatoriyasına marağı, regionda rəqabət aparmaq əzmi. Bu sıraya Qərbin Rusiyanı bölgədən sıxışdırmaq istəklərini də əlavə edə bilərik.

Danışıqların gərginliyini şərtləndirən qeyd etdiyimiz məqamlardır. Bu məqamlar həm də prosesin üç fazasını müəyyənləşdirməkdədir ki, bunlar – Rusiya, Avropa və ABŞ xəttidir. Belə görünür ki, Birləşmiş Ştatlar özünü ənənəvi Qərb xəttindən kənarda tutmağa üstünlük verir. Avropa xəttini xarakterizə edən Avropa İttifaqının təşəbbüsləridir. Mövcud labirintdə müstəqil sülhyaratma missiyası ilə çıxış edən və özünü əvvəlki iki xəttə alternativ qoyan isə Rusiyadır. Yazımızda daha çox bu üç istiqamətin Azərbaycanla Ermənistan arasında münasibətlərin tənzimlənməsindəki, ümumilikdə isə Cənubi Qafqazda sülhün əldə edilməsindəki fəaliyyətinə diqqət yetirəcəyik. Əlbəttə, digər məqamlara da toxunmağı düşünürük.

***

Əvvəla, Rusiyadan başlayaq. Məlum olduğu kimi, 44 günlük müharibənin sona çatmasını təmin edən tərəf, faktiki olaraq, Rusiyadır. 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanat məhz Moskvanın təşəbbüsü ilə ərsəyə gəldi. Əlbəttə, həmin vaxt Rusiyanın dünyadakı nüfuzu indiki kimi deyildi. Ukraynada müharibə ilə bağlı ehtimallar olsa da, Moskvanın intervensiya potensialı ətrafında söz-söhbətlər başlasa da, dünya Kremldən, belə demək mümkünsə, əlini üzməmişdi.

Üstəlik, əks baxışlara rəğmən, psixoloji anlamda Cənubi Qafqazda Rusiya nüfuzu qəbul edilirdi. Üçtərəfli bəyanat bu nüfuzu bir qədər də möhkəmləndirdi. İş o yerə çatdı ki, Moskvanın həmin sənədin şərtlərinə əsasən tələm-tələsik Qarabağa öz sülhməramlılarını yerləşdirməsi müqavimətlə qarşılanmadı. Hərçənd, demək olmazdı ki, bu gedişat Qərbin, o cümlədən, ABŞ-ın maraqlarına uyğun idi. Belə görünür, beynəlxalq ictimaiyyət müharibənin şokundan ayılmamışdı və Rusiya vəziyyətdən kifayət qədər, bəhrələnməyi bacardı. Dünyaya Cənubi Qafqazın ona məxsusluğuna dair tutarlı mesaj verdi. Hətta, beynəlxalq ictimaiyyətdə Moskvanın sülhyaratma missiyasının səmimiliyi kontekstində də təsəvvürlər formalaşmağa başladı. İstər Avropanın, istərsə də Amerikanın hakim siyasi dairələri bəyanatlar verərək, Kremli Cənubi Qafqazda müharibəyə son qoyduğu üçün təriflədilər də.

Təbiidir ki, həmin vaxt dünyanın başqa seçimi yox idi. Xarici qüvvələr, habelə, erməniپərəstlər Azərbaycanı öz haqlı davasından durdurmağın yollarının olmadığını görmüşdülər. Nəzərə alaq ki, ölkəmizin Rusiya Prezidenti Vladimir Putinin təşəbbüsünə müsbət reaksiya verməsi, həm də dövlətimizin başçısının Kreml rəhbərinə şəxsi kontekstdə müsbət münasibətinin nəticəsi kimi də meydana çıxmışdı. Əlbəttə, bu münasibət ölkəmizin milli maraqlarını və haqlarını ikinci plana çıxara bilməzdi və çıxarmadı. Əksinə, Laçın, Kəlbəcər və Ağdam məhz üçtərəfli Bəyanatın şərtlərinə əsasən, bir güllə belə atılmadan geri alındı.

Ancaq sonra nə baş verdi? Əslində, üçtərəfli Bəyanat hüquqi sənəd kimi ciddi əhəmiyyətə malik deyil. O, daha çox müharibəyə son qoyan, atəşkəsi təsbit edən, eyni zamanda yekun sülh müqaviləsinin imzalanması baxımından körpü rolunu oynayan təsirə malikdir. Müharibədən sonra da məhz bu xarakterli daha iki sənəd imzalandı ki, onlar, demək olar, birincinin təkrarı idi. Lakin burada başqa məqamın şahidi olduq. Gördük ki, Rusiya müharibədən sonrakı status-kvonu saxlamaqda maraqlıdır. Yəni, ancaq buna həvəs göstərir, yekun sülhə yox.

Bəli, Putinin təşəbbüsü ilə Azərbaycan və Ermənistan lidelərinin bir araya gətirilməsinin, eləcə də digər səviyyəli təmasların, əslində, görüntü xarakteri daşıdığı təsdiqləndi. Habelə, məlum oldu ki, Moskva həmin görüşləri keçirməklə, yalnız yeni müharibənin baş verməyəcəyinə əmin olmağı düşünür. Başqa sözlə desək, Rusiya ancaq özünün bölgədəki jandarm funksiyasının təsbit edilməsi üzərinə oyun oynayır. Bu baxımdan isə görünür, rus sülhməramlılarının Qarabağda mövcudluğu faktı kifayət idi.

Kreml səhv etdi. Hadisələrin başqa axarını təsəvvürə gətirmək istəmədi. Nəticə etibarilə, Putinin təşəbbüsü ilə gerçəkləşmiş üçtərəfli görüşlər də əhəmiyyətsiz oldu. Görüşlər həm də ona görə əhəmiyyət daşımadı ki, müharibə şokundan ayılmış Ermənistanda, tədricən, öz məvhərinə, yəni, Qərb təmayülünə qayıtma elementləri gücləndi. Təbii, Qərb də Moskvanın Bakı ilə İrəvan arasındakı sülh təşəbbüslərinin nəticəsizliyini gördü və bu cəhət ona müstəqil oyunçu kimi prosesə qoşulmaq şansı yaratdı. Təxminən belə: Rusiya edə bilmirsə, biz edək! Daha doğrusu, Moskva bacarmırsa, biz bacararıq!

Əlbəttə, bu deyimdə erməniپərstlik amili də özünü göstərməyə başladı. Bu yerdə Rusiya erməniپərəstliyi ilə Qərb erməniپərəstliyi arasındakı fərqə toxunaq. Moskva qərbpərəst İrəvan hakimiyyətini öz orbitinə qaytarmaq üçün ona jest edirdisə, müəyyən məsələlərdə dolayısı ilə onun tərəfindən çıxış edirdisə, Qərb erməniپərəstliyi üçün daha ciddi təəssübkeşlik motivləri aktuallaşmaqda idi. Yazımızda bu aktuallığın Azərbaycana işğalçı damğası vurmaq cəhdlərindən də söz açacağıq. Hələlik isə...

***

Bəli, Rusiyanın 44 günlük müharibədən sonrakı status-kvonu saxlamaq cəhdləri həm bölgədə hərbi mövcudiyyət, həm də Ermənistanı öz peykinə daxil etmək məramına söykəndi ki, mövcud amil Qərb tərəfindən məqbul qarşılana bilməzdi. Əvvəla, Qərb böyük enerji sərf edərək 2018-ci ildə Ermənistanda inqilab gerçəkləşdirmişdi və razı olmazdı ki, inqilabın doğurduğu nəticələr sıradan çıxsın. İkincisi isə Rusiyanın Cənubi Qafqazda yalnız hərbi varlığa dayanmış siyasi primitivliyinin müqavimətlə üzləşməsi labüd idi.

Təbiidir ki, Azərbaycan özünün maraqlarını bir an belə kənara qoymadı və Ermənistana üzərinə düşən öhdəlikləri yerinə yetirmək üçün təzyiqi gündəmdə saxladı. Üstəlik, ölkəmiz İrəvanın revanşist baxışlarından irəli gələn tədbirlərinə qarşı cəsarətli əks addımlar atdı. Durum Moskva üçün diskomfort yaratmaya bilməzdi. Bu vəziyyət, eyni zamanda, Rusiyanın sülh prosesində səmərəsizliyi ilə bağlı düşüncələrə də yol açdı. Həmin dönəmdə Ukraynada müharibənin başlanmasını və mövcud xüsusda Rusiyanın nüfuzunun aşağı düşməsini də yaddan çıxarmamalıyıq.

Dediyimiz kimi, hadisələr Rusiya sülhyaratma missiyasının real nəticə baxımından passivliyi səbəbindən, Azərbaycan–Ermənistan nizamlanmasının Qərb seqmetninin işə düşməsi reallığını doğurdu. Burada əsas rolu Avropa İttifaqı oynadı. Söhbət Brüssel formatından gedir. Əlbəttə, Rusiya bu formata qarşı olsa da, əvvəlcə ona münasibətdə hər hansı əks fikirlər gündəmə gətirməkdən çəkindi. Yada salaq ki, Aİ Şurasının prezidenti Şarl Mişelin iştirakı ilə Azərbaycan və Ermənistan lidelərinin görüşləri kifayət qədər effektiv alınırdı. Ş.Mişel tərəflərin maraq və mənafelərini uzlaşdırmağı bacarırdı. O vaxtadək ki, ortaya Fransa Prezidenti Emmanuel Makron girdi.

Makron ötən ilin oktyabrında gerçəkləşmiş Praqa Sammitində Aİ Şurasının prezidentinin vasitəçiliyinə, belə demək mümkünsə, şərik çıxdı. Ancaq məlum olduğu kimi, onun hərəkət və davranışları vasitəçilikdən çox tərəfkeşliyə çevrildi. O, Azərbaycanı Ermənistana münasibətdə işğalçı mövqe tutmaqda, Moskvanı isə müttəfiqi İrəvanın maraq və mənafelərinə xəyanətdə günahlandırdı. Hqqında söz açdığımız damğa da məhz budur və vəziyyətin bu şəkil alması Rusiyanın vasitəçiliyin Qərb xəttinə qarşı, necə deyərlər, cəbhə açmasına əsas yaratdı.



E.Makronun patronajlığı ilə Aİ Azərbaycan–Ermənistan sərhədinin Ermənistan tərəfində mülki missiya göndərdi. Baş nazir Nikol Paşinyan isə bəyan etdi ki, ölkəsi danışıqlar masasına yalnız Fransa Prezidentinin də həmin masada olacağı təqdirdə qayıdacaq. Nəticədə, Brüssel prosesi iflasa uğradı. Şarl Mişel isə obrazlı desək, qeybə çəkildi. Bunun qarşılığında Rusiya yenidən aktivləşmək istədi. Lakin onun səyləri heç bir nəticə vermədi. Moskva beynəlxalq ictimai rəyə Qərbi Cənubi Qafqazda vəziyyəti destabilləşdirməkdə ittiham edən bəyanatlardan başqa tutarlı heç nə çıxarmadı. Kreml bu dəfə regiondakı status-kvonu Qərbin səmərəsizliyi görüntüsünə əsasən saxlamaq istədi. Azərbaycan isə dayanmadı...

***

Hazırda Azərbaycan–Ermənistan normallaşmasında ABŞ-ın aktivləşməsi, məhz, yuxarıda sadaladığımız Rusiya və Avropa sülhyaratma missiyasının fayda verməməsindən qaynaqlanır. Belə təəssürat yarandı ki, Birləşmiş Ştatlar həmin vaxtadək prosesi yaxından izləyirdi. Hadisələr, sanki, məşhur şairimiz Abbas Səhətin “Ayı və şir” təmsilindəki kimi ona kənar müdaxilə idi.

ABŞ-ın sözügedən müstəqil iştirakçılığı olduqca həssasdır. Çünki Avropa və Rusiya vasitəçiliyi, belə demək mümkünsə, pusquda dayanıb iflası gözləyirlər ki, təzədən “ovu” ələ keçirsinlər. Bunu Vaşinqton da ciddi şəkildə anlayır və çalışır ki, səhvə yol verməsin. Eyni zamanda mümkün olan hər şeyi edir. Burada Birləşmiş Ştatları Rusiyadan və Avropadan fərqləndirən başlıca xüsusiyyət isə odur ki, o, Azərbaycanın prinsiplərində israrlı olduğunu daha yaxşı dərk edir. Ağ ev onu da yaxşı anlayır ki, hazırkı məqamda Bakı iki ildən artıq bir müddətdə gözləyib. Oyun qaydalarına riayət edib, lakin, haqqı olana çatmayıb. Bunu açıqdan-açığa bildirməsə də, Vaşinqtonun nəzərində Azərbaycanın, hətta, aqressiv ritorikaya əl atması da qanunauyğundur. Bu ritorikanın isə Ermənistanın bir dövlət kimi varlığını şübhə altına alacağı gün kimi aydındır. Yəni, əsl ov İrəvan ola bilər. Əslində Azərbaycan Prezidentinin lap əvvəldə qeyd etdiyimiz fikirləri də gəldiyimiz qənaətin təsdiqidir.

Görünür, Ermənistanın “meşəyə buraxılmış ov donuzu”na çevrilməyə doğru getməsi ABŞ-ın maraqlarında deyil. Ona görə onu yola gətirməkdə əzmli görünür. Bunun yeganə yolu isə səmimiyyət nümayişindən keçir. Yəni, hazırda Amerika səmimiyyəti İrəvanı razı salmaq potensialının məntiqi nəticə doğurması üçün səfərbər olmalıdır. Vaşinqtonda Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri arasındakı danışıqların müddətinin uzanması buna görədir.

Yeri gəlmişkən, Birləşmiş Ştatların təcrübəsində ölkədə aparılan danışıqların günlərlə davam etməsinə və pozitiv nəticənin əldə olunmasına rast gəlinib. Bu baxımdan çox da keçmişə qayıtmağa ehtiyac yoxdur. Söhbət Deyton sazişindən gedir. O sazişdən ki, 1991–1995-ci illərdə keçmiş Yuqoslaviya ərazisində – Bosniyada vətəndaş müharibəsinə, həmçinin Xorvatiyadakı müharibəyə son qoymuşdu. Tərəflər 1995-ci ilin noyabrında ABŞ-ın Deyton şəhərində bir neçə günlük danışıqlar gedişində razılaşmışdılar. Bundan sonra, 14 dekabr 1995-ci ildə Parisdə bosniyalıların lideri Aliya İzzetbeqoviç, Serbiyanın prezidenti Slobodan Miloşeviç və Xorvatiyanın rəhbəri Franyo Tudcman tərəfindən yekun sülh sazişi imzalanmışdır.

Ümid edək ki, tarix təkrarlanacaqdır. Onu da nəzərə alaq ki, bu təkrarlanma Birləşmiş Ştatlar üçün Cənubi Qafqazda hakim mövqe qazanmaq baxımından son dərəcə önəmlidir. Yəqin ki, Vaşinqton şansı qaçırmaq istəməz.

***Ə.CAHANGİROĞLU, “Xalq qəzeti”***

# Azərbaycanda 3 May Ümumdünya Mətbuat Azadlığı Günü qeyd edildi

**(əvvəli 10-cu səhifədə)**

MEDİA-nın icraçı direktoru çıxışında, həmçinin, “Media haqında” Qanundakı bir sıra məsələlərə toxunub, Agentliyin öz işini media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsi, müvafiq sahədə yeni iqtisadi modelin formalaşdırılması, yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılması üzərində qurduğunu vurğulayıb.

Konfransda iştirakçılar tərəfindən 3 May Ümumdünya Mətbuat Azadlığı Günü ilə həmrəyliyini ifadə edən bəyanat qəbul edilib. Bəyanatı MŞ sədrinin müavini, ATV telekanalının prezidentinin müşaviri Səadət Məmmədova səsləndirib.

**R.AMİN**

## *“Azərbaycanda media azadlığı: plüralizm prinsipləri və vətəndaş cəmiyyəti quruculuğuna dəstək” mövzusunda kofransın iştirakçılarının 3 May Ümumdünya Mətbuat Azadlığı Günü ilə bağlı bəyanatı*

Əsası dahi mütəfəkkir Həsən bəy Zərdabi tərəfindən qoyulmuş Azərbaycan mətbuatının qayəsində cəmiyyətin inkişafına və tərəqqisinə xidmət amalı dayanır. Müstəqillik illərində Azərbaycan mediası bu amalı rəhbər tutaraq fəaliyyət göstərmişdir. Mediamız ötən müddətdəki inkişaf yolunda 3 May Ümumdünya Mətbuat Azadlığı Gününün təsisi ilə bağlı prinsiplərə də sadiqlik xətti götürmüş, çalışmışdır ki, plüralist fikir cəmiyyətin müxtəlif qütblərinin maraqlarının ifadəçisinə çevrilsin.

Azad sözə müstəsna dəyərin verildiyi ölkəmizdə bu baxışın təminatçısı qismində çıxış edən Azərbaycan dövlətidir. Ulu öndər Heydər Əliyevin media siyasətini, onun jurnalistikaya diqqət və qayğı ənənəsindəki varislik prinsipini qoruyan, bu kursu fundamental əsaslarla zənginləşdirən Prezident İlham Əliyevin səsləndirdiyi fikirlər, eləcə də reallaşdırdığı islahat proqramları onu deməyə əsas verir ki, ölkəmizdə müstəqil fikrin inkişafı üçün möhkəm təməl var.

Dövlətimizin başçısının ulu öndər Heydər Əliyevin senzuranın aradan qaldırılması iradəsinə söykənmiş islahatlarının tərkib hissəsi olaraq, mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsini, redaksiyaların maddi-texniki bazasının möhkəmləndirilməsini və digər təşilati dəstək mexanizmlərinin tətbiqini yüksək qiymətləndiririk. Sevindirici haldır ki, islahatçılıq ənənəsi məntiqi davamını çap məhsullarının əlavə dəyər vergisindən azad edilməsində, jurnalistika fəaliyyəti ilə bağlı məsuliyyətin artırılmasına yönələn qanunvericilik təşəbbüslərində də tapır. Azərbaycan jurnalistləri isə genişlənən informasiya məkanının tələblərinə adekvat fəaliyyət əzmini bəyan edərək, inkişafın müasirləşmə xəttini hədəf seçirlər.

Medianın özünütənzimləmə qurumu olan Mətbuat Şurası, həmçinin Medianın İnkişafı Agentliyi və bu konfransın iştirakçıları hesab edirlər ki, həm milli mətbuatımızın ənənələrinə sadiqlik, həm də Azərbaycan dövlətinin gözləntilərini doğrultmaq peşəkarlığın daha da artırılmasını, mətbu sözün təəssübünü çəkməyi, sanbalını qorumağı mühüm vəzifə kimi müəyyənləşdirməkdədir. Biz, Azərbaycan jurnalistlərini fəaliyyətlərində bu meyarları nəzərə almağa, milli və ictimai maraqlar naminə jurnalist peşəsinin prinsiplərini ardıcıl surətdə yerinə yetirməyə, hadisə və proseslərə münasibətdə obyektivliyə, həssas davranışa, daim ümumvətəndaş mövqeyi prizmasından çıxış etməyə çağırırıq.

Biz bu qənaətdəyik ki, azad sözün nüfuz dairəsinin genişlənməsində, ona ictimai münasibətlərin katalizatoru kimi hörmətlə yanaşılmasında davamlılığı təmin etmək üçün media sahəsindəki neqativ meyillərin və jurnalist adından sui-istifadələrin aradan qalxması son dərəcə vacibdir. Əmin olmaq istərdik ki, həqiqi jurnalistlər, əsil qələm sahibləri, özünü cəmiyyətə informasiya verilməsinə məsul sayan peşəkarlar bu məqama ciddi diqqət yetirəcək, mətbu məkanımızdakı neqativ tendensiyalara qarşı barışmaz mövqe tutacaqlar.

Biz, eyni zamanda, dövlət qurumlarının təmsilçilərini, ayrı-ayrı məmurları, ictimai şəxsləri və vəzifə sahiblərini medianın məlumatlandırma missiyasına hörmətlə yanaşmağa, jurnalistlərin cəmiyyəti obyektiv və operativ informasiyalarla təminatı ilə bağlı məsuliyyətini nəzərə almağa, bununla da azad sözün imkanlarının dövlətimiz və xalqımız naminə daimi səfərbər olmasına dəstək göstərməyə çağırırıq.

Medianın İnkişafı Agentliyi, Mətbuat Şurası və “Azərbaycanda media azadlığı: plüralizm prinsipləri və vətəndaş cəmiyyəti quruculuğuna dəstək” mövzusundakı konfransın iştirakçıları Azərbaycan jurnalistlərini 3 May Ümumdünya Mətbuat Azadlığı Günü münasibəti ilə təbrik edir, onlara yeni yaradıcılıq uğurları arzulayır.

***

Toplantıda çıxış edənlərdən MŞ sədrinin müavini Vüqar Zifəroğlu, Şuranın İdarə Heyətinin üzvləri – Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərli, Jurnalist Ekspert Mərkəzinin sədri Ceyhun Musaoğlu, Bayraqdar Media-nın baş redaktoru Azər Həsrət, “Yeni Çağ” Media Qrupunun rəhbəri Aqil Ələsgər, “Xalq cəbhəsi” qəzetinin baş redaktoru Elçin Mirzəbəyli, həmçinin “Azpost.info” saytının baş redaktoru Xaqani Səfəroğlu, “Avtosfer.az” saytının baş redaktoru Elməddin Muradlı və başqaları Azərbaycan jurnalistikasının beynəlxalq miqyasda söz və ifadə azadlığı ilə bağlı platformalarda iştirakının, jurnalistlərin xarici dil biliklərinin gücləndirilməsinə yönələn işlərin reallaşdırılmasının, ali məktəblərdə jurnalist ixtisası üzrə tədrisin daha da müasirləşdirilməsinin zəruriliyindən söz açıblar. Konfransda ölkəmizdə media sahəsindəki bir sıra problemlərin, o cümlədən, jurnalist peşəkarlığı ilə bağlı məsələlərin geniş müzakirəsi də aparılıb.

# Pakistanlıların Azərbaycan liderinə ehtiramı

**Azərbaycanın Pakistandakı səfirliyi İslamabad şəhərində ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş sərgi və konsert proqramı təşkil edib.**

Tədbirdə Pakistanın müdafiə istehsalı üzrə federal naziri Məhəmməd İsrar Tarin, dövlətlər və sərhəd regionları üzrə federal nazir Məhəmməd Talha Mahmud, Xeybər Paxtunxva Əyalətinin yerli idarəetmə, seçkilər və kənd inkişafı departamenti üzrə naziri Saval Nazir, senatorlar, xarici ölkələrin səfirləri, iş adamları, Pakistan ictimaiyyəti və KİV nümayəndələri iştirak edib.

Sərgidə ulu öndər Heydər Əliyevin zəngin həyat və fəaliyyətinin müxtəlif dövrlərini, habelə Pakistan İslam Respublikasına rəsmi səfərini əks etdirən fotolar nümayiş olunub. Səfir Xəzər Fərhadov müasir Azərbaycanın tarixinin, onun inkişafının ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olduğunu diqqətə çatdırıb, ulu öndərin Azərbaycana rəhbərliyinin birinci dövründən söhbət açıb.

X.Fərhadov Heydər Əliyevin fəaliyyəti nəticəsində iqtisadiyyatda, sənayedə, kənd təsərrüfatında, təhsildə, mədəniyyətdə və digər mühüm sahələrdə böyük uğurların əldə edildiyini vurğulayıb. Məhz o dövrdə ölkəmizin müstəqilliyinin möhkəm təməlinin qoyulduğunu, milli ruh və azərbaycançılıq məfkurəsinin yüksəlməyə başladığını qeyd edib.

X.Fərhadov Azərbaycan-Pakistan münasibətlərindən danışaraq bu əlaqələrin inkişafının təməlinin ulu öndər Heydər Əliyev tərəfindən qoyulduğunu bildirib.

Heydər Əliyevin Pakistana böyük əhəmiyyət verdiyini qeyd edən səfir ümummilli liderin 1996-cı ildə Pakistana rəsmi səfərini xatırladıb və bu səfərin Azərbaycan–Pakistan əlaqələrinin inkişafında xüsusi rol oynadığını diqqətə çatdırıb.

Əsası Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycan–Pakistan münasibətlərinə Prezident İlham Əliyev tərəfindən də xüsusi diqqət yetirildiyini bildirib və bu diqqətin bariz nümunəsi olaraq iki ölkə arasındakı yüksək səviyyəli əməkdaşlıq əlaqələrini qeyd edib.

Tədbir zamanı ümummilli lider Heydər Əliyevin həyatının müxtəlif dövrlərindən, xidməti fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

Daha sonra xanəndə Almaxanım Əhmədli tədbir iştirakçıları qarşısında maraqlı konsert proqramı ilə çıxış edib. Xalq mahnılarımız və muğamlarımızdan ibarət konsertdə xanəndəni tarda Məsim İslamov, kamançada isə Elvin Novruzov müşayiət edib.

**Qulu KƏNGƏRLİ,**

**İslamabad**

# YAP ICAPP-ın tədbirində təmsil olunub

**Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (ICAPP) təşkilatçılığı, Koreya Respublikasının hakim Xalqın Gücü Partiyasının və müxalif "Minjoo" (Demokratik) Partiyasının birgə evsahibliyi ilə aprelin 30-dan mayın 3-dək Koreya Respublikasının Busan şəhərində ICAPP Daimi Komitəsinin 39-cu iclası və İCAPP Biznes Şurasının birinci iclası keçirilib.**




Mayın 1-də təşkilatın hazırkı fəaliyyətinə və gələcək planlarına dair müzakirələrin aparıldığı Daimi Komitənin 39-cu iclasında ICAPP Daimi Komitəsinin sədri Çunq Eu-yonq ötən il noyabrın 22-də Yeni Azərbaycan Partiyasının (YAP) təşəbbüsü və evsahibliyi ilə Bakıda "Təhlükəsizlik və əməkdaşlıq: Siyasi partiyaların rolu" mövzusunda ICAPP-ın xüsusi konfransının uğurlu təşkilinə görə bir daha təşəkkür edib və Azərbaycan Respublikasının Prezidenti, YAP Sədri İlham Əliyev tərəfindən konfrans iştirakçılarına məktubun ünvanlamasını tədbirin əhəmiyyətinə verilən yüksək qiymətin bariz göstəricisi olduğunu vurğulayıb. Tədbirdə çıxış edən YAP Mərkəzi Aparatının əməkdaşları da iştirak ediblər. Onlar çıxışlarında YAP-ın təşəbbüsünə göstərdiyi dəstəyə görə ICAPP rəhbərliyinə və Daimi Komitənin üzvlərinə minnətdarlıq edərək qarşılıqlı səmərəli əməkdaşlığın davam etdirilməsinin əhəmiyyətindən söz açıblar.

Tədbirin sonunda iştirakçılar tərəfindən iqlim dəyişikliyi ilə mübarizənin, habelə təmiz və bərpa olunan enerjidən istifadənin genişləndirilməsinin əhəmiyyətinin vurğulandığı Busan Bəyanatı qəbul edilib.

# Hərbi Prokurorluqda ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə tədbir keçirilib



**Mayın 3-də Hərbi Prokurorluqda müasir Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə tədbir keçirilib.**

Mərasimdə çıxış edən Baş prokurorun müavini – Hərbi prokuror, ədliyyə general-leytenantı Xanlar Vəliyev qəlbi daim Vətən eşqi ilə döyünən müdrik lider Heydər Əliyevin Azərbaycan tarixindəki rolundan, o cümlədən, demokratik, hüquqi dövlət quruculuğundakı misilsiz xidmətlərindən və dünya siyasətinə verdiyi töhfələrdən danışıb.

Hərbi prokuror Xanlar Vəliyev bildirib ki, şərəfli ömür yolunu ölkəmizin tərəqqisinə və millətimizin parlaq gələcəyinə həsr etmiş ümummilli lider dövlətçiliyin ideoloji-siyasi əsaslarını yaradıb, vətəndaş müharibəsinin, eləcə də müstəqilliyimizin itirilməsi təhlükəsinin qarşısı qətiyyətlə alıb, respublikamız siyasi böhrandan xilas edib, sürətli inkişaf yoluna çıxarıb.

# Gəncədə ulu öndərin 100 illiyinə həsr olunmuş beynəlxalq konfrans





**Dünən Gəncədə Heydər Əliyev Mərkəzində Elm və Təhsil Nazirliyi və Azərbaycan Texnologiya Universitetinin birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş "Dördüncü sənaye inqilabı və innovativ texnologiyalar" mövzusunda beynəlxalq elmi-praktik konfrans öz işinə başlayıb.**

Konfransı giriş sözü ilə Azərbaycan Texnologiya Universitetinin rektoru, dosent Yaşar Ömərov açıb. Çıxış edənlər elm və təhsil nazirinin müavini Firudin Qurbanov, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Bakı Dövlət Universitetinin rektoru, professor Elçin Babayev, İdarəetmə Sistemləri İnstitutunun baş direktoru, AMEA-nın həqiqi üzvü, akademik Əli Abbasov, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin department rəhbəri Fatimə Ələkbərova, Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin şöbə müdiri Ayaz Museyibov, Azərbaycan Respublikası Kosmik Agentliyinin departament rəhbəri Natavan Həsənova, xarici ölkələrin ali təhsil müəssisələrinin, elmi-tədqiqat institutlarının, sənaye müəssisələrinin rəhbərləri, beynəlxalq təşkilatların nümayəndələri çıxış edərək konfransın işinə uğurlar arzu ediblər.

Türkiyə, Macarıstan, Polşa, Almaniya, Rumıniya, Gürcüstan, Özbəkistan, Belarusdan, eləcə də İqtisadi Əməkdaşlıq Təşkilatının Elm Fondundan qatılan elm adamlarının çıxışlarından sonra plenar iclasın məruzələri dinlənilib. Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin direktoru Cavid Abdullayev, Azərbaycan Respublikası Kosmik Agentliyinin departament direktoru Natavan Həsənova, Qəbələ Konserv zavodunun direktoru Özgür Demirkıran və Türkiyənin On Doqquz May Universitetinin mərkəz direktoru Sedat Akleylek elmin aktual mövzularından bəhs ediblər.

Konfrans bu gün və sabah 10 istiqamət üzrə bölmələrdə öz işini davam etdirəcək. Bölmələrə xarici universitetlərin elm adamları həmsədrlik edir.

Beynəlxalq elmi-praktik konfransa Malayziya, Macarıstan, Hindistan, Avropa və MDB də daxil olmaqla 16 ölkədən məqalə göndərilib. Konfransın məcmuələr toplusuna ümumilikdə 721 məqalə daxil edilib. Onlardan 220-si xarici elm adamlarının məqalələridir.

**Hamlet QASIMOV,**
**"Xalq qəzeti"nin bölgə müxbiri**

# 3 May Türkçülük Günü – qardaşlıq bayramı

**3 May Türkçülük Günündə Nizami Kino Mərkəzində Azərbaycan Türk Qadınlar Birliyinin təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin və Türkiyə Cümhuriyyətinin 100 illik yubileyləri münasibəti ilə tədbir keçirilib.**




Azəri–Türk Qadınlar Birliyinin sədri Tənzilə Rüstəmxanlı Azərbaycan–Türkiyə qardaşlığından, ulu öndər Heydər Əliyevin bu istiqamətdəki fəaliyyətindən, eyni zamanda, birliyin keçdiyi yol barədə geniş məlumat verərək bildirib ki, əlamətdar tarixlərin, günlərin qovuşduğu bir vaxtda toplaşmaq unudulmaz hadisədir. Bizim tək məqsədimiz millətimiz üçün çalışmaqdır.

Tənzilə Rüstəmxanlı Vətən müharibəsindəki zəfərimizi qeyd edərək bildirib: "Var olsun cənab Ali Baş Komandan. Var olsun Azərbaycanın Müzəffər Ordusu. Var olsun şəhid və qazilərimizin anaları. Biz bu qələbə üçün onlara borcluyuq. Bu gün böyük bir zəfərə imza atmış, Qarabağı Azərbaycan edən bir ordunun mənsub olduğu bir millətin nümayəndəsi kimi çıxış etmək böyük fərəhdir".

Milli Məclis sədrinin müavini Fəzail İbrahimli Azəri–Türk Qadınları Birliyinin bu illər ərzində fəaliyyətindən danışaraq onların fəaliyyətini yüksək dəyərləndirib və Azərbaycan və Türkiyə qardaşlığının möhkəmləndirilməsində bu təşkilatın böyük rolunu qeyd edib.

Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı da, Azərbaycan–Türkiyə qardaşlıq münasibətlərindən söz açıb: – "Azərbaycan–Türkiyə münasibətlərinin bir adı var: qardaşlıq. Bu il həm ulu öndər Heydər Əliyevin, həm də Türkiyə Cümhuriyyətinin yüz illik yubileyidir. Heydər Əliyev bütün dünyada söz sahibi sayılan şəxsiyyət olub. Mən Qazi Mustafa Kamal Atatürkün bir ifadəsini xatırlamaq istəyirəm. Atatürk Naxçıvan üçün "türk qapısı" ifadəsini işlədib. Mən əminəm ki, əlbəttə, o qapı bir gün açılacaq".

Milli Məclisin deputatı, Xalq yazıçısı Sabir Rüstəmxanlı Azərbaycanda Türkçülük Gününün mahiyyətindən və təntənəli qeyd olunmasının əhəmiyyətindən danışıb. Sabir Rüstəmxanlı tarixən türk xalqlarına qarşı həyata keçirilmiş ədalətsizliklərdən söhbət açaraq bildirib ki, bu gün türk adı öz külündən doğulub. Bu gün türkçülük dünyada bir ideologiyaya çevrilir. Türk xalqlarının, türk dövlətlərinin birliyi bu səbəblərdən zərurətdir.

Sonda Azəri–Türk Qadınlar Birliyinin "Türkçülük yolunda" adlı sənədli filmi nümayiş olunub.

**Anar TURAN, "Xalq qəzeti"**



# "Əbədi ömrün yüz ili" kitabının təqdimatı

**Azərbaycan Yazıçılar Birliyinin (AYB) Natəvan klubunda ulu öndər Heydər Əliyevin anadan olmasının yüz illiyinə həsr olunmuş "Əbədi ömrün yüz ili" kitabının təqdimatı olub.**

Kitab AYB-nin təşkilatçılığı, Mədəniyyət Nazirliyinin dəstəyi ilə işıq üzü görüb.

Əvvəlcə nəşrin layihə rəhbəri, tərtibçi və "Ön söz" müəllifi AYB-nin katibi, Əməkdar incəsənət xadimi Elçin Hüseynbəyli kitab haqqında məlumat verib.

Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar çıxış edərək ulu öndər Heydər Əliyevi yaxından tanımaq və onun ölkəmiz qarşısındakı misilsiz xidmətlərini daha dərindən anlamaq baxımından kitabın çapını yüksək qiymətləndirib.

Xalq yazıçısı Elçin ümummilli lider Heydər Əliyevin əziz xatirəsinə böyük ehtiramını bildirərək, kitabın əhəmiyyətindən danışıb.

Xalq şairi Nəriman Həsənzadə bu kitabın hazırlanmasının gözəl bir hadisə olduğunu dilə gətirərək, bu təşəbbüsün kitab həvəskarları, oxucular üçün böyük hədiyyə olduğunu vurğulayıb.

Tədbirdə Xalq yazıçıları Çingiz Abdullayev, Elmira Axundova, Mədəniyyət Nazirliyinin şöbə müdiri Akif Marifli, Milli Məclisin deputatı Jalə Əliyeva və digər natiqlər ümummilli lider Heydər Əliyevin Azərbaycanı dövləti qarşısındakı böyük xidmətlərindən danışıb və yeni çap olunan kitab haqqında fikirlərini bölüşüblər.

# Heydər Əliyev və Azərbaycan kinematoqrafiyası

**Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının təşkilatçılığı ilə Nizami Kino Mərkəzində Heydər Əliyevin 100 illiyi münasibətilə yubiley mərasimi keçirilib.**





Toplantıda Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının İdarə Heyətinin üzvləri, tanınmış kino xadimləri, aktyor və rejissorlar iştirak ediblər.

Mərasimi giriş sözü ilə açan Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının İcraçı katibi, Əməkdar incəsənət xadimi Cəmil Quliyev ulu öndərin Azərbaycan kinosuna diqqət və qayğısı barədə söz açıb.

Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının sədri, Xalq artisti Şəfiqə Məmmədova Heydər Əliyevlə bağlı xatirələrini bölüşüb: "Onunla ilk görüşüm 1970-ci ilin mart ayına təsadüf edir. Həmin il martın 6-da paytaxtın teatr həyatında görünməmiş bir ilkə imza atıldı. "Xəyyam"ın premyerası yüksək peşəkarlıqla tamaşaçılara təqdim olundu. Bizim üçün ən əlamətdar hadisə isə növbəti tamaşaların birində Azərbaycan rəhbəri Heydər Əliyevin həyat yoldaşı Zərifə xanımla yeniyetmə oğlu İlhamla birlikdə teatra gəlməsi oldu. Heydər Əlirza oğlu tamaşadan sonra Turan xanımı, məni və Həsən Turabovu səhnə arxasına söhbətə dəvət elədi, tamaşanın uğurlu keçdiyini bildirdi. Mən həmin görüşdən aldığım təəssüratı, yəqin ki, heç zaman unutmaram".

Sonra Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının katibləri Xalq artisti Oqtay Mirqasımov, Əməkdar İncəsənət xadimləri Ayaz Salayev və Aydın Kazımzadə ulu öndərlə bağlı xatirələrini bölüşüblər.

Sonda çıxış edən Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının katibi, Xalq artisti Vaqif Mustafayev Heydər Əliyevə həsr olunmuş filmlərindən, onunla çəkiliş zamanı olan xatirələrindən danışıb. Mərasim kinorejissorun yüksək ustalıqla lentə aldığı ulu öndərə həsr olunmuş "Ata yolu" filmi ilə başa çatıb.

**Anar ƏLİYEV,**
**"Xalq qəzeti"**

# Azərbaycan kürüsü Avropa bazarına ixrac olunacaq

**Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi İnformasiya təminatı və innovativ həllər şöbəsindən verilən məlumata görə, agentlik tərəfindən 2022-ci il ərzində balıqyetişdirmə müəssisələrindən (akvakulturadan) əldə olunan kürü məhsullarına dair Monitorinq Planı hazırlanıb və uğurla icra edilib.**

Monitorinqin nəticələri Avropa Komissiyasının Səhiyyə və Qida Təhlükəsizliyi üzrə Direktorluğu tərəfindən təhlil olunduqdan sonra Azərbaycan Respublikasının adı "Avropa Parlamentinin və Şurasının 2017/625 saylı Qaydasına uyğun olaraq, insan istehlakı üçün nəzərdə tutulmuş heyvan mənşəli məhsulları Avropa İttifaqına daxil olmasına icazə verilmiş üçüncü tərəf ölkələrin və ya onların regionlarının siyahıları"nın 2021-ci il 24 mart tarixli 405 nömrəli qaydasının müvafiq əlavəsinə daxil edilib. Bununla da Azərbaycanda Avropa İttifaqının tələblərinə uyğun fəaliyyət göstərən qida obyektlərində istehsal olunan kürü məhsullarını Avropa İttifaqı ölkələrinə ixrac etmək üçün imkan yaranıb.

**"Xalq qəzeti"**

# Türkiyənin tərəqqisi Türk dünyasının tarixi uğurudur




**Türkiyə 20 il əvvəl daha çox aqrar və xidmət sektorları üzrə ixtisaslaşmışdırsa, indi müasir sənaye dövlətinə çevrilməkdədir. Hazırda bu dövlət hərbi, avtomobil sənayesində xüsusi üstünlüyə malik ölkə kimi diqqət çəkir.**

Azərbaycan Prezidenti İlham Əliyev bu il martın 16-da Ankarada keçirilən Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Fövqəladə Zirvə görüşündəki çıxışında Türkiyənin son 20 ildə böyük və şərəfli yol keçdiyini, qardaş ölkənin dünyada söz sahibi olduğunu, güc mərkəzinə çevrildiyini, dünyada Türkiyə ilə hesablaşıldığını və ona hörmət edildiyini bildirib. Dövlətimizin başçısı daha sonra deyib: “Türkiyənin hərbi gücünü, müdafiə sənayesi sahəsində böyük uğurlarını indi dünyada hər kəs görür. Bu illər ərzində Türkiyədə davamlı sabitliyin təmin olunması, ölkənin inkişafı bütün türk dünyası üçün önəmli şərtdir”.

Həqiqətən də Türkiyə bu gün həm də müdafiə sənayesinin inkişafı ilə diqqət çəkir. Məsələn, qardaş ölkənin hazırda səsdən sürətli raketi hava, quru və dəniz platformaları ilə inteqrasiya edir. Xatırladaq ki, bu silahların analoqsuz xarakterə malik yerli istehsal olması və Türkiyənin silah idxal etmək asılılığını aradan qaldırması baxımından mühüm önəm daşıyır. Onu da deyək ki, havadan zərbələr kateqoriyasında Türkiyənin “Bayraktar”, “Aksunqur”, “Akıncı” və “Kızılelma” da daxil olmaqla pilotsuz döyüş aparatları beynəlxalq hərbin fırlanma oxuna təsir edir.

Beləliklə, Türkiyədəki ballistik raketlər, hədəfi dəqiq vuran “ağıllı” sursatlar, hava hücumundan müdafiə sistemləri, tanklar, hava-yer tipli səsdən sürətli raketlər, döyüş gəmiləri və s. beynəlxalq gücləri qardaş ölkə ilə məsafəli davranışa məcbur edir. Ümumiyyətlə, Türkiyənin “Baykar”, “ASELSAN”, “ROKETSAN”, “HAVELSAN” kimi müdafiə sənayesi şirkətlərinin istehsal etdikləri hərbi məhsulların siyahısına əlavələr etməsi Azərbaycan üçün də zəruridir.

Qeyd edək ki, xarici ticarət potensialı 500 milyard dollara çatan Türkiyə müdafiə sənayesi üzrə öz tələbatını qarşılamaqdan başqa, “İHA”, “SİHA”, “Akıncı”, quru vasitələri, dəniz platformaları başda olmaqla, 170 ölkəyə müdafiə sənayesi məhsulları ixrac edən bir ölkə səviyyəsinə yüksəlib, sənaye və texnologiya istiqamətində qurulan 152 yeni sənaye zonası, 29 sənaye zonası və 94 texnoparkla istehsal gücünü artırıb.

Türkiyənin hərbi gücü barədə son vaxtlar beynəlxalq mediada da bir sıra yazılar verilməkdədir. Belə ki, dünyanın bir çox ölkəsinə ixrac edilən və müharibənin gedişatını dəyişməyə qadir olan qardaş ölkənin pilotsuz uçuş aparatları bu dəfə ABŞ mətbuatının gündəmindədir. Türkiyə müdafiə sənayesinin qabaqcıl şirkətlərindən biri olan “Baykar”ın istehsal etdiyi pilotsuz təyyarələrə diqqət çəkən “Forbes” jurnalı maraq doğuran təhlili yazı dərc edib. Həmin materialda Türkiyə–Misir arasında problemlər həll olunmağa başlayan kimi, bu ölkənin “Bayraktar TB2” pilotsuz uçuş aparatı ala biləcəyindən bəhs olunub.

“Forbes” daha sonra Türkiyənin dron sənayesinə diqqət çəkib: “Türkiyə pilotsuz uçuş aparatları sənayesi və dünyanın onlarla ölkəsinin tələb etdiyi “Bayraktar TB2” pilotsuz uçuş aparatı sayəsində yüksəlişdədir”. Təhlildə qeyd olunub ki, Türkiyənin Misirə “Bayraktar TB2” pilotsuz uçuş aparatı satması üçün heç bir maneə yoxdur. Çünki hər iki ölkə bir neçə regional rəqibin izinə düşərək yaxın gələcəkdə münasibətləri düzəldə biləcəkləri üçün bu fikirdə həmrəydir.

Xatırladaq ki, “Bayraktar TB2” kəşfiyyat missiyaları üçün orta hündürlükdə uzun müddət havada qala bilən taktik silahlı pilotsuz uçuş aparatıdır. O, tam avtonom uçuş, eniş və müşahidə imkanlarına malikdir. “Bayraktar TB2”nin uğuru dünyanın bir çox böhran bölgələrində ön plana çıxıb və bir çox ölkə Türkiyə PUA-larını əldə etmək üçün növbəyə yazılıb.

Türkiyənin hərbi sənaye sahəsində əldə etdiyi uğurlardan danışarkən bir məqamı da xatırlatmaq istərdik. Belə ki, qardaş ölkənin hərbi-müdafiə gücü Azərbaycanın da qüdrətlənməsini, təhlükəsizliyini şərtləndirir. Bu amil “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında” imzalanan Şuşa Bəyannaməsində də öz aydın ifadəsini tapır. Bəyannamə əsasən, Cənubi Qafqazı sülh regionuna çevirmək məqsədi daşıyır. Belə bir tarixi əhəmiyyət daşıyan sənəddə bir sıra məsələlərlə yanaşı, iki qardaş ölkənin silahlı qüvvələrinin birlikdə fəaliyyət qabiliyyətinin artırılması, müasir texnologiyalara əsaslanan silah və sursatların idarə olunması istiqamətində sıx əməkdaşlığı da nəzərdə tutulur. Eyni zamanda, bəyannamədə bu məqsədlə səlahiyyətli struktur və qurumların qarşılıqlı əlaqəli fəaliyyətinin təmin edilməsi vurğulanır.

Ümumiyyətlə, “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi”ndə Azərbaycan və Türkiyə arasındakı ikitərəfli münasibətlərin daha da genişləndirilməsi perspektivləri diqqət mərkəzində saxlanılaraq, bir sıra sahələrdə, o cümlədən müdafiə sektorunda imkan və potensiallarının birləşdirilməsi, dərinləşdirilməsi xüsusi yer tutur. Eyni zamanda, bu sırada müştərək maraq daşıyan regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərin qarşılıqlı şəkildə əlaqələndirilməsi də prioritet vəzifələrdən biridir.

**V.BİNYƏTOĞLU,**
**“Xalq qəzeti”**

# Bizim qızımız – Fulya




**Biz türklər tarix boyu qadınlarımızı Vətənimiz qədər çox sevmişik. Çünki yaranışdan üstündə gəzdiyimiz torpağa ANA torpaq, ANA Vətən demişik. Döyüşçü, qılınc qurşanıb at minən hökmdar, sərkərdə qadınlarımız, qızlarımız olsa belə, nədənsə, qolumuzda qüvvət, ürəyimizdə təpər olduqca, düşmən çəpəri olan oğullarla döyüşüb qadınlarımızı müharibə meydanından uzaq saxlamağa çalışmışıq...**

Bu, Azərbaycan tarixindəki son davamızda da belə oldu. Birinci Qarabağ savaşında qadınlar batalyonunun yaradılmasına etiraz etdik. Amma o qəhrəman əsgər anaları, şəhid bacıları dediklərini etdilər. O savaşda neçə döyüşçüyə dayaq olan, neçə yaralı əsgəri həyata qaytaran qadınlarımız, döyüş meydanında böyük cəsarətlə, qeyrətlə savaşan qızlarımız da oldu... Zamanında bu məsələdə mənim fərqli yanaşmam var idi. Hələ Azərbaycan Dövlət Televiziyasında çalışarkən cəbhədə tez-tez olan jurnalist kimi qızlarımızın da ora getməsini təklif edərdim. Fəqət, hər dəfə də hamı bu təklifə “Bir qadının, qızın cəbhədə nə işi var?!” – deyə ağız büzərdi...

Sonralar Müdafiə Nazirliyinin Sənədli Filmlər Kino-telestudiyasında xidmətdə olarkən yenə də rəhbərliyə bir qadın jurnalistə ehtiyac olduğunu dedim. Fikrimi də “Cəbhədəki əsgərlərin xidmətinə bir ana, bacı yanaşması olarsa, verilişlər daha səmimi, sözümüz daha tutarlı olar”, – deyə əsaslandırırdım. O məqamlarda vaxtı ilə AzTV-də “Xoş gördük” səhər proqramında bir yerdə çalışdığım Ağanisə Sultanova mənə Müdafiə Nazirliyində yeni yaratdığımız hərbi studiyada çalışmaq istəyini bildirmişdi. Ağanisə xanım gəldi, rəhbərliyə təqdim etdim, razılıq alındı, amma Baş Qərargahdan “Bu qədər kişi ola-ola qız müxbirə nə ehtiyac var!” – deyə bu işə etiraz gəldi. Yeri gəlmişkən, Ağanisə xanım sonra indi mənim də çalışdığım “Xalq qəzeti”ndə müxbir kimi çox məhsuldar fəaliyyət sərgilədi. Və məncə, qadınlarımızı, qızlarımızı döyüşlərdən, savaşdan uzaq tutmağa çalışarkən ən əsası, “Hər türk qadını bir qəhrəman doğar” misalını unutduq. Qəhrəman dünyaya gətirən qadın özü də bir qəhrəmandır!.. Şair Mehmet Emin Yurdakul qadınların həyatımızdakı, mübarizəmizdəki ruhverici gücü haqda gözəl yazıb:

***“Sənin səsin hayat üçün döyüşməyə səsləyər,***
***Sənin sevgin Vətən üçün fədakarlıq öyrədər,***
***Sənin üzün insan üçün bir mərhəmət duyurar;***
***Sənin ilə insanoğlu yer üzünü fəth edər.”***

Bu misalları bizə illərlə sonra, İkinci Qarabağ savaşında qəhrəman jurnalist, ən qaynar nöqtələrdə, mərmilərin, bombaların yağış kimi yağdığı bölgələrdən xəbər verən türk qızı Fulya Öztürk daha gözəl isbatladı. Cəbhənin od-alovu içindən anbaan xəbər çatdıran Fulya həm də arxada QƏLƏBƏ xəbəri gözləyən xalqımıza, raket, mərmi yağışı altında qalan vətəndaşlarımıza, addım-addım irəliləyən döyüşçülərimizə arxa-dayaq oldu. Fulya “Bir qız müxbir cəbhədə nə edə bilər ki?!” tərəddüdümüzü alt-üst elədi. Onu İkinci Qarabağ savaşında izlədikcə kaş ki, “Birinci Qarabağ savaşında da bizimlə çiyin-çiyinə informasiya cəbhəsində “döyüşəydi” – deyə düşünürdüm.

Fulya cəsarəti, insansevərliyi, həqiqətin yanında mərd duruşu ilə müharibə adlı qorxulu bir kabusa meydan oxudu. Vətənimizin ağır günlərində Azərbaycanı doğma Vətəni kimi sevərək ağır yükümüzün altına çiynini verib cəbhəyanı ərazilərimizdəki soydaşlarına, doğma torpağında işğala, hücuma məruz qalan insanlara arxa, dayaq oldu, xəbər gözləyən əsgər doğmalarını cəbhədən xəbərsiz qoymadı. Üzbəüz görüşməsək də, Vətən müharibəmizdən verdiyi xəbərlər əsnasında tanımaq istədim onu. Doğum tarixinə baxanda Azərbaycanın çətin, təkləndiyimiz günləri yadıma düşdü. Ölkəmizin müstəqillik uğrunda mübarizə apardığı ildə doğulub Fulya – 1989-cu ildə. Kim bilərdi ki, Azərbaycanın elan olunmamış bir müharibəyə, cəlb olunduğu, işğala məruz qaldığı bir vaxtda doğulan Fulya illərlə sonra o yerlərin azad olunmasının xəbərini verəcək, neçə əsgər anasını sevindirəcək, yurdundan didərgin düşənlərə o yerlərin işğaldan azad olunma xəbərini Ali Baş Komandanla, az qala, səs-səsə verib çatdıracaq.

Yeri gəlmişkən, yaxın günlərdə Türkiyədə səfərdə olan Prezidentimiz İlham Əliyevin Fulyanın müsahibəsi əsnasında qardaş ökənin Cumhurbaşqanı R.T.Ərdoğanla bir yerdə qəhrəman həmkarımızın fədakarlığını dəyərləndirmələri də çox təsirli anlar oldu. O dialoqda iki dövlət rəhbərinin verdiyi dəyər bir jurnalist üçün ən böyük mükafat idi...

**Prezident Rəcəb Tayyib Ərdoğan:** Bu qızı tanıyırsan?

**Prezident İlham Əliyev:** Təbii ki, tanıyırıq. Bu, bizim qızdır. İkinci Qarabağ savaşında ən təhlükəli yerlərə gedən jurnalistdir. Bizimlə kədərləndi, bizimlə sevindi, Qələbəni də bizimlə qeyd etdi. Bu qız bizim qızımızdır...

Bir jurnalistin iki böyük ölkənin rəhbərindən bu cür alqış almasına, düzü, bir az da həsədlə baxdım. Fulya bizim ondan öncə keçdiyimiz yolda daha önə keçdi. O bu alqışı, tərifi jurnalist, telereportyor bacarığından çox cəsarəti, insansevərliyi, milli təəssübkeşliyi ilə qazandı. Zaman-zaman bəzi həmkarlarımla mübahisə mövzusuna çevrilən məsələ – bir jurnalistin tərəfsiz, soyuqqanlı, yalnız xəbər çatdırmaq xatirinə fəaliyyətindənsə, Fulya kimi Vətən, millət sevgisi ilə davranmaq daha dəyərli və təqdirəlayiq imiş.

Fulya qandaşlarına, soydaşlarına, qardaş ölkəyə çətin anda elə bu ifadənin hər iki mənasında “göz-qulaq” oldu. Gözü kor olan dünyanın qulağına Azərbaycan həqiqətlərini uca səslə çatdırmağa çalışdı. Var olasan, fədakar həmkarım, müharibə jurnalistikasının şəfqət bacısı! İnşallah Türk dünyasının daha böyük uğur və qələbələrinin də carçısı olarsan!

**Rahib QƏRİB,**
**“Xalq qəzeti”**

**Dünən qabaqcadan elan edilməyən səfərlə Ukrayna Prezidenti Volodimir Zelenski Finlandiyanı ziyarət edib. Paytaxt Helsinkidə ali qonağı Finlandiyanın dövlət başçısı Sauli Niinistö qarşılayıb. Liderlər geniş müzakirələr aparıblar. Bu barədə UNİAN agentliyi məlumat yayıb.**

# Ukrayna Prezidenti Finlandiyaya səfər edib



Dövlət başçıları bir çox aktual ikitərəfli və regional məsələləri müzakirə ediblər. Finlandiya dövlətinin başçısı özünün “Tvitter” səhifəsində belə yazıb: “Biz Ukraynanın müdafiəsi, Finlandiyanın Ukraynaya dəstəyi və qlobal geosiyasi vəziyyətlə bağlı yaxşı və hərtərəfli müzakirə apardıq”.

Xatırladaq ki, bir müddət əvvəl Finlandiya NATO üzvlüyünə qəbul olunub. Bununla da alyans üzvlərinin sayı 31-ə çatıb.

Bu arada bir çox NATO dövlətlərnin hərbi kontingentlərinin Polşa ərazisində yeni hərbi təlimlərə başladıqları barədə məlumatlar yayılıb. Bu barədə Polşa Silahlı Qüvvələrinin Əməliyyat Komandanlığı xəbər verib.

Bildirilib ki, hərbi hazırlıqlar mayın 26-dək davam edəcək. Manevrlərdə Polşa ordusunun 12 min hərbçisi iştirak edir. Bundan başqa, NATO ölkələrindən olan yüzlərlə hərbçi də təlimlərə qatılıb. Məlumata görə, təlimlərdə Polşa ilə yanaşı ABŞ, Rumıniya, Sloveniya, İsveç, Fransa, Litva, Latviya, Estoniya və Türkiyə iştirak edir.

Ukrayna ilə bağlı əsas sensasiyalı xəbər isə ondan ibarətdir ki, dünən Ukrayna tərəfindən PUA-larla Kremlə hücuma cəhd olunub. Bu barədə Rusiya Prezidentinin Mətbuat Xidmətindən bildirilib. Qeyd olunub ki, Rusiya Silahlı Qüvvələri PUA-lardan 2-ni məhv edib, itki yoxdur.

Kremldən verilən məlumata görə, bu, 9 May - Qələbə Günü ərəfəsində terror aktı və Rusiya Prezidentinə sui-qəsd cəhdidir: “Rusiya adekvat cavab vermək hüququna malikdir”.

Ukraynadan qlobal mediada yayımlanan digər bir xəbər də maraqlıdır. Belə ki, Ukraynada Kiyevin müdafiəsi ilə bağlı kəşfiyyat məlumatlarını düşmənə ötürən, sonra isə Ukrayna Silahlı Qüvvələrinin bölmələrinin sıralarına qoşulan Rusiya agentinin saxlanıldığı məlum olub”.

Ukrayna Təhlükəsizlik Xidmətinin bəyanatında deyilir ki, paytaxt sakini olan həmin şəxs genişmiqyaslı hücumun ilk vaxtlarında şəhərdə müdafiə qüvvələrinin yerləri barədə düşmən üçün məlumat toplayıb.

“Sonradan o, məsuliyyətdən yayınmağa çalışaraq, Ukrayna Silahlı Qüvvələrinin Avdeyevka istiqamətində döyüşən bölmələrindən birinin sıralarına səfərbər olunub”, - deyə bəyanatda bildirilir.

**P.S.** Prezident Volodimir Zelenski Ukrayna PUA-larının Kremlə hücumu ilə bağlı sualı cavablandırarkən bildirib ki, onun ölkəsinin nə Moskvanı, nə də Prezident Putini hədəfə almaq niyyəti yoxdur.

O bilirib ki, onların məqsədi öz ərazilərini, doğma Ukraynanın kəndlərini və şəhərlərini Rusiyanın hücumundan qorumaqdır. Hətta bunun üçün belə onların kifayət qədər silahı yoxdur.

**M.ABDULLAYEV, “Xalq qəzeti”**

# Fransız Polineziyası müstəqilliyə qovușmaq niyyətindədir

**Rəsmi Paris üçün yeni başağırısı yarana bilər. Belə ki, iki gün əvvəl Fransa Polineziyasında keçirilən ərazi seçkilərində müstəqillik tərəfdarları qalib gəliblər. Məlumatı “BBC agentliyi yayıb.**



Xəbərdə qeyd olunur ki, Parisdən 15 min kilometr uzaqda, Sakit Okeanın cənub hissəsində yerləşən Polineziyada yaxın gələcəkdə ictimai-siyasi hadisələrin kəskinləşəcəyi gözlənilir. Belə ki, burada 10 ildən sonra yenidən separatçılar hakimiyyətə qayıdırlar.

Müstəqillik tərəfdarı olan Tavini partiyası ərazi seçkilərində 44,3 faiz səs toplayaraq qalib gəlib. Bununla da, Fransa və Polineziyanın paytaxtı Papite (Papeete) arasında münasibətlərin yeni çətin səhifəsi açılır.

Polineziyanın öz müqəddəratını təyinetmə məsələsi yenidən gündəmə gəlib. Seçkilərin nəticələri açıqlanan kimi Tavini müstəqillik siyahısının lideri Oskar Temaru Fransa ilə əlaqələri kəsmək istəyini bir daha dilə gətirib.

Məlumatda sonra bildirilir ki, Tavini partiyasının tərəfdarları arasında iki cərəyan mövcuddur. Parisdən azad olmağa tələsən ənənəçilər və 1966-1996-cı illərdə Polineziyada keçirilmiş 198 nüvə sınağını bağışlamayan köhnə qvardiyaçılar. İkincilər suveren olmaq üçün bir az daha çox vaxta ehtiyac olduğunu söyləyirlər.

İkinci cərəyanın aparıcısı, Fransız Polineziyasının prezidentliyini təhvil alacaq Moetai Brodersan isə yerli TNTV telekanalına müsahibəsində deyib ki, tezliklə müstəqil olmaq fikrində deyillər, dövlətlə işləməkdə problemi yoxdur və bu, yaxın gələcəkdə də dəyişməyəcək.

Separatçıların mötədil qanadının lideri onu da bildirib ki, öz müqəddəratını təyin etmək üçün referendumun təşkili 10-15 il çəkəcək. Məhz buna görə də o, səlahiyyət müddəti ərzində buna nail ola bilməyəcək.

Siyasi təhlilçilərin fikrincə, Moetai Brodersa Parislə münasibətləri sakitləşdirmək niyyətindədir və Fransa ilə mütərəqqi müstəmləkəsizləşdirmə prosesini müzakirə etmək üçün BMT-yə güvənməyə üstünlük verir. 1946-1947-ci illərdə ilk qeydiyyatdan sonra Fransız Polineziyası 2013-cü ildə BMT-nin müstəmləkəsizləşdiriləcək qeyri-muxtar ərazilər siyahısına reinteqrasiya edilib və bu siyahıda 1986-cı ildən qonşu Yeni Kaledoniya da yer alıb.

Xatırladaq ki, BMT-nin müvafiq qətnaməsində "Fransız Polineziyası əhalisinin öz müqəddəratını təyin etmək və müstəqillik hüququ" təsdiqlənib. Fransa hökumətindən bu ərazidə "öz müqəddəratını təyinetmə prosesinin ədalətli və səmərəli qurulmasını asanlaşdırmaq və sürətləndirmək", eləcə də Polineziya əhalisinin müstəqilliyə qərar verə biləcəyi referenduma və ya öz müqəddəratını təyinetmənin ara statusuna yol açmaq tələb olunub.

Fransanın daxili işlər naziri Jerald Darmanən özünün “Twitter” hesabı vasitəsilə "Polineziyalılar dəyişikliyə səs verdilər. Hökumət bu demokratik seçimi nəzərə alır" deyib. Politoloq Benjamin Morel isə Yeni Kaledoniya ilə bağlı kifayət qədər ciddi məsələdən sonra Polineziyada separatçıların hakimiyyətə qayıdışının Paris üçün yaxşı xəbər olmadığını qeyd edib. Hökumətin istər-istəməz qarşıdurmaya girdiyini deyib.

Bu arada Çin Polineziya ilə əlaqələrini gücləndirir. Təsadüfi deyil ki, 2021-ci ilin yayında Polineziyaya dörd günlük səfəri zamanı prezident Emmanuel Makron doğma əraziləri tərk etmək istəyən icmalara xəbərdarlıq edərək, Pekinə eyhamla hegemon güclərin iqtisadi resurslar axtarışı ilə bu əraziyə gələcəyi ilə bağlı xəbərdarlıq edib.

Fransanın daxili işləri naziri Jerald Darmanən Parisdə təşkil edilən dəniz-aşırı ərazilərlə bağlı konfrans zamanı oxşar fikri səsləndirərək deyib: "Fransa getsə, kim gələcək? Özünü idarə edə bilməsən, kim gələcək? Çin!".

Məlumat üçün bildirək ki, Polineziya yoxsul ölkə sayılır. 2022-ci ilin martında Fransız Polineziyasında Statistika İnstitutunun apardığı araşdırmaya görə, polineziyalıların 26 faizi yoxsulluq həddinin altında yaşayır. Yaşayış bahalığına qarşı mübarizə kampaniyası aparan separatçılar həm də yerli məşğulluğu qorumaq, kənd təsərrüfatı və sənətkarlığa kömək etmək istədiklərini bildirirlər. Onlar, həmçinin, ilk növbədə, arxipelaqın əsas iqtisadi mühərriki olan turizmi təşviq etmək niyyətlərini dilə gətirirlər.

**M.HACIXANLI,**
**“Xalq qəzeti”**

# Lənkəranın ən “qocaman” məktəbi

**Yeni il ərəfəsində Lənkəranın Boladi kəndində 102 yaşlı Şananə Mahmudovanın qonağı olmuşdum. İndi də yaşı 100 olan 1 nömrəli tam orta məktəbdə keçirilən yubiley tədbirinin sorağını aldım.**




Məni bu barədə həmin məktəbin yetirməsi, Sumqayıtı özünə ünvan seçmiş kimyaçı-mühəndis, şair, Prezident mükafatçısı Süleyman Hüseynov məlumatlandırdı. 1966-cı ildə doğma kənddə məktəbi əla qiymətlərlə bitirib. Neçə-neçə şeir kitabının, povest və romanların müəllifidir. Hər zaman doğma kəndi və məktəbi barədə fəxrlə danışır. Elə Süleyman müəllimin yubiley tədbirindəki çıxışı da başdan-başa sevgi və minnətdarlıq duyğularına bələnmişdi. Digər çıxışlarda da gözəl ənənələri, böyük uğurları olan məktəblə bağlı özəl fikirlər səsləndi.

Bu məktəb şəhid Nahir Axundovun adını daşıyır. Məzunları arasında görkəmli alimlər, şairlər, ali rütbəli zabitlər, həmçinin daim ehtiramla yad olunan 13 şəhid var.

Təhsil ocağının uğurları davam edir. Məktəbin şagirdləri Elm Tədris Akademiyasının keçirdiyi “Zəfər yarışı” sınaq imtahanında uğur qazanıblar. Bir sıra olimpiadalarda bu təhsil ocağının təmsilçiləri fərqləniblər. SAF 2022-də “İnnovative exhibition” kateqoriyası üzrə məktəbin "Boladi" komandası mükafat qazanıb. Bu ay ulu öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Astarada keçiriləcək regional təhsil festivalına ciddi hazırlıq gedir.




Tədbirdə şəhidlərin ailə üzvləri, qazilər, müharibə iştirakçıları, Elm və Təhsil Nazirliyinin nümayəndəsi, həmçinin məktəbin məzunu olmuş Mirbaba Babayev, Lənkəran-Astara Regional Təhsil İdarəsinin nümayəndələri, məktəbin məzunları və digər qonaqlar iştirak ediblər. Elm və təhsil naziri Emin Əmrullayevin məktəbin yubileyi münasibətilə təbrik məktubu oxunub, pedaqoji kollektivin üzvlərinə təşəkkürnamə və hədiyyələr təqdim olunub. Məktəbin yubileyi ilə əlaqədar nazirlik tərəfindən məktəbə STEAM avadanlıqları hədiyyə edilib.

Çıxışçılar unudulmaz xatirələri dilə gətiriblər. Kanadanın Vaterloo Universitetindən professor İlham Axundovun məktəbin yubiley tədbirinə onlayn təbriki maraqla qarşılanıb. Şagirdlər vətənpərvərlik, təhsil və məktəb həyatından bəhs edən şeirlər, mahnılar səsləndirib, ədəbi-bədii kompozisiyalar nümayiş etdiriblər.

***Əli NƏCƏFXANLI, “Xalq qəzeti”***

# Tarixçi-alimimiz beynəlxalq mükafata layiq görülüb

**AMEA-nın həqiqi üzvü, Əməkdar elm xadimi, Dövlət Mükafatı laureatı Yaqub Mahmudov Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının (TDABEA) Mükafat Komitəsinin 2023-cü il 3 fevral tarixli qərarı ilə “İstiqlal” ordeninə və “Türk dünyasında ilin adamı” beynəlxalq mükafatına layiq görülüb.**



“Xalq qəzeti” xəbər verir ki, bu barədə “Azərbaycan Tarixçiləri” İctimai Birliyindən məlumat verilib. Məlumata görə, tarixçimizə “İstiqlal” ordeni Türk dünyasının elm və təhsil sahəsindəki böyük xidmətlərinə görə, “Türk dünyasında ilin adamı” beynəlxalq mükafatı isə 2022-ci ildəki uğurlarına görə verilib. Xəbəri təsdiq edən akademik onun elmi fəaliyyətini yüksək dəyərləndirən qurumun rəhbərliyinə təşəkkürünü bildirib. Qocaman alim qeyd edib ki, Azərbaycan tarix elmi üçün xidmətlərinin nəzərə alınması uzun illər ərzində gərgin fəaliyyətinə verilən qiymətdir və bir elm adamı kimi ona göstərilən böyük ehtiramdır.

Xatırladaq ki, Yaqub Mahmudov bundan əvvəl TDABEA-nın həqiqi üzvü seçilib və akademiyanın “Beynəlxalq Qızıl Ulduz” medalı, Beynəlxalq Atatürk Mükafatı və 2019-cu il üçün “Türk dünyasında ilin elm adamı” beynəlxalq mükafatı ilə təltif edilib.

**Anar TURAN, “Xalq qəzeti”**


## “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti

balansındakı “Balakən” və “Bərdə” bərə gəmilərinin “MAN D2876LE301” köməkçi mühərriklərinin ehtiyat hissələrinin satın alınması məqsədilə

## MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2023-cü il mayın 15-i Bakı vaxtı ilə saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Ünvan – Bakı, Mikayıl Useynov küçəsi 2.

Əlaqə telefonu - (012) 404-37-00, daxili: 1071.



## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi

məktəbəqədər təhsil müəssisələrinə “digər malların alınması” xərc maddəsi üzrə malların satın alınması məqsədilə

## TENDER ELAN EDİR

Tenderdə iştirak etmək istəyənlər 1100 (bir min bir yüz) manat məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Y.Bakuvi küçəsi 18 nömrəli ünvandan (əlaqələndirici şəxs-İlham Şixbabayevdən, tel - (+99412) 465 73 48) ala bilərlər.

Təşkilat - Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi

Bankın adı - “Azərbaycan Beynəlxalq Bankı” ASC-nin Sənaye filialı

Kod - 805603
VÖEN - 9900001881
M/h - AZ03NABZ01350100000000002944
S.W.I.F.T. İBAZAZ 2X
H/h - AZ88IBAZ38030019441856517211
VÖEN - 1500016711

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün yazılı müraciət;
- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- qeydiyyatdan keçdiyi ölkə (təqdim olunması məcburidir. Dövlət reyestrindən çıxarış və VÖEN notarial qaydada təsdiq olunub PDF formatında əlavə edilməlidir.);
- nizamnamə (təqdim olunması məcburidir. Notarial qaydada təsdiq olunuş sənəd PDF formatında əlavə edilməlidir.);
- rekvizitlər (təqdim olunması məcburidir. Müvafiq sənəd PDF formatında əlavə edilməlidir.);
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (təqdim olunması məcburidir. Təsdiq olunmuş son arayışı təqdim etməlidir. Bir ildən az müddətdə fəaliyyət göstərirsə həmin dövrü əhatə edən maliyyə hesabatının surəti təqdim edilməlidir. Notarial qaydada təsdiq olunmuş sənəd PDF formatında əlavə edilməlidir.);
- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (təqdim olunması məcburidir. Bir ildən az müddətdə fəaliyyət göstərirsə həmin dövrü əhatə edən bank arayışı təqdim edilməlidir. 2023-cü il mayın 1-dən sonra alınmış arayış PDF formatında əlavə edilməlidir.);
- iddiaçının 2022-ci ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (təqdim olunması məcburidir. Təsdiqedici sənəd PDF formatında əlavə edilməlidir.);
- iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı təqdim edilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir. Təsdiqedici sənəd PDF formatında əlavə edilməlidir.);
- vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış (təqdim olunması məcburidir. Uçotda olduğu vergi orqanından alınmalıdır. Notarial təsdiq edilməsi mütləqdir. 2023-cü il mayın 1-dən sonra alınmış arayış qəbul ediləcəkdir.);
- son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (təqdim olunması məcburidir. Uçotda olduğu vergi orqanından alınmalıdır. Notarial təsdiq edilməsi mütləqdir. 2023-cü il mayın 1-dən sonra alınmış arayış qəbul ediləcəkdir.);
- tender təklifini və satınalma müqaviləsini imzalamaq salahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə təqdim edilməlidir. Sənəd PDF formatında əlavə edilməlidir.);
- iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (vergi oqranı və yaxud Kommersiya Məhkəməsi tərəfindən təqdim olunmuş sənəd təqdim edilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir. Təsdiqedici sənəd PDF formatında əlavə edilməlidir.);
- iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya “ASAN xidmət” mərkəzlərindən alınmış arayış qəbul ediləcəkdir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir, təsdiqedici sənəd PDF formatında əlavə edilməlidir.);
- iddiaçı tərəfindən doldurulmuş tenderin əsas şərtlər toplusunun “Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna dair məlumat” cədvəli, təsdiqedici sənədlər əlavə olunmaqla (əlavə 1) (təqdim olunması məcburidir. Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlılığının olması barədə məlumatlar və müvafiq sertifikatlar əlavə edilməlidir. Tələb olunan təsdiqedici sənədlər əlavə olunmaqla təqdim edilməlidir.);
- tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;
- iddiaçının tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 60 bank günü qüvvədə olmalıdır; ödəniş şərtləri, malların tam göndərilməsi (təhvil verilməsi) müddəti və mallar üçün təminat şərtləri barədə məlumatlar tender təkifinin tərkib hissəsi sayılaraq təqdim olunmalıdır);
- iddiaçının tender təklifinin bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalı və tender təklifinin ümumi qiymətinin 1 (bir) faizini təşkil etməlidir).

İcraçı malların korlanmadan və zədələnmədən, sifarişçinin müəyyən etdiyi sonuncu təyinat məntəqəsinə qablaşdırma, markalanma və daşınmasını təmin etməlidir. Müqavilə imzalandığı tarixdən malların (iş və xidmətlərin) 100 (bir yüz) faizi ən geci 100 təqvim günü ərzində icraçı tərəfindən sifarişçiyə təhvil verilməsi başa çatdırılmalıdır.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak üçün yuxarıda qeyd olunan sənədləri 9 iyun 2023-cü il saat 16.00-a, tender təklifi və tender təklifinin bank təminatını isə 20 iyun 2023-cü il saat 16.00-dək yuxarıda göstərilən ünvana təqdim etməlidirlər.

İddiaçıların təklifləri 21 iyun 2023-cü il saat 16.00-da Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***



## “Bakı Toxuculuq Qalantereya” ASC səhmdarlarının nəzərinə!

“Bakı Toxuculuq Qalantereya” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı 23 iyun 2023-cü il saat 10.00-da cəmiyyətin yerləşdiyi ünvanda keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. 2022-ci ilin hesabatı və maliyyə hesabatlarının təsdiq edilməsi.
2. Mənfəət və zərərlərin bölüşdürülməsi.
3. Digər məsələlər.

Səhmdarlar yığıncaqda müzakirəyə verilmiş məsələ ilə bağlı sənədlərlə hər həftənin iş günləri, saat 13.00-dək cəmiyyətə gəlməklə tanış ola bilərlər.

Əlaqə telefonu - 012-425-01-91.

Ünvan: Bakı şəhəri, Sabunçu rayonu, Anaşkin küçəsi 39.

***Müşahidə şurası***



## “Qəçrəş” ASC səhmdarlarının nəzərinə!

“Qəçrəş” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı 17 iyun 2023-cü il saat 14.00-da cəmiyyətin yerləşdiyi ünvanda keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. 2022-ci ilin hesabatı və maliyyə hesabatlarının təsdiq edilməsi.
2. Digər məsələlər.

Səhmdarlar yığıncaqda müzakirəyə verilmiş məsələ ilə bağlı sənədlərlə hər həftənin iş günləri, saat 13.00-dək tanış ola bilərlər.

Telefon - 050-616-99-30.

Ünvan: Quba rayonu, Qəçrəş kəndi.



## “Sumqayıt -çörək” ATSC səhmdarlarının nəzərinə!

23 iyun 2023-cü il saat 11.00-da cəmiyyətin iclas zalında səhmdarların növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Yığıncağın gündəliyi:

- ATSC-nin 2022-ci il üzrə maliyyə-təsərrüfat fəaliyyətinin yekunlarının müzakirəsi və təsdiqi.
- Maliyyə-təftiş komissiyasının hesabatı və təsdiq edilməsi.
- İdarə heyəti və müşahidə şurası üzvlərinin seçilməsi.
- İdarə heyəti sədrinin seçilməsi.
- Maliyyə- təftiş komissiyası üzvlərinin seçilməsi.
- Mənfəətin bölüşdürülməsi və əldə edilmiş xalis mənfəətdən istifadənin təyin edilib təsdiqlənməsi.

Ünvan– Sumqayıt şəhəri, Lermontov küçəsi 13.

***“Sumqayıt-çörək” ATSC***



## “Suraxanı Satış Bazası” ASC səhmdarlarının nəzərinə!

“Suraxanı Satış Bazası” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı 23 iyun 2023-cü il saat 10.00-da cəmiyyətin yerləşdiyi ünvanda keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. 2022-ci ilin hesabatı və maliyyə hesabatlarının təsdiq edilməsi.
2. Mənfəət və zərərlərin bölüşdürülməsi.
3. Müşahidə şurasının, icra orqanının və təftiş müfəttişinin yenidən seçilməsi.
4. Digər məsələlər.

Səhmdarlar yığıncaqda müzakirə ediləcək məsələ ilə bağlı sənədlərlə cəmiyyətə gəlməklə tanış ola bilərlər.

Əlaqə telefonu – 994503304151.

Ünvan – Bakı şəhəri, Suraxanı rayonu, 14 iyul küçəsi 153.

***Müşahidə şurası***



## “Puta – Əyrici” ASC səhmdarlarının nəzərinə!

23 iyun 2023-cü il saat 11.00-da “Puta – Əyrici” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Yığıncağın gündəliyi:

1.Cəmiyyətin 2022-ci ilin maliyyə-təsərrüfat fəaliyyətinə aid idarə heyətinin hesabatı.
2. Digər məsələlər.

Yığıncağın gündəliyinə aid sənədlərlə cəmiyyətin yerləşdiyi ünvanda tanış olmaq mümkündür. Yığıncaqda bütün səhmdarların şəxsiyyəti təsdiq edən sənədlə (vəkil olunmuş nümayəndələr notarial təsdiqlənmiş etibarnamə və şəxsiyyəti təsdiq edən sənədlə) iştirakı vacibdir.

Telefonlar – (012) 545-85-25,055-812-62-28.

Ünvan – Bakı, Qaradağ rayonu, Puta qəsəbəsi, inzibati bina.

***İdarə heyəti***

*İdman xəbərləri*

# Bu gün “Baku Open 2023” beynəlxalq şahmat festivalı start götürür




**Bu gün ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunan “Baku Open 2023” beynəlxalq şahmat festivalı start götürür.**

Yarışa Azərbaycan yığmasının 15 -dən çox üzvü qatılıb. Festivalda şahmatçılar üç qrupda (A, B və C) mübarizə aparırlar. Hər üç qrupda yarış İsveçrə sistemi üzrə 9 turdan ibarət olacaq. Ümumilikdə festivalda iştirakla bağlı 23 ölkədən 607 şahmatçı qeydiyyatdan keçib. Onların sırasında 44 beynəlxalq qrossmeyster, 44 beynəlxalq usta və 41 FIDE ustası var. Yarışın reytinq favoriti Hans Nimandır. ABŞ təmsilçisi 2708 FIDE reytinqinə sahibdir.

Yarışın ümumi mükafat fondu 55 min dollar təşkil edir. A qrupunun qalibi 12 min dolları və xüsusi hazırlanan kuboku qazanacaq. Festivalın C turnirində hər yaş qrupunda (U-8, U-10, U-12) qalib olacaq şahmatçılar Rumıniyada keçiriləcək yeniyetmələrin Avropa çempionatına ezam ediləcəklər.

**Minifutbol üzrə Azərbaycan milli komandası Bakıda ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş beynəlxalq turnirdə növbəti oyununu keçirib. A qrupunda yer alan millimiz üçüncü tur çərçivəsində Gürcüstan yığması ilə üz-üzə gəlib. Yığmamız qarşılaşmada 2:0 hesabla qalib gəlib. Milli komanda bu nəticədən sonra 7 xalla liderliyə yüksəlib. 3 xalı olan Gürcüstan 4-cü sırada yer alıb.**

## Minifutbol yığmamız Gürcüstan komandasına qalib gəlib



Xatırladaq ki, minifutbolçularımız Çexiya seçməsi ilə ilk oyunda qolsuz heç-heçə edib, ikinci qarşılaşmada isə İtaliya komandasına qalib gəlib – 2:0.

Millimiz qrup oyunları çərçivəsində ayın 4-də Serbiya ilə üz-üzə gələcək.

Qeyd edək ki, qrup birinciləri yarımfinalda, 2-3-cü yerləri tutacaq komandalar isə pley-offa vəsiqə qazanacaqlar.

Turnirə mayın 6-da yekun vurulacaq.

# Gimnastımız Nikita Simonov FIG kubokuna layiq görülüb

**Azərbaycanın idman gimnastı Nikita Simonov Beynəlxalq Gimnastika Federasiyası (FIG) tərəfindən mükafatlandırılıb.**



Azərbaycan Gimnastika Federasiyasından “Xalq qəzeti”nə bildirilib ki, təmsilçimiz 2023-cü ildə iştirak etdiyi dörd dünya kuboku yarışlarında topladığı ən yüksək üç nəticənin cəminə əsasən, FIG kubokuna layiq görülüb.

Qeyd edək ki, Misirin paytaxtı Qahirədə keçirilən dünya kubokunun dördüncü mərhələ yarışında mübarizə aparan gimnastımız halqalar ilə hərəkətlərin icrasında qızıl medala sahib olub.

***L.QURBANOVA, “Xalq qəzeti”***

*Yeni tamaşalar*

# “Kod adı: V.X.A” faciəsi səhnədə

**Tarixin səhifələrində qanlı hərflərlə yazılmış, bir çox günahsız insanın ölümünə səbəb olmuş 1937-ci il. Bu dövr haqqında çox məqalələr, kitablar yazılıb, filmlər çəkilib. Lakin teatr səhnəsində o dövrün hadisələrini canlı şəkildə gözyaşları içində, həyəcanla izləmək teatrsevər bir izləyici üçün tamam başqa hissdir.**



Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının baş rejissoru, Əməkdar incəsənət xadimi Mehriban xanım Ələkbərzadənin tarixi-sənədli faktlara istinad edərək yazdığı “Kod adı: V.X.A” adlı əsərdə Stalin repressiyalarından əziyyət çəkən, Vətən xaini adlandırılan Əhməd Cavad, Hüseyn Cavid, Mikayıl Müşfiq və digər görkəmli ədəbiyyat xadimlərinin ailə üzvlərinin, xanımlarının sürgündəki məşəqqətli həyatı təsvir olunur. Vətənə xəyanətdə günahlandırılan bu “cinayətkarlar” konkret olaraq millətçilik, casusluq və terrorizm ittihamı ilə üzləşənlərdir. Qeyd edək ki, həmin dövrdə türkçülərə, müsavatçılara və məmləkəti irəli aparan şəxslərə qarşı amansız hücumlar təşkil olunurdu. Onlar xalq düşməni, əksinqilabçı, millətçi, sovet quruculuğuna nifrət bəsləyən zərərli ünsürlər adlandırılırdılar.

Tamaşa Əhməd Cavadın 130 illiyinə, repressiya qurbanı olmuş digər böyük fikir adamlarına, onların ailə üzvlərinə və xanımlarına ithaf olunub.

***Fidan HÜQUQQIZI, “Xalq qəzeti”***

*Sağlamlıq guşəsi*

# Zədələnmiş qaraciyər bərpa olunur...

**Qaraciyər regenerasiya üçün böyük potensiala malik orqandır. Müxtəlif xəstəliklər, hədsiz dərman qəbulu, alkoqol nəticəsində orqan ciddi şəkildə zədələnməyibsə, o, özözünə bərpa etmək qabiliyyətini saxlayır. Əbəs yerə demirlər ki, qaraciyər orqanizmin laboratoriyasıdır. Bu laboratoriya qanı zərərli maddələrdən təmizləyərək digər orqanlara ötürür. Mütəxəssislər belə düşünürlər ki, sağlam həyat tərzi ilə zədələnmiş qaraciyəri bərpa etmək olur. Qaraciyərin sağaldığını göstərən əlamətlərlə tanış olaq:**



**Yaddaş yaxşılaşır.** Zəif və xəstə qaraciyər insan orqanizmindəki ən böyük filtr rolunun öhdəsindən yaxşı gələ bilmir. Nəticədə, qanda arzuolunmaz zərərli maddələr toplanır ki, bu da beyinə mənfi təsir göstərir. Beyində tam aydın olmayan fikirlər və unutqanlıq yaranır. Qaraciyərin bərpasının əlaməti yaddaş və idrak funksiyalarının yaxşılaşmasıdır.

**Enerji yüksəlir.** Qaraciyərin funksiyası azaldıqda, maddələr mübadiləsinə mənfi təsir göstərir, daimi yorğunluq və yuxululuğa səbəb olur. Qaraciyər yenilən dikcə, insan özünü daha enerjili hiss etməyə başlayır.

**Çəki normallaşır.** Bu orqanın vəziyyəti çəkiyə təsir göstərir. Qaraciyər sağlam olduqda, iştah normallaşır, daxili çəki tənzimləmə mexanizmləri səmərəli işləyir.

**Üzün rəngi təravətlənir.** Qaraciyərin pis vəziyyətinə görə, toksinlərin yığılması dəri problemlərinə səbəb olur. Ancaq qaraciyər sağalmağa başlayanda, dərinin rəngi düzəlir, üz quruluşunda şişkinlik itir.

***Zərifə HÜSEYNOVA, “Xalq qəzeti”***

*Texnologiya xəbərləri*

# “Qaranlıq şəbəkə”nin gizlinləri

**“Dark Web” (qaranlıq şəbəkə) internetin axtarış sistemi tərəfindən indeksləşdirilməyən bir hissəsidir. Bu, yalnız şəxsi brauzer tərəfindən əldə edilə bilən gizli saytların toplusudur. Ondan həm qanuni, həm də qeyri-qanuni təcrübələrdə faydalı ola bilən internet fəaliyyətini anonim və məxfi saxlamaq üçün istifadə olunur. Bəziləri bu şəbəkədən hökumətin senzurasından yayınmaq üçün istifadə etsə də, onun çox qeyri-qanuni fəaliyyətlər üçün istifadə edildiyi də məlumdur.**



“Qaranlıq internet”ə giriş “Tor” adlı brauzer vasitəsilə həyata keçirilir. “Tor” brauzerindəki axtarış sistemində sözlər axtara bilməzsiniz. Saytlara daxil olmaq üçün saytın tam ünvanı tələb olunur.

“Qaranlıq şəbəkə”dən diqqətlə istifadə etsəniz, çox faydalı bir sahəyə çevrilə bilər. Bu sahədən təhlükəsiz istifadə etmək tamamilə istifadəçidən asılıdır. Bundan əlavə, “qaranlıq şəbəkə”yə daxil olduğunuz saytları mütləq bilməlisiniz.

“Dark Web” insanlara məxfiliklərini qorumağa və fikirlərini sərbəst ifadə etməyə kömək edir. Bəzi insanlar üçün “Qaranlıq şəbəkə” cinayət fəaliyyəti ilə məşğul olmağı asanlaşdıra bilər. Belə ki, bura istifadəçilərə məxfilik vəd etsə də, başqalarının məxfiliyini pozmaq üçün də istifadə edilə bilər. Şəxsi fotoşəkillər, tibbi qeydlər və maliyyə məlumatları oğurlana və burada paylaşıla bilər.

***Səadət RZAYEVA, “Xalq qəzeti”***



# Fikirləri oxuyan süni intellekt

**“GPT” modelləri (əvvəlcədən öyrədilmiş çeviricilər) süni intellekt tədqiqatlarında müasir texnologiyanın əsasını təşkil edir. Artıq bu modellər hər şeyə tətbiq edilir, bu isə mübahisələrə səbəb olur. Mövcud istiqamətdəki müzakirələrə insan düşüncələrini oxuyan yeni “GPT-1” modeli də əlavə edilib. Xəbəri “cnn.com” yayıb.**

Hazırlanmış “GPT” modeli “ChatGPT” ilə çox oxşardır. Fərq yalnız odur ki, əmrlər insan beyninin fəaliyyəti nəticəsində alınır. Yeni metod beyinə qoşulan elektrodları tələb etmir. İnsanın eşitdiyi, dediyi və ya təsəvvür etdiklərini şərh etmək üçün “fMRI” adlı aparatdan alınan şəkillərdən istifadə olunur. Süni intellekt modeli fikirləri sözbəsöz şərh edə bilməsə də, ümumi proqnozları düzgün çıxır. Məsələn, dil modeli iştirakçılardan birinin “mənim hələ sürücülük vəsiqəm yoxdur” düşüncəsini “o, maşın sürməyi öyrənməyə başlamayıb” kimi şərh edib.

“Texas Universiteti”ndən komandaya rəhbərlik edən Cerri Tanq süni intellekt haqqında deyib: “Sistemimiz çox fərqli səviyyədə fəaliyyət göstərir. Təcrübələrdə “GPT-1” modeli insanların fikirlərini yüksək dəqiqliklə proqnozlaşdırıb. Məqsədimiz əqli məxfiliyi qoruyan siyasətlərin tətbiqi və beyin analizi texnologiyasını inkişaf etdirməkdir”.

Qeyd edək ki, düşüncələri oxuya bilən süni intellektli maşınlar “GPT” texnologiyasının ən mübahisəli forması ola bilər.

***Əfsanə ƏHƏDLİ, “Xalq qəzeti”***

✓ “ATİLLA İNŞAAT” MMC-nin dairəvi möhürü itdiyi üçün etibarsız sayılır. (VÖEN -2901245851).

# HAVA PROQNOZU

✓ *Mayın 4-də*

✓ **Bakıda və Abşeron yarımadasında** buludlu hava şəraiti üstünlük təşkil edəcək. Gecə və axşam əsasən şəhərətrafı ərazilərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək, axşam cənub-şərq küləyi ilə əvəz olunacaq. Gecə 10-14° , gündüz 15-20° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 768 mm civə sütunu, nisbi rütubət 70-80 faiz olacaq.

✓ **Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin bəzi dağlıq ərazilərdə arabir yağıntılı olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə sulu qar yağacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Gecə 4-9°, gündüz 18-23° isti olacaq.

✓ **Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında** bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Günün ikinci yarısında tədricən kəsiləcək. Mülayim şərq küləyi əsəcək. Gecə 0-5°, gündüz 5-10°, bəzi yerlərdə 13° isti olacaq.

✓ **Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında** bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Günün ikinci yarısında tədricən kəsiləcək. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 0-5° isti, dağlıq ərazilərdə 3°-dək şaxta, gündüz 5-10° bəzi yerlərdə 14° isti olacaq.

✓ **Qazax, Gəncə, Goranboy, Tərtər, Füzuli rayonlarında** bəzi yerlərdə arabir yağıntılı olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gündüz tədricən kəsiləcək. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Gecə 5-10°, gündüz 17-22° isti olacaq.

✓ **Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Mingəçevir, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında** bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Gecə 4-9°, gündüz 14-18° isti, dağlarda gecə 3° şaxtadan 2°-dək isti, gündüz 2-6° isti olacaq.

✓ **Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında** bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gündüz qərb rayonlarından başlayaraq yağıntıların tədricən kəsiləcəyi gözlənilir. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Gecə 5-10°, gündüz 17-21° isti olacaq.

✓ **Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Cəlilabad rayonlarında** bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv və güclü olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Axşam tədricən kəsiləcək Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Gecə 10-13°, gündüz 16-20°, dağlarda gecə 0-4°, gündüz 5-10° isti olacaq.

# ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru, professor Mustafa Babanlıya atası

**BABA MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Əməkdar jurnalist Vaqif Musayev keçmiş iş yoldaşı, AzərTAC-ın İdarə Heyətinin sədr müavini Dağbəyi İsmayılova bacısı

**HƏMAYIL XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 5048
SİFARİŞ 1075
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır
00:00